Hər kəs ədalətli olacaq

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | İctimai-siyasi, hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 46 (6089) 29 noyabr 2024-cü il | Qiyməti 40 qəpik

# Prezident və ailə üzvləri Nəbatat Bağında



Bax:səh-2

## Hikmət Hacıyev: "Politico" dezinformasiya yaymaqda davam edir



**Təəssüf edirəm ki, "POLITICO Europe" Azərbaycandan üzr istəmək və saxta xəbər məqaləsini geri götürmək əvəzinə, Avropa və dünya ictimaiyyətini çaşdırmaq üçün dezinformasiyalar yaymağa davam edir.**

Adalet.az xəbər verir ki, bunu Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "X" platformasında "Politico"da dərc edilmiş məqaləyə münasibət bildirərkən qeyd edib. O, Azərbaycanın 2024-cü ildə Rusiyadan qaz idxal etmədiyini, məqalədə qeyd edilən faktın isə svop əməliyyatı olduğunu vurğulayıb. ""Politico"nun məqaləsində Azərbaycan mediasına istinadən "Azərbaycan bu il Rusiyadan 141,6 milyon kubmetr qaz idxal etdiyini" göstərən rəsmi məlumatlara yer verilib. Qeyd etdiyiniz fakt idxal deyil, svop əməliyyatıdır. Qonşu dövlətlər arasında belə mövsümi mübadilələr baş verir və bu, normaldır. Təəssüf edirəm ki, məqalədə mübadilə və idxal arasında fərq qoyulmur", - Hikmət Hacıyev qeyd edib.



## AKTYOR CAVANŞİR HADIYEVİN STATUSU

**"Fransanın tarixində cəmi bir kişi olub, o da Janna Dark".**

## NƏ OLDU, İNDİ DƏ ARADAN CIRIRSIZ?!





**"26-lar", "Ulduzlar sönmür" kimi möhtəşəm filmlərinin Azərbaycan televiziyalarında göstərilməsinə qadağa qoyulan görkəmli rejissor Əjdər İbrahimovun başdan-ayağa satiraltı mənalarla dolu olan "26-lar" filmində belə bir yer var. İngilis qoşunları Bakıya gələndən sonra, başda Şaumyan olmaqla, gəmiyə minib şəhərdən qaçmağa çalışırlar.**

Bu vaxt bir nəfər üzünü onlara tutub deyir:

**- Hə, nə oldu, indi də aradan cırırsız?**

İndi Ukraynanı oda atan NATO dövlətləri, eləcə də Avropa dövlətləri Rusiyanın Ukraynanın ən böyük hərbi zavoduna "Oreşnik" raketi atandan sonra şalvarlarını necə batırıblarsa, hamısı Kiyevdəki səfirliklərini bağlayıb 26-lar kimi aradan cırırlar.

## *SOSİALİZM OLMAYANDA YARIŞ OLMUR?!*

**Ağcabədi rayonunda bu günədək 26 min ton pambıq tədarük olunub. Havalar imkan versə ağcabədililər bu rəqəmi 40 min tona çatdırmaq fikrindədirlər. Hələ əl dəyməmiş 5 min hektar tarla durur, bu da təxminən 15-20 min ton pambıq deməkdir.**

Bir vaxtlar rayonlar arasında pambıq və üzüm tədarükündə yarış gedirdi. Hər gün qəzetlərdə rəsmi cədvəl çap olunurdu ki, hansı rayon nə qədər pambıq və ya üzüm tədarük edib.

İndi deyəsən, bununla maraqlanan yoxdur. Ən azı "Xalq" qəzetində belə cədvəlləri dərc etmək olar. Və xalq da ölkəmizdə hansı rayonun nə qədər pambıq və ya üzüm, eləcə də taxıl tədarük etmələrini öyrənə bilərlər.

**Aqil ABBAS**
**aqilabbas@rambler.ru**

# SAĞALMAZ ERMƏNİ XƏSTƏLİYİ



***70-ci illərin axırına yaxın Rusiya mətbuatında belə bir statistik məlumat dərc olunmuşdu: "Dünyada nə qədər erməni var və hansı ölkələrdə nə qədəri yaşayır?". Həmin statistik məlumata görə, dünyanın 49 ölkəsində 10 milyona yaxın erməni yaşayır ki, onun 3 milyonundan bir az artığı indiki Ermənistanda yaşayır. Hazırda Ermənistanda 2 milyon 500 min erməni qalıb.***

***Yəqin ki, bu 40 ildən çox bir müddətdə dünyada sayları bir 3 milyon artıb, yaşadıqları ölkələrin də sayı artıb.***

***Qarabağda əkdikləri minalar kimi dünyanın bütün ölkələrinə elə mina kimi səpələniblər.***

***Olsun, amma ən maraqlısı budur ki, bu 13 milyon ermənininin içində bir nəfər ağıllısı belə yoxdu. Yəni doğrudanmı bütöv bir millət ağlını itirib?***

**Bax:səh-3**



**Millimizin baş məşqçisi Fernando Santuşun maaşını artırmaq lazımdır. Futbolumuzu belə rəzil günə qoyduğuna görə.**

## ABXAZİYANIN «PREZİDENTİ» DƏ ARADAN CIRDI



**Gürcüstanın bir parçası olan separatçı Abxaziya dırnaqarası respublikasının dırnaqarası prezidenti aradan cırıb qaçdı Rusiyaya. Yəni Qərbin bir oyunu da pozuldu.**

## *GÜNÜN LƏTİFƏSİ*



Ramiz həkim və dostları Qazağa qonaq gəlmiş şair Vəli Xramçaylının şərəfinə ziyafət verirlər. Yemək-içməkdən sonra Ramiz həkim Vəli Xramçaylıya:

**- Şair, deyə bilərsən, od, su və mis turbasından keçənə nə deyirlər?**

Vəli Xramçaylı:

**- Qağa bunu bilməyə nə var, tut arağı...**

# Prezident və ailə üzvləri Nəbatat Bağında



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Bakıda abadlıq, əsaslı yenidənqurma, tikinti və genişləndirmə işlərindən sonra Mərkəzi Nəbatat Bağının açılışında iştirak ediblər.**

Adalet.az xəbər verir ki, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov Mərkəzi Nəbatat Bağında yaradılan şəraitlə bağlı ətraflı məlumat verdi.

Qeyd edək ki, dövlətimizin başçısı Mərkəzi Nəbatat Bağında görülən işləri daim diqqət mərkəzində saxlayıb. Belə ki, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iki dəfə - 2023-cü ilin iyul və bu ilin iyun ayında Mərkəzi Nəbatat Bağında görülən işlərlə tanış olmaları bunu bir daha təsdiq edir.

Bildirildi ki, əsaslı yenidənqurma və bərpa işləri nəticəsində Mərkəzi Nəbatat Bağının ərazisi 39 hektardan 45 hektara çatdırılıb.

Bağda giriş kompleksi yaradılıb, müasir tələblərə, tikinti normalarına cavab verən yeni oranjereyalar, fəvvarə inşa edilib, mövcud oranjereyalar əsaslı təmir edilib. Burada xarici ölkələrdən gətirilmiş xüsusi şəraitdə bəslənən müxtəlif növdə nadir dekorativ ağaclar, kol və güllər əkilib.

Bağın ərazisində bitkilərin yetişdirilməsi məqsədilə 3 bloklu istixana, göl kompleksi və baxış meydançası inşa edilib.

Məlumat verildi ki, bağın ərazisində dördmərtəbəli yeni inzibati bina inşa edilib, aypara formalı ikimərtəbəli qədim inzibati binada isə əsaslı təmir-bərpa işləri aparılıb. Nəbatat Bağında piyadalar üçün 650 metr uzunluğunda müasir körpü tikilib və lift quraşdırılıb. Bağın ərazisində iki restoran fəaliyyət göstərəcək.

Həmçinin bağda labirint formalı yaşıllıq zonası ilə yanaşı, uşaq-əyləncə meydançası, avtomobillər üçün parklanma yeri də yaradılıb. Köhnə giriş zonası öz tarixi üslubunda təmir edilib.

Yeraltı su anbarları, nasosxanalar və qazanxanalar inşa edilib.

Ərazi boyu hasar yenidən qurulub, piyada yolları salınıb, müasir oturacaqlar, işıqlandırma, yanğından mühafizə və videomüşahidə sistemləri quraşdırılıb, ümumi sahəsi 26 hektar olan yaşıllıqların suvarma sistemləri yenilənib.

Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları əsasında Mərkəzi Nəbatat Bağında həyata keçirilən abadlıq və yenidənqurma tədbirləri ölkəmizdə bitki biomüxtəlifliyinin qorunmasına və səmərəli istifadəsinə göstərilən xüsusi diqqətin bariz nümunəsidir.

Azərbaycan florasında mövcud olan bitki növlərinin və genofondunun mühafizəsi məqsədilə 1934-cü ildə yaradılan Mərkəzi Nəbatat Bağı ekoloji təmizliyin qorunması, elmi araşdırma, tədris və maarifləndirmə baxımından mühüm əhəmiyyətə malikdir.

Burada dünyanın müxtəlif iqlim zonalarından toplanan bitki kolleksiyaları yalnız onların mühafizəsi məqsədilə deyil, həm də ölkədə bu sahədə elmi tədqiqatların davamlı inkişafına xidmət edir.

**Son illər Azərbaycanın bütün regionlarında, o cümlədən Bakı şəhərində abadlıq və yenidənqurma işləri geniş vüsət alıb. Əhalinin rahatlığının və istirahətinin yüksək səviyyədə təşkili məqsədilə yeni parklar və çoxsaylı yaşıllıq zolaqları salınıb, mövcud park və xiyabanlar isə əsaslı şəkildə yenidən qurulub. Həyata keçirilən bu layihələr Bakının və regionların simasını dəyişməklə yanaşı, ölkəmizdə ekoloji vəziyyətin yaxşılaşdırılmasında da mühüm rol oynayır.**

# ***Spiker:*** "Onu böyük bir qlobal problemə çevirmək lazım deyil"

**"İnkişafımımız göz qabağındadır, amma bəzi xırda-para nöqsanlar da var".**

Adalet.az xəbər verir ki, bunu Milli Məclisin plenar iclasında "Dövlət sosial müdafiə fondunun 2025-ci il büdcəsi haqqında" və "İşsizlikdən sığorta fondunun 2025-ci il büdcəsi haqqında" qanun layihələrinə münasibət bildirərkən deputat Səyyad Salahlı deyib.

"İnkişafımız misilsiz şəkildə hamımızın gözü qarşısındadır. Hərdən Bakının televiziyada dronla görüntüsünü verirlər, adam heyran qalır ki, bizim şəhərimizdir?! Bizim burda söylədiklərimiz isə bəzi xırda-para nöqsanları gün işığına çıxartmaqdır ki, əlaqədar nazirliklər bunu görüb bir az aktiv fəaliyyət göstərsinlər ki, səhvlərimiz olmasın. Bu xırda-para məsələlrdən biri budur ki, İmişlinin 1 nömrəli məktəbində 1390 nəfər şagird təhsil alır. Məktəbin cəmi 28 otağı, amma 56 sinifi var. Yeni korpus tikilməlidir. Burda o qədər sıxlıq var ki, 6 gün ard-arda təhsil üsulu ilə işləyirlər. Bunu çoxdan bilirlər, amma əməl etmirlər. Məktəbin akt zalı sınıq, yaman günə qalmış partalarla, stol-stullarla doludur.



Bundan başqa, Məhəmmədli kəndindən 7 kilometrlikdən Göbəktala və Şahverdili məktəblərinə şagirdlər gedir. Onlar asfalt yolu ilə məktəbə gəlirlər.

Məhəmmədlidə modul tipli məktəb tikmək olmazmı? Bu problem bununla da həll oluna bilər. Bunu nöqsan kimi demirəm, yada salıram. Bununla yanaşı, Uşaq Mərkəzi Kitabxanası mərkəzi binadır. Amma onun istilik sistemi yoxdur, elektrik xətləri bərbad vəziyyətdədir, binanın dam örtüyünün dəyişdirilməsinə ehtiyac var, eləcə də qapı və pəncərələrin istismar müddəti bitib. Mədəni maarif müəssisəində sanitar qovşaq yoxdur. Binanın təmir işlərinin aparılmasına ehtiyac var.

Eyni zamanda, icra nümayəndəliklərinin əksəriyyətinin binası yoxdur. Oruclu kəndində isə tragikomik vəziyyət var. İcra nümayəndəsi sənədləri maşınında gəzdirir və kənddə deyir ki, ay camaat burdayam, kimin sənəd-sünəd işi varsa, gəlsin. Onlara bir tikinti vermək olmaz? Uşaq bağçalarında da vəziyyət yaxşı deyil.

Çox təəssüf ki, rayonda uşaq bağçalarının çoxu bərbad vəziyyətdədir, bir çoxusu ümumiyyətlə yoxdur. Məsələn, Bəhrəmtəpə kimi qəsəbədə uşaq müəssisəsi yoxdur. Allaha şükür camaatın vəziyyəti yaxşıdır. Gözləyirlər ki, dövlət insanlara pul, traktor versin. Gedin 10 nəfər yığışın traktor alın, heç kimə də minnət eləməyin. Əsas yeri qazmaqdır, dövlət toxumu, subsidiyanı verir. Sən tənbəlsən, indi nə edək? İzah edirik sonra başa düşürlər. Çoxlu inkişaf etmiş fermerlər də var. Kim camaatın işi, pulu yoxdur deyirsə, yalandır", - deyə deputat bildirib.

Milli Məclisin sədri Sahibə Qafarova səslənən fikirlərə münasibət bildirib: "Səyyad müəllim, siz deyirsiniz ki, hamısı xırda-para məsələlərdir. Amma xırda-para məsələlər haqqında xırda-para kimi danışmaq lazımdır. Onu böyük bir qlobal problemə çevirmək lazım deyil. Hörmətli Səyyad müəllim, sizin sözünüzdən mən elə başa düşdüm ki, siz elə bilirsiniz mən burada heç kimi danışmağa qoymuram. Xeyr! Burada oturan mənim çox hörmətli həmkarlarım var. Ən azı keçən 5 ildə çox yaxşı bilirlər ki, mən heç kimin sözünü heç vaxt kəsmirəm. Əgər kəsirəmsə, mən üzr istəyirəm. Tərbiyəm belədir.

Burada suallarınıza özünüz elə cavab verdiniz. Çox zaman insanların özləri fəal olmalıdır. Bunu burada biz müzakirə edəndə hökumətin, dövlətin etdiyi işlər haqqında danışmaq lazımdır. Biz xalqı təmsil edirik. Burada isə bəziləri çıxış edəndə elə çıxış edirlər ki, guya onların seçiciləri bu gün bu ölkəyə qarşıdır. Görülən işlər haqqında danışılmır. Bu qədər işlər görülür. Əlbəttə çatışmazlıqlar var. İş olan yerdə problem də olacaq.

Deputat bunu elə formada çatdırsın ki, camaata da çalxalanma salmasınlar. Siz dünən deyirsiniz ki, bəzi hökumət üzvləri elə edir ki, elə bil qəsdən edirlər bəzi şeyləri, düzgün etmirlər. Bu kim üçün deyilir?! Hansı tərəflərin sözüdür bu? Ona görə də hər bir sözün arxasında ya faktlar durmalıdır, ya da dərin bir məntiq olmalıdır. Bunu tək sizə demirəm. Bu dəqiqə bunu hamıya deyirəm. Bu sahədə çox böyük işlər görülür.

Hesabatlar var, onlara baxın. Dəfələrlə nazir gəlib burada çıxış edib, suallara cavab verib. Yenə də heyvanlardan danışırlar. Yenə də deyirlər sağlam heyvanlar verilmir. Kimsə deyir ki, kiminsə gedib soyuducusunu yoxlayırlar, qazanını yoxlayırlar. Xahiş edirəm danışanda fikir verin".

**Nicat Novruzoğlu**

Səxavət Məmməd

# *Rusiya Ukrayna müharibəsi daha şiddətli mərhələyə qədəm qoydu*



***Rusiya Ukrayna müharibəsi gözlənilənin əksinə daha şiddətli mərhələyə qədəm qoydu. ABŞ-dəki seçkiləri uduzan demokratlar müharibəni dayandıracağını bəyan edən Trampa ATACMS sürprizi etdilər. Rusiyanın dərinliklərinin vurulması ilə bağlı icazənin verilməsi Qərbdə birmənalı qarşılanmırdı. Bir çox ekspertlər bu icazədən sonra Rusiyanın daha da aqressivləşəcəyini deyirdilər. Yeri gəlmişkən, ATACMS-dan istifadə Ukraynaya baha gələcəyini bir neçə dəfə yazmışdım.***

***Nədənsə Qərbdə və Azərbaycanda da bəzi şəxslərdə belə bir fikir formalaşmışdı ki, İran və Rusiya ancaq blef edir. İranın İsrailə ikinci hücumu onu göstərdi ki, İranın dili olduğu kimi diyircəyi də var. Rusiyaya gəldikdə isə rusların qitələrarası raketlərinin olması, uğurlu sınaqları onu deməyə əsas verirdi ki, Moskva bundan hər an istifadə edə bilər.***

***Ukrayna tərəfi ATACMS-lardan istifadə edərkən elə bir əhvala bürünmüşdü ki, sanki müharibənin taleyi həll olacaq. Ancaq rusların "Oreşnik" raketi ilə zərbə endirməsi sanki qurbağa gölünə daş atmağa bənzədi. Zelenski həmişəki kimi tərəfdaşlarını kömək etməməkdə ittiham etdi. Nəticə nə oldu? "Oreşnik"in sınaq atışı siyasi baxımdan Rusiyanın nə qədər ciddi olmasını göstərdi. Raketin özü isə Qərbin hava hücumundan müdafiə sistemlərinin heç bir işə yaramadağını ortaya qoydu. Ola bilsin deyənlər olacaq ki, bir raketlə heç nə etmək olmaz. Bir şeyə diqqət etmək lazımdır ki, NATO bir raketə görə toplantı keçirmək məcburiyyətində qalıb.***

***Rusiya-Ukrayna müharibəsinə diqqət etdikdə, Qərbin Rusiyanı düzgün proqnozlaşdıra bilmədiyinin açıq şahidi oluruq. "Rusiya etməz, Rusiya bu qədər dözməz, Rusiya bu qədər irəli getməz" deyilən hər şeyi Rusiya etməkdədir. Məğlubiyyət və tələskənlik həmişə səhvlərə yol açır. Rusiyanın "Oreşnik" raketindən istifadəsi Qərbdə də birmənalı qarşılanmadı. Əksər ekspert və jurnalistlər Rusiyanın addımını cavab zərbəsi kimi qiymətləndirdi. Buna qədər bütün münaqişələrdə Qərb həmişə bu xətti tuturdu: "qarşı tərəf səhv etdi, cavab veririk, yaxud cəzalandırırıq". Eyni vəziyyətlə indi Ukrayna və Qərb üz-üzə qalıb.***

***Müharibənin lap əvvəlinə baxaq: Qərb, əslində, istəyinə nail olmuşdu. Qərb məcbur etmişdi ki, Rusiya Ukraynaya hücum etsin. Bunu Putin də etiraf edib. O zaman Rusiyanı işğalçı kimi göstərmək, sanksiyalar tətbiq etmək çox asan idi. Rusiyanın səhvi vardı və cəzalandırılırdı. Hazırda situasiya dəyişib. Vəziyyət hətta o həddə çatıb ki, mətbuat üzərindən manipulyasiya etmək də çətinləşib.***

***Müharibə elə bir həddə çatıb ki, kimin işğalçı, kimin təcavüzə məruz qalan olduğu heç kimə maraqlı deyil. Hər kəsə maraqlı olan müharibənin necə bitəcəyidir. Hazırda Qərb müharibəni necə dayandırmağın yollarını axtarır. Rusiya tərəfinin şərtləri məlumdur: Ukrayna tərəfi də şərtləri qəbul etmir. Bu, o deməkdir ki, müharibə davam edəcək. Rusiya müharibənin davam etməsində daha çox maraqlı tərəf kimi görünür. Çünki sahədə Rusiya irəliləyir. Hər gün bir və bir neçə yaşayış məntəqəsini işğal edir. Belə olan halda, Rusiyanın quru atəşkəslə razılaşacağını qətiyyən düşünmürəm. Qərb də bunun fərqindədir. Rusiya nəinki işğal etdikləri ərazilərin ona qalmasını istəyəcək, əlavə ərazilər də tələb edəcək. Qərb bununla razılaşacaq, razılaşmayacaq, bunu görəcəyik. Bütün siyasi xəritələr qanla çəkilib. Qanunlar, qaydalar isə ona uyğunlaşdırılıb. Beynəlxalq hüquq, münasibətlər, BMT işləksiz bir haldadır. BMT cırtdan Ermənistana öz qətnaməsini qəbul etdirə bilmirdi, milyardlarla pul, on minlərlə insan ölümü ilə nəticələnəcək münaqişəni həll edəcək?!***

***Hazırkı vəziyyət onu göstərir ki, hərbi gücü artırmaqda fayda var. Hətta Rusiyanı ABŞ və Çin hansısa bir formada atəşkəsə razı salsalar belə, bu müvəqqəti xarakter daşıyacaq. Böyük müharibə qaçılmaz olsa, bizim region da bundan nəsibini alacaq. O zaman işğal və işğalçı anlayışı da olmayacaq. Qalib və məğlublar olacaq.***

# *Ermənistan xozeynlərin dəyişir...*

**Rusiyanın xarici kəşfiyyat xidməti bildirir ki, ABŞ qarşısına Ermənistanı tamamilə özünə tabe etmək məqsədi qoyub.**

TASS-ın məlumatına görə, kəşfiyyat xidmətindən bildirilir ki, "ABŞ demokratiya sırımaqla" Ermənistan respublikasını özünə tabe etdirmək istəyir. Onlar bu məqsədlə qərbyönümlü partiyaları 2026- cı ildə keçiriləcək seçkilərdə parlamentə dürdüşdürmək niyyətindədirlər. Rusiyanın kəffiyyat xidməti hesab edir ki, ştatlar niyyətlərinin həyata keçirilməsi üçən qərbyönümlü partiyalara, "milli maraqların, ənənələrin və erməni xalqının dəyərlərinin əleyhinə" çalışmağa cəhd edən icraedici hakimiyyətin in dərhal "əlindən vursun". "Qədim peşə" ənənəsinin sadiq daşıyıcıları artıq ABŞ-ın yeni prezidenti Dinald Trampa "podxod" axtarışındadırlar. Eмənistan, Birləşmiş Ştatlarla strateji dialoqa girməyə cəhd edir.

**Rüstəm Hacıyev**

# Bu şəxslər 6 min manat cərimələnəcək

**Nəzarət olunan xarici müəssisə və əməliyyatlar haqqında arayışları müəyyən edilən müddətlərdə təqdim etməyən və ya arayışlarda düzgün olmayan məlumatlar göstərən və ”Transfer qiymətlərinin müəyyən edilməsi və tətbiqi” Qaydasında nəzərdə tutulmuş sənədləri və məlumatları vergi orqanının tələbi ilə 60 gün müddətində təqdim etməyən vergi ödəyicisinə vergi orqanının rəhbərinin (onun müavininin) qərarına əsasən 6000 manat məbləğində maliyyə sanksiyası tətbiq ediləcək.**

Adalet.az xəbər verir ki, bu barədə məsələ Milli Məclisin iclasında müzakirə edilən Vergi Məcəlləsinə təklif edilən dəyişiklikdə əksini tapıb.

Qeyd edək ki, hazırda Vergi Məcəlləsinin 57.4-cü maddəsinə əsasən nəzarət olunan xarici müəssisə və əməliyyatlar haqqında arayışları müəyyən edilən müddətlərdə təqdim etməyən və ya arayışlarda düzgün olmayan məlumatlar göstərən vergi ödəyicisinə vergi orqanının rəhbərinin (onun müavininin) qərarına əsasən 2000 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.




Vergi Məcəlləsinin 16.1.4-1-ci maddəsinə əsasən ”Transfer qiymətlərinin müəyyən edilməsi və tətbiqi” Qaydasında nəzərdə tutulmuş sənədləri vergi orqanının tələbi ilə təqdim etmək vergi ödəyicisinin vəzifəsidir. Mövcud təcrübəyə əsasən vergi ödəyiciləri tərəfindən transfer qiymətlərinin müəyyən edilməsi və tətbiqi məqsədləri üçün sənədlərlə yanaşı müəyyən məlumat da təqdim edilir və bu səbəbdən Vergi Məcəlləsinin müvafiq maddəsinə dəqiqləşdirici xarakterli dəyişiklik edilir.

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (İƏİT) müvafiq tövsiyə və istiqamətləri nəzərə alınmaqla vergi əməletmə səviyyəsinin artırılması üçün Vergi Məcəlləsinin 57.4-cü maddəsi ilə nəzərdə tutulmuş mövcud maliyyə sanksiyası məbləğinin artırılması məqsədəmüvafiq hesab edilir və eyni zamanda beynəlxalq təcrübə nəzərə alınaraq transfer qiymətlərinin müəyyən edilməsi ilə bağlı sənədlərin və məlumatların (beynəlxalq təcrübədə lokal və master fayllar kimi ifadə olunur) təqdim edilməməsinə görə maliyyə sanksiyasının tətbiq edilməsi nəzərdə tutulur. Digər tərəfdən müvafiq sənəd və məlumatların təqdim edilməsi Vergi Məcəlləsində vəzifə olaraq nəzərdə tutulsa da, onun pozuntusu üçün maliyyə sanksiyası mövcud deyil.

**Qeyd edək ki, lokal və master faylları transfer qiymətləri üzrə audit yoxlamaları zamanı yoxlamanın daha əhatəli və resurslara qənaətlə keçirilməsinə şərait yaratması ilə xarakterizə olunur və həm də Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr çərçivəsində digər dövlətin səlahiyyətli orqanları ilə avtomatik məlumat mübadiləsini həyata keçirmək üçün transmilli şirkətlər qrupuna daxil olan və Azərbaycan Respublikasının rezidenti olan müəssisə tərəfindən təqdim edilən hesabatın (CbCR) məqsədlərinə xidmət edir. Bu Qanun qəbul ediləcəyi halda 2025-ci il yanvarın 1-dən qüvvəyə minəcək. Müzakirələrdən sonra məsələ səsverməyə qoyularaq birinci oxunuşda qəbul edilib.**

**Nicat Novruzoğlu**

# Komitə sədri: "Ödənişlər 2-3 dəfə artırılsa, problemi sonadək çözmək mümkün olmayacaq"

**”Dövlət Məşğulluq Agentliyi Qarabağa qayıdacaq 130 min insanın 73 faizinin ixtisassız olduğunu bildirir. Məzunlar və peşə məktəbləri arasındakı qeyri-mütənasibliyi aradan qaldırmalıyıq. Hər birimiz adi məişət problemini həll edərkən, yaxşı usta, dülgər, bənna, yaxud inşaat mühəndisi axtarırıq. Beləliklə, 100 minlərlə insanı işsiz kateqoriyasından çıxarmaq üçün onları müxtəlif peşə və ixtisaslara sahib**



**etsək, nəticədə, yüksək gəlirləri olan vətəndaşlar öz gələcək sosial ödənişlərini özləri formalaşdıracaq”.**

Adalet.az xəbər verir ki, bunu Milli Məclisdə ”Dövlət sosial müdafiə fondunun 2025-ci il büdcəsi haqqında” qanun layihəsinin müzakirəsi zamanı parlamentin İnsan hüquqları komitəsinin sədri, deputat Zahid Oruc deyib.

”Veteranlarla bağlı hər kəs təklif edir ki, müavinətlər kommunal tariflərə uyğunlaşdırılsın. Ödənişlər iki, üç dəfə də artırılsa, problemi sonadək çözmək mümkün olmayacaq. Əsas məsələlərdən biri veteranlara müxtəlif aktivlər və birdəfəlik köməkliklər göstərib onları aktiv bir şəkildə əmək bazarına qaytarmaqdır. O zaman müqəddəs müharibə iştirakçılarımız, hər birimizin borclu olduğumuz döyüşçülər, gənc yaşlarından başlayaraq həm də mülki həyatda öz layiqli yerlərini tutacaqlar və öz gələcəklərini formalaşdıra biləcəklər. Dövlətin ali məramı əmək resurslarını artırmaqdır”, - deyə komitə sədri bildirib.

**Nicat**

# Arxasındakıların Ukraynaya xəyanəti: Rusiya üstünlüyü ələ alır?

**Məlumunuz olduğu imi, Ukrayna artıq bir həftədir ki, ATACMS raketlərindən Rusiya ərazisini vurmaq üçün istifadə edir. Yəni , ABŞ, Böyük Britaniya, Fransa, Almaniya və s. ölkələr Ukraynaya bu icazəni verdikdən sonra Ukrayna qisas müharibəsinə başlayıb.**

Putin əlbəttə ki, bu prosesə münasibət bildirməli idi və bildirdi. Bələki, Rusiya Prezidenti Vladimir Putin xalqa müraciət etdi.

Müraciətdə Putin Ukraynanın ABŞ və Britaniya istehsalı uzaq mənzilli raketlərlə Rusiya ərazisini vurmasına cavab olaraq Rusiyanın Ukrayna ərazisini hipersəsli ən müasir orta mənzilli ”Oreşnik” raketi ilə vurduğunu açıqladı. Ayında isə 21-də Rusiya ordusu Ukrayna ərazisinə ilk dəfə ”Rubej” qitələrarası ballistik raketi atdı.

Bunun müqabilində isə təkcə ötən gün Ukrayna Rusiyaya 8 ballistik raket atıb. Rusiya aviasiyasının komandanlığı isə bildirib ki, hava hücumundan müdafiə sistemləri səkkiz ballistik raket, altı ABŞ istehsalı olan ”JDAM” idarə olunan







bomba və 45 təyyarə tipli PUA vurub. Zelenski isə dünənki açıqlamasında bildirib ki, Kursk vilayətinin sərhəd bölgəsində əməliyyat davam edir. Bu əməliyyat zamanı ukraynalı əsgərlər nəinki mövqeləri müdafiə edir, həm də Rusiya hərbçilərinə xeyli itki verirlər.

Bütün hegemon dövlətlərin Ukraynanın arxasında durmasına baxmayaraq Rusiya son günlər cəbhə xəttində üstünlüyü ələ aldığı göz qabağındadır. Rusiya mediası bu günkü xəbərlərində yazır ki, Rusiya qüvvələri Ukrayna ordusunun müdafiə xəttini keçərək, əlverişli mövqeləri tutublar, həmçinin Xarkov vilayətinin Kupyan şəhəri yaxınlığındakı istehkamdan düşməni sıxışdırıb çıxarıblar.

**Ukraynanın hazırkı duruma düşməsinin səbəblərdən biri də ”öz yaxınlarıdır”. Əgər ABŞ-n, Fransanın oyuncağına dönmüş Yunanıstan Ukrayna üçün nəzərdə tutulmuş S-300 raketləri-ni Ermənistana deyil, elə Ukraynaya göndərsəydi, Rusiya bu gün qalib ədası ilə məlumatlar dərc etməzdi.**

**Əntiqə Rəşid**

*Aqil ABBAS*

# SAĞALMAZ ERMƏNİ XƏSTƏLİYİ

*70-ci illərin axırına yaxın Rusiya mətbuatında belə bir statistik məlumat dərc olunmuşdu: "Dünyada nə qədər erməni var və hansı ölkələrdə nə qədəri yaşayır?". Həmin statistik məlumata görə, dünyanın 49 ölkəsində 10 milyona yaxın erməni yaşayır ki, onun 3 milyonundan bir az artığı indiki Ermənistanda yaşayır. Hazırda Ermənistanda 2 milyon 500 min erməni qalıb.*

*Yəqin ki, bu 40 ildən çox bir müddətdə dünyada sayları bir 3 milyon artıb, yaşadıqları ölkələrin də sayı artıb.*

*Qarabağda əkdikləri minalar kimi dünyanın bütün ölkələrinə elə mina kimi səpələniblər.*

*Olsun, amma ən maraqlısı budur ki, bu 13 milyon erməninin içində bir nəfər ağıllısı belə yoxdu. Yəni doğrudanmı bütöv bir millət ağlını itirib?*

*Əvvəllər fikirləşirdim ki, Xaçaturyan, Tariverdiyev kimi bir bəstəkar, Qrant Matevosyan kimi gözəl bir yazıçı, Karen Şahnazarov kimi məşhur bir kinorejissor, Ciqarxanyan və Mkrtçyan kimi görkəmli bir aktyor, siyahını bir az da uzatmaq olar belə bir xəstə millətdən necə olub çıxıb?*

*Amma indi fikirləşirəm ki, onları erməni xalqı yox, Rusiya və Sovet hökuməti yetişdirib. Ona görə də Sovet hökuməti dağılandan sonra Qrant Matevosyan yox, Marqarita Simonyan yetişib.*

# ALA, YE, DUDA!



***Rusiya Ukraynaya ”Oreşnik” raketi atandan sonra digər NATO dövlətlərinin başçıları kimi özünü batıran Polşa prezidenti Duda gəlib Ermənistanda Göyçə gölündə şalvarını yumağa, sonra da qoşulub Avropadan gəlmiş missionerlərə gəlib bizim sərhədə. Əlinə durbin götürüb bizim ərazilərə baxıb.***

***”26-lar” filmində belə bir yer var. İngilislər gəlirlər Bakıya, gəmidən töküləndə ingilis eşşəklərinin əsgərlərdən çox olduğunu görüb Şahbazovu gülmək tutur. Dönüb yanındakı erməni milyonçusuna deyir:***

***- Ədə, bunların dördayaqlıları ikiayaqlılarından çoxdur ki. Dirsəyimi ye!***

***İndi bu ikiayaqlı missionerlər, əslində casuslar, başda Polşa prezidenti Duda olmaqla bizim ərazilərə baxanda gərək bizim əsgərlər də Dudaya ”Dirsəyimi ye” deməyəydilər, ayrı şey yazacaqdım, oxuculardan ayıbdı, bir az mədəni formada yazıram, baş barmaqlarını iki barmaqlarının arasından çıxarıb göstərəydilər Dudaya və deyəydilər ki:***

***- Ala, ye!***

***Təəssüf ki, əsgərlərimizin mədəniyyəti buna yol vermir. Onsuz da 44 günlük müharibədə Müzəffər Ordumuz həm Ermənistanı, həm də onun arxasında duran Avropa dövlətlərini, eləcə də Fransanı elə gözəl və möhkəm yedirdiblər ki, hələ də cırılırlar.***

***Qaldı Dudaya, darıxmasın, tezliklə Rusiya Ukraynaya atdığı ”Oreşnik” raketlərini onlara da yedirdəcək.***

***Görən, onda Paşinyan Polşaya gedib əlinə durbin götürüb Kalininqrada baxa biləcəkmi?***

***Nə isə, at gəldi örkən apardı, Duda da gəlib Ermənistandan çarıq apardı.***

## Bayden: “İsrail və “Hizbullah” Livanda atəşkəs barədə razılığa gəlib”

**”İsrail və ”Hizbullah” Livanda atəşkəs sazişinin qüvvəyə minməsi ilə bağlı razılığa gəlib”.**

Adalet.az xəbər verir ki, bunu ABŞ prezidenti Co Bayden təsdiqləyib. ”Mən indicə İsrailin və Livanın baş nazirləri ilə danışdım. Mən məmnuniyyətlə bildirmək istəyirəm ki, onların hökumətləri ABŞ-ın İsrail və ”Hizbullah” arasında dağıdıcı münaqişəyə son qoymaq təklifini qəbul edib”, - deyə Bayden Ağ Evin bağçasında çıxışı zamanı deyib. Bayden qeyd edib ki, İsrail və ”Hizbullah” arasındakı saziş Livan ordusunun 60 gün ərzində öz ərazisi üzərində nəzarəti bərpa etməsini nəzərdə tutur.



Rüstəm Hacıyev

## Bayden necə riskə getdiyini dərk etmir?..

***ABŞ prezidenti Co Bayden Ukraynaya uzaqmənzilli raketlərlə Rusiya ərazilərinə zərbə endirilməsinə icazə verməklə və bununlada onsuzda gərgin olan vəziyyəti qızışdırmaqla necə risk etdiyini anlamadı.***

***Amerikan istehsalı uzaqmənzilli ATACMS raketləri ilə Rusiya ərazilərinə endirilən ilk zərbələrdən dərhal sonra, Vladimir Putin ilk zərbə endirmək hüququ verən yeni nüvə doktrinasını imzaladı.***

***Yeni doktrinaya görə, Rusiya Federasiyasına qarşı ballistik raketlərdən istifadə edilməsi, nüvə silahından istifadə etməyə imkan yaradır.***

***"Nüvə silahı ən son müdafiə xarakterli məcburi tədbiq vasitədidir. Rusiyaya qarşı nüvə başlığı olmayan qərb istehsalı ballistik raketlərdən istifadə edilməsi, Rusiyanın ərazi bütövlüyünə və suverinliyinə ciddi təhlükə yarada bilər...***

***Nüvə silahına malik olmayan, Rusiya ərazilərinə hücumları dəstəkləyən, birbaşa və ya dolayısıyla bu hücumlarda iştirak edən dövlətlər iştirakçı sayılır və Moskva onlara qarşı nüvə silahından istifadə edə bilər"- deyə yeni doktrinada bildirilir.***

***Rusiya prezidentinin sözlərinə görə, Rusiyanın dərinliklərinə uzaqmənzilli raket zərbələrinin endirilməsinə icazə verən ABŞ və NATO Ukrayna münaqişəsinin iştirakçısı sayılacaq və Moskva müvafiq cavab verilməsiylə bağlı qərar qıbul edəcək.***

***Rusiya təhlükəsizlik şurası sədrinin müavini Dmitri Medvedev isə bəyan edib ki, prezident Vladimir Putinin yeni nüvə doktrinasını imzalaması, alyansa üzv dövlətlərin hərəkətlərini Rusiyaya birbaşa hücumu kimi qiymətləndirməyə əsas verir və "Kiyevə və harda yerləşməsindən asılı olmayaraq NATO obyektlərinə kütləvi cavab zərbələri endirmək hüququ verir".***

***ABŞ prezidenti və onun "qana susayan" komandası, sanki atdıqları düşüncəsiz addımların dünyanı Üçüncü Dünya müharibəsinə sürüklədiyini, daha dəhşətlisi nüvə müharibəsinə apara biləcəyini görmürlər?..***

## *NUMBEO-nun "ən təhlükəsizlər" siyahısında Qafqaz ölkələri*

**Dünyanın ən böyük həyat keyfiyyəti məlumat bazası olan "Numbeo" 2024-cü il cinayət və təhlükəsizlik indeksinə görə ,dünyanın ən təhlükəsiz ölkələrinin adını açıqlayıb.**

Adalet.az xəbər verir ki, siyahıda Ermənistan dünyanın 8-ci ən təhlükəsiz ölkəsi kimi qeyd edilib. Birinci yerdə Andorra, ikinci yerdə Birləşmiş Ərəb Əmirlikləri, üçüncü yerdə Qətər, dördüncü yerdə Tayvan, beşinci yerdə Oman, altıncı yerdə Men adası, yeddinci yerdə isə Honq- Konq (Çin) qərarlaşıb.



"Numbeo"-nun siyahısında Ermənistan regionda ən təhlükəsiz ölkə hesab olunub. Siyahıya görə Gürcüstan 21-ci, Azərbaycan 33-cü, İran 92-ci, Türkiyə isə 54-cüdür.

Dünyanın ən təhlükəli ölkəsi isə Venesuela elan edilib - 146-cı yer.

Qeyd edək ki, ötən ay "Numbeo" Bakı və İrəvanda yaşayış dəyərini müyyənləşdirib və ortaya çox maraqlı bir nəticə çıxıb.

"Numbeo"nun ekspertlərinin araşdırmalarının nəticələrinə görə, Bakıda yaşayış və kirayə haqqının İrəvandan 34,4% aşağı olduğu bəlli olub.Bundan başqa Bakıda alıcılıq qabiliyyətinin İrəvanla müqayisədə 36,7% yüksək olduğuda vurğulanıb.

**Əntiqə Rəşid**

# MEDİA-nın BDU-da xüsusi auditoriyası istifadəyə verildi

**Noyabrın 26-da Medianın İnkişafı Agentliyinin Bakı Dövlət Universitetində (BDU) xüsusi auditoriyası istifadəyə verilib.**

MEDİA-dan Adalet.az-a verilən məlumata görə, tədbirdə çıxış edən rektor Elçin Babayev BDU-nun Jurnalistika fakültəsinin ölkədə peşəkar jurnalist kadrlarının hazırlanmasında mühüm rol oynadığını, məzunların medianın müxtəlif sahələrində uğurla çalışdıqlarını diqqətə çatdırıb.

Rektor qeyd edib ki, tələbələrin nəzəri biliklər əldə etməklə yanaşı, praktik bacarıqlarının möhkəmləndirilməsi, tədris prosesinə peşəkar şəxslərin cəlb edilməsi olduqca vacibdir.

Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov Agentlik tərəfindən göstərilən müxtəlif formatlı təşəbbüslərin jurnalistika sahəsində təhsil alan gənclər üçün yeni imkanlar yaradacağını və onların peşəkar bacarıqlarının inkişafına müsbət təsir göstərəcəyini vurğulayıb.

O bildirib ki, bu ixtisas üzrə müasir dövrün tələblərinə cavab verən kadrların hazırlanması yeni yanaşma və metodologiyaların tətbiqini zəruri edir, buna görə də tələbələr üçün təlim, seminar və kursların təşkil edilməsi önəmli hesab olunur.

Mətbuat Şurasının sədri Rəşad Məcid isə bu cür layihələrin Azərbaycan mediasının inkişafına töhfə verəcəyini və gənc nəslin intellektual inkişafının təmin edilməsi, ictimai fəallığının artırılması, tələbələrin yüksəkixtisaslı mütəxəssis kimi formalaşması, onların sürətlə dəyişən əmək bazarında rəqabətədavamlı olmalarına xidmət edəcəyini vurğulayıb.




BDU-nun Milli mətbuat tarixi kafedrasının müdiri, professor Cahangir Məmmədli, Multimedia və elektron kommunikasiya kafedrasının müdiri Qulu Məhərrəmli, MEDİA Agentliyinin İcraçı direktorunun müavini Natiq Məmmədli, Jurnalistika fakültəsinin dekanı Vüqar Ziferoğlu, Yeni media və kommunikasiya nəzəriyyəsi kafedrasının professoru Akif Rüstəmov və digər çıxışçılar jurnalistika təhsilinin keyfiyyəti, mediada yeni tendensiyalar, müasir texnologiyaların tətbiqi barədə fikirlərini bölüşüblər.

Sonra Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılovun Jurnalistika fakültəsinin tələbələri ilə görüşü keçirilib. Əhməd İsmayılov Prezident İlham Əliyevin müvafiq Fərmanı ilə əsası qoyulmuş media islahatları barədə ətraflı məlumat verib, bu islahatların jurnalistikanın inkişafına, beynəlxalq standartlara uyğunlaşmasına böyük təsir göstərdiyini, "Media haqqında" Azərbaycan Respublikası Qanununun qəbulundan sonra həyata keçirilən dəyişikliklərin, xüsusilə media subyektlərinin iqtisadi müstəqilliyinin artırılması və vergi güzəştlərinin tətbiqinin əhəmiyyətini qeyd edib.

**Diqqətə çatdırılıb ki, bütün bunlar media qanunvericiliyinin təkmilləşməsi və islahatların mediamızın inkişafına verdiyi töhfələrin bir qismidir, bu proses davamlı olacaq.**

## *Məktəblilər Qarabağda ölən döyüşçülərin abidələrini rəngləyərək təhqir etdi*



**Ermənistanda Qarabağ döyüşlərində öləndöyüşçülərə qarşı aqressiya var.**

Adalet.az xəbər verir ki, bu fikri facebook istifadəçisi Albert Qriqoryan deyib. O, bir qrup məktəblinin ölən döyüşçülərin abidəsini rəng tüpləri ilə ləkələməyə çalışdığı bir video paylaşıb. "Bunu bura qoyuram və çalışacağam ki, söyüş yazmayım. Həmişə demişəm ki, bu yeni nəsildən qorxuram, ondan çəkinirəm. Müqəddəs xaçkarlarımız sprey boya ilə boyanıb. Və İrəvanda "qəhrəmanlar"mıza həsr olunmuş bölmə, xaçkarar, üçrəng rənglənərək çirkləndirilir. Sizcə, bura belə hala salınacaq yerdir? Bu əclaflar gələcəkdə nə olacaqlar, bu əclafların valideynləri hardadır? Həqiqətən də bilmirəm, qorxulu nəsli yetişir", - deyə istifadəçi yazıb.

Qeyd edək ki, ötən ay bir erməni qadın binanın girişində divara yapışdırılmış Qarabağda ölmüş erməni əsgərlərinin barelyefinə rəng sıxaraq onları təhqir etmişdi.

**Ə. Rəşid**

## *Buzlaqların altında gizli nüvə bazası aşkar edildi*

**NASA tərəfindən aparılan araşdırmalar zamanı Qrenlandiyanın buz təbəqəsi altında soyuq müharibə dövründən qalma gizli nüvə bazası aşkar edilib.**

Adalet.az xəbər verir ki, NASA-nın Reaktiv Hərəkət Laboratoriyasının alimi Çad Qrin Qrenlandiyanın buz təbəqəsi üzərində uçan pilotsuz uçuş aparatının radar məlumatlarını araşdırarkən gözlənilməz bir quruluşla qarşılaşıb. Radar məlumatlarından və 3D modelləşdirmədən istifadə edilən araşdırmalar nəticəsində bu quruluşun Camp Century olduğu anlaşılıb. İkinci Dünya Müharibəsi dövrü bazası olan Camp Century, 21 tuneldən ibarət 9800 fut uzunluğunda nəhəng yeraltı quruluşa malikdir və işlədiyi vaxt nüvə reaktoru ilə təchiz edilmişdir. Bazanın tikintisi zamanı rast gəlinən gözlənilməz problemlər layihənin iflasa uğramasına səbəb olub. Bu problemlər arasında insan tərəfindən istehsal olunan tullantıların buz təbəqəsinin altında yayılması və nüvə raketlərinin təhlükəsiz saxlanmasını və buraxılmasını qeyri-mümkün edən buz təbəqəsindəki hərəkətlər daxildir. Baza tərk edildikdən sonra onun çox hissəsi buzlaqın ağırlığına tab gətirməyib. Nüvə reaktoru çıxarılsa da, ekoloqlar bazada saxlanıla biləcək təhlükəli tullantılardan narahatdırlar.

## *"Türkiyə ilə birgə hərəkət edəcəyik" deyən Bayden əslində "daşı ətəyindən tökməyib"*



**Bütün hallarda, bütün zamanlarda həmişə Türkiyənin əleyhinə iş görən ABŞ prezidenti Co Baydan ötən gün açıqlamasında deyib ki, Türkiyə ilə birgə hərəkət edəcəyik.**

Xəbər başlığı gözümə ilk dəyən anda düşündüm ki, yəqin ABŞ Türkiyəyə qarşı sərgilədiyi gizli düşmənçiliyinə son qoyur. Amma elə deyilmiş. Başqa cür imiş. Deməli, ötən gecə İsrail Təhlükəsizlik Şurası elan edib ki, Livan Hizbullahı ilə atəşkəs razılaşmasını təsdiqləyib.

Baxmayaraq ki, ABŞ İsrailin özünümüdafiə hüququnu əvvəl gündən dəstəklədiyini bildirsə də məhz bu elandan sonra ABŞ Prezidenti Co Bayden həmin atəşkəs razılaşması ilə bağlı açıqlamasını gecikdirmədi:"Qarşıdakı günlərdə ABŞ, Türkiyə, Misir, Qətər və İsraillə birgə Qəzzada atəşkəs razılaşması üçün cəhd göstərəcəyik", - deyə bildirib.

Baydenin bu fikrindən sonra anladım ki, Co Bayden Hizbullahı terrorçu görərək İsraili dəstəkləsə də Türkiyəni uzun illərdir PKK terror təşkilatına hər tərəfli maddi və mənəvi dəstək verməsini dayandıracağını söyləmirmiş.

Xatırladaq ki, ABŞ hər zaman PKK terror təşkilatına hər il maliyyə ötürür. Məsələ 2018-ci ildə ABŞ-ın Müdafiə Nazirliyi (Pentaqon) terror təşkilatı PKK/KCK/PYD-YPG üçün cari il yarım milyard dollar vəsait ayırdı. Pentaqonun hazırladığı Suriya üzrə hesabata görə, bu miqdar ABŞ-ın terror təşkilatına keçən il ayırdığı vəsaitdən 70 milyon dollar artıqdır.Terror təşkilatına veriləcək müxtəlif miqdarda silah-sursat üçün 433 milyon dollar vəsait ayrıldı. Hesabatda vəsaitin bir hissəsinin silah-sursat üçün ayrıldığı, 67 milyon dollar vəsaitin isə terrorçuların səhiyyə və nəqliyyat xərclərinə ayrıldığı bildirildi. Bu maliyyə yardımları Co Baydenin prezidentliyi dövründə də əskilmədi, əksinə daha da artdı.

Co Bayden prezident seçildikdən sonra isə ABŞ höküməti saxta erməni soyqırımını tanıdı.Co Bayden " Türkiyə ilə birgə hərəkət edəcəyik" deyəndə elə bildim "daşı ətəyindən töküb".

**Əntiqə Rəşid**

# Azərbaycana qarşı qərəz: Yunanıstan da Ermənitana S-300 göndərir...

**Ötən gün xəbər vermişdik ki, Hindistanın müdafiə mənbələri Ermənistana "Pinaka" reaktiv yaylım atəşi sistemlərini tədarük etməyə başlağın yaymşdı. Uzun ilərddir Ermənistanı silahlandıran Hindistan 2020-ci ildən etibarən bu prosesi daha geniş şəkildə həyata keçirməyə başlayıb.**



Beləki, 2022-ci ildə Hindistan Ermənistana 245 milyon dollarlıq silah-sursat tədarük etməklə bağlı saziş imzaladı. Elə həmin ili "Business Standart" nəşri öz mənbələrinə istinadən bildirdi ki, Ermənistana 155 mm çaplı 39 kalibrli artilleriya sistemləri satılıb.

Mətbuatda Hindistanın Ermənistana ATAGS adlı yedəkdə daşınan artilleriya qurğuları satdığı bildirildi.

Hindistanın "Idrw" nəşri isə Ermənistana 155 mm çaplı, 39 kalibrli MarG TC-20 Özüyeriyən Artilleriya Qurğuları (ÖAQ) satıldığını açıqladı.

Adalet.az xəbər verir ki, bu gün isə Yunanıstan mediası Ermənistana verəcəyi silahlardan yazır: "Yunanıstan Ermənistana S-300 və bu ölkənin hava hücumundan müdafiə sistemində istifadə edilən Rusiya istehsalı daha iki sistemi təhvil vermək və onları İsrail sistemləri ilə əvəz etmək niyyətindədir".

Media onu da qeyd edir ki, Yunanıstan Silahlı Qüvvələri Rusiya silah sistemlərini öz arsenalından çıxarmaq və köhnə sistemləri radikal şəkildə yeni Qərb texnologiyaları ilə əvəz etməyi hədəfləyir:"Əvvəllər bu sistemlərin Ukraynaya veriləbiləcəyi gümən edilirdi, lakin Baş Qərargah başqa alternativləri nəzərdən keçirir. Bu komplekslər bir qədər əvvəl Ermənistan ordusuna silah-sursat veriləcəyini bəyan edən Fransa ilə əməkdaşlıq çərçivəsində tədarük ediləcək".

Beləliklə yaxın günlərdə Yunanıstan Ermənistana Rusiya istehsalı olan "S-300" zenit-raket kompleksləri, habelə quru qoşunları üçün nəzərdə tutulan "TOP-M1" və "OSA" zenit kompleksləri İrəvanda peyda olacaq.

Yunanıstan Rusiyaya aid hərbi texnika və silahlarını Ermənistana ötürdükdən sonra öz cəbbəxanaasını İsrailin müasir və yüksək texnologiyaya məxsus silahlaarı ilə dolduracaq.

Qeyd edək ki, bu raketlər modifikasiyasından asılı olaraq hədəfləri 47 km-dən 150 kilometrə qədər məsafədə vurma imkanına, hava obyektlərini isə 120 km-dən 300 km-ə qədər məsafədə aşkar etmək imkanına malikdir. Kompleksin hava obyektlərinin aşkar edilməsinin uzaqlığı 120-dən 300 kilometrədəkdir. Hədəfin məhv edilməsi yüksəkliyi isə maksimum 27 km-dir. Bu raketlər saniyədə 2800 metrə kimi sürətlə hərəkət edən hədəfləri məhv etməyə qadirdirlər. Sistem eyni zamanda aktiv və passiv bir maneələrə qarşı qoruma imkanına malikdir. Bu dağıdıcı silahın qiyməti 115 milyon dollardır.

***P.S.* Görünən odur ki, Azərbaycan və Türkiyəyə qarşı sıxıntısı olan ölkələr Qafqazda müharibə toxumunu cücərtməkdə israrlıdırlar...**

**Əntiqə Rəşid**

# Bakıya böhtan atan kanadalı jurnalist Türkiyədən qovuldu

**Türkiyə Azərbaycana qarşı tənqidi məqalələrlə tanınan kanadalı jurnalist Neil Havyerin ölkəyə girişini qadağan edib,**

Adalet.az xəbər verir ki, məlumatı N. Havyer X səhifəsində paylaşıb . Beləki, ötən gün İrəvandan İstanbulun Sabiha Gökçen hava limanına "turist səfəri məqsədi ilə" uçduğunu açıqlayan jurnalist pasport yoxlaması zamanı onun "qara siyahı"da olduğu bildirilib. Jurnalist 16 saat saxlanılıb və geri deportasiya edilib.

"Mən Türkiyəyə giriş qadağasına qarşı apellyasiya şikayəti verəcəm, çünki bu, əsassızdır. Mən heç bir cinayət törətməmişəm. Mən bunun üçün bütün imkanları araşdıracağam və Kanada səfirliyindən aldığım dəstəyə əlavə olaraq hər kəsin təklif edə biləcəyi hər hansı dəstəyi və ya təklifi alqışlayacağam", - kanadalı jurnalist statusunda yazıb.



Amma jurnalist öz günahını da gizlətməyib. Jurnalist ehtimal edib ki, qadağa onun "Azərbaycanı tənqid etməsi və Qarabağda baş verən hadisələrlə bağlı nəşrləri" ilə bağlı ola bilər ki, burada o, erməni tərəfini fəal dəstəkləyib.

Qeyd edək ki, sosial şəbəkədə deportasiyası haqqında məlumat dərc etməzdən cəmi 2 saat əvvəl Neil Havyer COP29-un Azərbaycanda keçirilməsini tənqid edərək, ölkəni qondarma artsaxda etnik təmizləmə aparmaqda ittiham edib.

**Ə. Rəşid**

# «Paşinyanın geosiyasi liderləri aldatması ölkənin probleminə çevriləcək»

**Politoloq Karen Köçəryan Ermənistana məxsus 168 TV-yə müsahibəsində iddia edərək bildirib ki, Ermənistanın baş naziri N.Paşinyan 100% yalançıdır.**





Adalet.az xəbər verir ki, politoloq Paşinyanı Ermənistanda dəhşətli korrupsiya olması və öz komanda yoldaşlarına xəyanət edərək işdən çıxartmasına görə tənqid edib :Nikol Paşinyan əslində çox zəif liderdir. 5 nəfərlik ailəni idarə edə bilməyən adama bütün ölkəni idarə etmək çətindir.

Onun zəifliyi də hirslənməkdən, hər şeyin günahını ona-buna atmaqdan irəli gəlir. Heç bir güclü lider xalq qarşısında öz işçilərinə xəyanət etməz. Yalnız zəif lider sülh üçün yalvarır, yalnız zəif lider deyir: Mən cavabdehəm, amma günahkar deyiləm".

Köçəryan xüsusi olaraq bildirib ki, Paşinyanı da 100% yalançı adlandırmaq olar:"

O, daxildəki insanları aldadarkən, bu, onun və seçicilərinin problemidir, ancaq geosiyasi liderləri aldatmağa başlayanda bu, hamımızın probleminə, ölkənin probleminə çevrilir:" O, geosiyasi mərkəzləri də aldadır. İndi baxsanız, xarici tərəfdaşlarla görüşlərdə gündəm yoxdur. Sadəcə, Paşinyanı nəzarətdə saxlamaq üçün zəng edir, gedir, ya da özləri gəlirlər ki, yenə aldadıb qaçmasın.

Təəssüf ki, Ermənistan artıq öz subyektivliyini itirib və xarici güclərin loyallığı olmadan burada kiminsə hakimiyyətə gəlməsi və ya hakimiyyətdən getməsi mümkün deyil"-deyə erməni politoloq vurğulayıb.

***P.S.* Əslində politoloq Karen Köçəryanın fikirlərində bir gerçəklik var. Beynəlxalq arenalarda, sammit və konfranslarda Azərbaycanla sülh müqaviləsi bağlamaq fikrində olduğunu bildirsə də, İrəvana dönən kimi, dünyanın ən son modern silahlarını cəbbəxanasına daxil etmək üçün proses başladır.**

***Son 3 ildə Ermənistan ABŞ, Fransa, İran, Hindistan, Yunanıstan və bir çox ölkələrdən silah alıb ki, bu silahların arasında ballistik, hermetik, qanadlı, qısa və ortamənzilliraketlər mövcuddur. Həqiqətən də Paşinyan yalançıdır.***

**Əntiqə Aslan**

***Rüstəm Hacıyev***

# NATO odla oynayır

***NATO zatən "odla oynamaq" üçün yaradılmış hərbi alyansdır. Yarandığı gündən dünyanın hər hansı bir nöqtəsində qan tökülürsə, NATO ya ordadır, ya da bu qanın tökülməsində mütləq əli vardır.***

***Avropa yüngüldə olsa təlaş içindədir. Rusiya prezidenti Vladimir Pitinin yeni nüvə doktrinasını imzalaması, ardınca da yeni ortamənzilli raketini birbaşa nümayişyana şəkildə Ukrayna ilə döyüş meydanında sınaqdan keçirməsi, istər-istəməz onlarda şok-terapiya effekti yaradıb.***

***Lakin, deyəsən NATO-nun geri addım atmaq niyyəti yoxdur, ya da ki, Rusiyanın xarici işlər nazirliyinin mətbuat xidmətinin rəhnəri Mariya Zaxarovanın sözləriylə ifadə etsək,"yeni doktrinanı sonacan oxumayıblar".***

***Şimali Atlantika Alyansının Hərbi komitəsinin rəhbəri admiral Roba Bauer bəyan edib ki, "NATO hərbi münaqişə zəminində Rusiyaya yüksək dəqiqlikli priventiv zərbələr endirmək məsələsi müzakirə olunur".***

***Bauer bir az da irəli gedərək qeyd edib ki, alyans müdafiə strategiyasında dəyişiklik edib: "Əslində, gözləmək lazım deyil, Rusiyanın atış qurğularını məhv etməliyik".***

***Beləliklə görünən odur ki, NATO-nun aylardı ağızdolusu, Rusiya-Ukrayna müharibəsinin danışıqlar yolu ilə həll olunmasından dəm vurması boş qazan qapağının səs-küyündən başqa bir şey deyilmiş.***

***Açıq-aydın görünür ki, NATO ABŞ-ın yeni seçilmiş prezidenti Donald Trampın rəsmi olaraq vəzifəsinin icrasına başlamasına qədər, vəziyyəti elə qarışdırmaq istəyir ki, Tramp tezliklə münaqişəni dayandırscağı ilə bağlı vəd etdiyi sülh pianını həyata keçirə bilməsin.***

***Təbii ki, Donald Tramp da yaxşı bilir ki, Bayden komandası Rusiya-Ukrayna münasibətlərini elə bir hala gətirib çıxarıb ki, hər hansı sülh planının həyata keçirilməsi mümkün deyil. O, ən azından tökülən qanların, dağılan şəhər və kəndlərin qarşısının alınması üçün atəşun daysndırılmasına nail olmaq istəyir.***

***Hazırda 1000 gündən artıqdı davam edən qanll müharibə həm Ukraynanı, həm də Rusiyanı bezdirib əldən salmaqdadır. İna görə də, hır iki dövlətin başçıları digər məsələlərdə razılığa gələ bilməsələr də, atəşin dayandırılması məsələsundə razılığa gələ bilərlər. Təbii ki, NATO imkan versə...***

## *Ermənistan mülki şəxslərə Azərbaycana qarşı PUA-dan istifadə təlimləri keçirir: A.Dudaya deyilən "sülh" yalanı*



**Xəbər verdiyimiz kimi 2015-ci ildən Polşa prezidenti olan Anjey Duda 9 illik prezidentliyi dövründə ərzində Ermənistan ilk səfəri reallaşıb.**

rəvanda o həmkarı Ermənistan Prezidenti Vaaqn Xaçaturyan görüşüb və təbii ki söhbətləşib.Söhbətin əsas mövzularından biri regiondakı vəziyyət və Ermənistanla Azərbaycan arasındakı sülh prosesi olub.

Xaçaturyan Polşa liderinə Ermənistanın Azərbaycanla sülhdə maraqlı olduğunu bildirib. Həmçinin Dudaya Ermənistanın nəqliyyat dəhlizləri ilə bağlı "Sülh qovşağı" layihəsini təqdim edib.

Xaçaturyan onu da qeyd edib ki, Ermənistanın qonşuları ilə konstruktiv dialoq və danışıqlar yolu ilə problemlərin həlli istiqamətində qəti mövqeyi var.

Erməni prezidentinin bu qətiyyətini görüb sevinmək istəyirdik ki, "Bez Tormozov" Teleqram kanalının yaydığı görüntüləri görüb yenidən bunların çox yalançı bir toplum olduğuna iman gətirdik. Beləki, kanal iddia edir ki, Ermənistan ordusu Azərbaycana qarşı istifadə etmək məqsədilə mülki şəxslərə PUA-lardan istifadə üzrə təlimlər keçirir.

Görüntülərdə silahlı dronlardan istifadə qaydaları tam əks olunub.

Bir yandan da Ermənistanın Baş naziri Nikol Paşinyan "sülhə çox yaxınıq "dedikdən sonra son iki gündə həm Hindistandan, həm də Yunanıstan ən ağır və dağıdıcı silahları qəbul edib.

**Ə. Rəşid**



Faiq QİSMƏTOĞLU
faiqqismetoglu@box.az

# Səsdən yatmaq olmur...

**Hamı yaxşı bilir ki, bir balaca səs olan kimi yaşlı insanlar çox narahat olurlar. Heç gecə saatlarında səs olanda cavanlar da rahatlıq tapmırlar.**

**Bəs onda yaşlı insanlar hay-küy olan yerdə, eybəcər musiqilər səslənən məqamda necə yata bilərlər?!**

**Bu yaxınlarda mənə Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi, dostum Valeh müəllim zəng eləmişdi. Mətləbə keçməmişdən öncə onu deyim ki, Valeh müəllim gözəl ziyalıdır və qəzetimizin daimi oxucusudur.**

**"Ədalət"in elə bir sayı yoxdur ki, alıb oxumasın. Və oxuyandan sonra da öz dəyərli fikirlərini söyləyir. Nə xoşuna gəldi, nə xoşuna gəlmədi, düşüncələrini mənimlə bölüşür. İndi keçək əsas mətləbə, yəni Valeh müəllimin zənginə! Salam verib, hal-əhval tutandan sonra dostumuz və qardaşımız dedi ki, Faiq müəllim, mən "Malakan bağının" yanında, Rəsul Rza küçəsindəki binada yaşayıram. Amma Allaha and olsun ki, avtomobillərin maqnitofonundan gələn səsdən nə gündüz, nə də gecə rahat yata bilirik.**

**Bu, bir gün, bir həftə, bir ay olsa, birtəhər dözmək olar. Amma maşınlardakı səsgücləndiricilərdən gələn səs az qala qulağımızı deşə. Bax, yenə həmin avtomobillər gəldi. Yəqin telefonda eşidirsən? "Bəli, eşidirəm" dedim. Və gələn səs musiqi səsi idi, amma çox ucadan gəlirdi, Valeh müəllim yenə sözünə davam edərək dedi ki, hər günümüz bax belədir.**

**Kimə də müraciət edirik heç bir tədbir görən yoxdur. Sanki həmin adamlardan qanun keşikçiləri qorxur... Düşündüm ki, yazıq Valeh müəllim və həmin binanın sakinləri bu musiqi səs-küyündə gecələr necə rahat yata bilirlər. İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsi ilə avtomobillərdə səsgücləndiricilərdən istifadə edən sürücülər cərimə edilirlər.**

**Həmin ərazidə xidmət aparan Post-Patrul Xidmətinin və Çevik Polis Alayının əməkdaşları bu qanunsuzluğun qarşısını almağa borcludur. Və inanırıq ki, tezliklə səsgücləndiricilərdən istifadə edərək göstərdiyimiz ünvanda sakinlərin rahatlığını pozan intizamsız və özündənrazı sürücülər inzibati məsuliyyətə cəlb ediləcək və insanların rahatlığı təmin ediləcək!..**

## Şarmazanov: "Qərbi Azərbaycan" paylaşımı Fransa səfirinin Paşinyana şilləsidir"



**Artıq bütün dünyaya məlumdur ki, Azərbaycanın tarixi bölgələri olan İrəvan, Göyçə, Vedi, Zəngəzur, Dərələyəz mahalları Qərbi Azərbaycan adı ilə tanınan və erməni faşizmi tərəfindən Qərbi Azərbaycandan 1988-89-cu illərdə deportasiya olunmuş azərbaycanlılar yenidən doğma yurdlarlarına dönmək əzmini ifadə ediblər.**

Deməli, ermənilərdən daha erməni olan Fransanın Ermənistandakı səfiri Olivye Dekottini İran ərazisində yerləşən Qərbi Azərbaycan vilayətinin xəritəsini yayıb. Dekottini xəritəni "Tək və yeganə" adı ilə paylaşıb. Fransanın səfirinin bu hərəkəti bir mənalı qarşılanmayıb. Səfir guya Azərbaycandakı "Qərbi Azərbaycan" terminınə qarşı çıxıb. Yəni Qərbi Azərbaycan - yalnız İrandadır. Adalet.az xəbər verir ki, Ermənistan Respublika Partiyasının İcraiyyə orqanının nümayəndəsi, keçmiş vitse-spiker Eduard Şarmazanov öz Facebook səhifəsində olay haqqında paylaşım edib. O,yazıb ki, Fransa səfirinin notası ilk növbədə Paşinyana şillə idi:

"Fransanın Ermənistanakı səfiri Olivye Dekotinin İranın əyalətlərindən biri olan "yeganə Qərbi Azərbaycan"la bağlı postu böyük əks-səda doğurdu. Çoxları bunu Azərbaycana ünvanlanmış çıxış hesab edirdi. Amma yox... Nikol Paşinyanın noyabrın 22-də verdiyi müsahibədə Qərbi Ermənistan və "Qərbi Azərbaycan" anlayışlarının eyniləşdirilməsi ilə bağlı absurd açıqlamasını nəzərə alsaq, həmin notanın ünvanının Paşinyanın özü olduğunu güman etmək olar. Fransa açıq şəkildə Paşinyanın cəfəngiyyatına əks-hücum edir. O, bunu öz səfiri vasitəsilə edir. Xatırladım ki, düz 4 il əvvəl Fransa parlamenti "artsax"ın müstəqilliyini tanıdı. Paşinyan bu qərarı alqışladı, lakin "artsax"ı Azərbaycana verdi. İndi də Qərbi Ermənistan bunu inkar edir...Müstəqillik Bəyannaməsi də inkar edilib".

**Əntiqə Rəşid**

## Süni bahalaşma...



**Bu gün ölkəmizdə əksər sənaye və ərzaq məhsullarının qiyməti bahalaşıb. Və bu, bahalaşma durmadan davam edir. Təbii ki, bu da əhali arasında böyük narazılıq yaradır.İstənilən marketə, mağazaya girsən bu bahalaşmanı görmək olar. Süni bahalaşma ilə bağlı Sabiq millət vəkili, ictimai - siyasi xadim Vahid Əhmədov da mətbuatda öz fikirlərini səsləndirib. Sabiq millət vəkili deyib ki, bahalaşmanın süni və obyektiv səbəbləri var. Bizdəki bahalaşma isə ən çox süni səbəblərlə bağlıdır.**

Bunun isə qarşısı təəssüf ki, əlaqədar qurumlar tərəfindən vaxtında alınmır. Vahid Əhmədov səsləndirdiyi fikirlərində böyük həqiqət var. Və həqiqət də ondan ibarətdir ki, İqtisadiyyat Nazirliyinin İstehlakçıların Hüquqlarının Müdafiəsi Departamenti ölkəmizdə süni bahlaşmanı yaradan amillərə qarşı ciddi mübarizə aparmır, heç buna marağı da yoxdur.

Çünki süni bahalaşmanı yaradan da ölkəmizdə ayrı-ayrı oliqarxlara məxsus topdansatış ticarət mərkəzləri və onlara məxsus iri marketlərdir. Aydındır ki, belə olduğu halda nəzarət orqanları xalqın deyil, oliqarxların tərəfində durur və süni bahalaşmaya göz yumur. Belə ki, süni bahalaşma olan yerdə onların da maraqları var. Yəni əl- əli yuyar, əl də üzü!..

## Çaqqalın biri imiş...



**Biz bəzən layiq oldu, olmadı, bir adamı o qədər tərifləyirlər ki, az qala onun kölgəsinin qarşısında da baş əyək.**

Və həmin adam da özündən razı halda camaata yuxarıdan aşağı baxır.Bəzən də bir adamı o qədər pisləyirik ki, hamı onu görəndə elə bil ki, qutuda ilana rast gəlir.Kim onu görürsə, çoxları ondan qaçır ki, bir daha pis insanla üzləşməsin.Aylar, illər keçir, hər iki adamın iç üzü açılır.

Bir daha aydınlaşır ki, yaxşı dediyimiz və kölgəsinə baş əydiyimiz adam o qədər də yaxşı insan deyilmiş. Sən demə, o, çaqqalın biri imiş...

Amma pis deyib, qamçıladığımız, görəndə üz çevirdiyimiz insan o qədər də keyfiyyətsiz adam deyilmiş, əksinə yaxşı dediyimizdən min dəfə dəyərli imiş.

Ona görə də, hər hansı insan haqqında tələm-tələsik qərar çıxarıb, yaxşı və pis adam deməyin. Çünki insan çiy süd əmib və onu qısa zaman kəsiyində tam tanımaq mümkün deyil!

## Bir ağac əkirik...



**Bu gün dünyanı ən çox narahat edən problemlərdən biri Yer üzündə ekoloji tarazlığın qorunmasıdır.**

Başqa sözlə demiş olsaq atmosferə normadan artıq zərərli qazların atılması və yaşıllıqların məhv edilməsidir.Bu,dünyamızın ən böyük faciəsidir.Yer insanlar təbiəti çirkləndirməklə elə birinci özünü baltalayır. Bakıda keçirilən COP-29 beynəlxalq səviyyəli tədbirdə də məhz bu məsələlər gündəmə gətirilib və məlum olub ki, bəşəriyyəti bir bəladan xilas etmək üçün bir tirlyon ABŞ dolları lazımdır. Dünyada bəlkə də bizim kimi ağaclara qənim kəsilən ikinci bir insan yoxdur.

Bir ağac əkirik, beşini kəsirik.Təbii ki, bunu sadə insanlar eləmirlər.

İcra hakimiyyətlərinin başçıları harda bir balaca boş yer gördülər bina, müxtəlif obyektlər tikmək üçün həmin yerə sərəncam verir. Sərəncamı əlində olan iş adamı ağına- bozuna baxımından orda ağac varsa, kəsdirib yerində inşaat işləri gördürür.

Belə hallara Bakıda daha tez- tez rast gəlmək olur. Minlərlə insan Bakıda ağacəkmə kompaniyasında iştirak edir, beşaltı vəzifəli şəxslər də sərəncam verir ki, ağaclar olan yerdə ayrı- ayrı iş adamları obyekt tiksin.Amma çoxları dərk etmək istəmir ki, o qırılan ağaclar bizim ömrümüz qısaldır. Bu gün Bakıda daha çox yaşıllıqlara, ağacların əkilməsinə ehtiyac var.

Ağac əkmirik- əkmirik heç olmasa, otuz, qırx ilin ağaclarını kəsməyək!!!

## Bilmirsən, kimə inanasan?



**Bir də görürsən ki, bir məhsulu hər gün reklam edirlər. Məsələn, deyirlər ki, xurma min bir dərdin dərmanıdır.Onu yeyirsən, immunitetin gücəlnir, çünki tərkibində çoxlu vitaminlər var! Təbii ki, buna inanırsan. Bir müddət keçir deyirlər ki, yox, xurmanın xeyrindən çox, ziyanı var. Həddindən artıq xurma yeyərsən xəstəlik yaranır. Bir az da ötür, almanı tərifləyirlər. Yenə deyirlər ki, bu alma var, ha, can dərmanıdır. Alma başdan ayağa vitamindir.Hər gün iki alma yesən bütün xəstəliklərdən uzaq olarsan.**

Üç- dörd gündən sonra başqa bir təbliğat aparırlar. Və deyirlər ki, alma gözəl meyvədir, amma onu qabıqlı yemək olmaz! Bu da belə! Adam bu reklamlardan sonra bilmir, nə etsin.Yəni başqa sözlə demiş olsaq, odlu su arasında qalır və bilmir kimə inansınlar. Meyvələri tərifləyənlərə, yoxsa antireklam edənlərə?! Amma hər halda bütün meyvələr gözəldir.Sadəcə olaraq onları həddindən artıq çox yemək ziyandır!

## Avtomobillərin şinləri niyə dəyişdirilməlidir?



**Avtomobillərin saz vəziyyətdə olmasında şinlərin çox böyük əhəmiyyət var.**

Məhz buna görə də yay və qış fəslində avtomobillərin təkərləri dəyişdirilməlidir. Əgər bu dəyişikliklər edilməsə, qışda nəqliyyat vasitələrinin sürücüləri bir çox problemlə üzləşə bilər. Amma bizdə əksər sürücülər bu, prinsiplərə əməl eləmir və öz bildikləri kimi hərəkət edirlər. Nəticədə isə qarlı, şaxtalı günlərdə yollar sürüşkən olanda " keçəl təkərlər" qəzalar yaradır. Bax , bundan sonra o sürücülər peşmançılıq hissi keçirirlər.

Qarşıdansa, qış gəlir. Ona görə də həmin havalara uyğun təkərlər alınmalı və avtomobillər qış şinləri ilə təmin edilməlidir. Baş Dövlət Yol Polisi İdarəsinin ictimaiyyətlə əlaqələr şöbəsinin inspektoru Elvin Hacıyev deyir ki, hər bir sürücü bu məsələləri diqqət mərkəzində saxlamalı və mövsümə uyğun şinlərdən istifadə etməklə təhlükəsizlik qaydalarına əməl etməlidir. Biz dəfələrlə qış mövsümü başlamamışdan öncə sürücüləri maarifləndirir, onlara lazımi tövsiyə veririk. Heç şübhəsiz, apardığımız maarifləndirmə işləri də öz müsbət nəticəsini verir. Bir daha qış mövsümünün yaxınlaşması ilə əlaqədar müxtəlif nəqliyyat vasitələrinin sürücülərinə müraciət edərək deyirik ki, soyuq havalarda yolların sürüşkən olduğunu nəzərə alaraq avtomobillərdə yay şinlərini qış şinləri ilə əvəzləsinlər. Bu, onların təhlükəsizliyini təmin edir!

## Piyadalara yol verin...



**Hər bir nəqliyyat vasitəsini idarə edən sürücü yol hərəkəti qaydalarına əməl etməlidir.**

Belə qaydalardan biri də piyadalara yol verilməsidir. İndi gəlin görək, bütün sürücülər piyadalara yol verirmi? Təbii ki, bu suala birmənalı cavab vermək olmur! Bilirsiniz,niyə?! Çünki piyadalara yol verənlər də, var, yol verməyənlər də! Amma yol verənlər, yol verməyənlərdən çoxdur.Bütün hallarda , piyadaya yol verməmək qanun pozuntusu sayılır. Bakının küçə və prospektlərində apardığımız müşahidələr bizim dediklərimizi təsdiq etdi. Belə ki, Yeni Günəşlidə " Fatimeyi-Zəhra" məscidinin yanında, Gənclikdə, Ziya Bünyadov prospektində, eləcə də digər yerlərdə bəzi sürücülər piyada zolaqları olsa da, onlara yol vermirlər.

Hələ bu, azmış kimi,bir çox intizamsız sürücülər yol keçən piyadanın üstünə qışqırırlar da! Ümumiyyətlə, piyadaya yol verməməyə görə, İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsi ilə sürücülər 40 manat məbləğində cərimə olunurlar. Bir faktı da qeyd edək ki, bəzi sürücülər də sürücü mədəniyyəti lazımi səviyyədə deyil, eləcə də piyadalarda! Çünki ən çətin anda çıxılmaz vəziyyətə düşmüş sürücüyə digər sürücü yol vermir.

**EMİL FAİQOĞLU**



# Təhqir və böhtana məruz qalan şəxs hansı məhkəməyə müraciət etməlidir?

**Azərbaycan Respublikasının Ali Məhkəməsi xüsusi ittiham qaydasında şikayətlə bağlı materiala baxılması üzrə məhkəmə aidiyyətinin müəyyən edilməsi məsələsinə aydınlıq gətirib.**

Bu barədə Adalet.az-a Ali Məhkəmədən bildirilib.

Qeyd olunub ki, işin hallarına görə, Xəzər Rayon Məhkəməsinin hazırlıq iclasının qərarı ilə xüsusi ittiham qaydasında şikayətlə bağlı material aidiyyəti üzrə baxılması üçün Abşeron Rayon Məhkəməsinə göndərilib. Xəzər Rayon Məhkəməsi materialı aidiyyəti üzrə Abşeron Rayon Məhkəməsinə göndərərkən nəzərə alıb ki, şikayətdə "təhqir" və "böhtan" kimi səciyyələndirilən məlumatlar hüquqi ünvanı Azərbaycan Respublikasının ərazisi olmayan internet informasiya ehtiyatında yayılıb və kütləvi informasiya vasitəsinin (internet informasiya ehtiyatının) hüquqi ünvanı məlum olmadıqda, yaxud da onlar xaricdə qeydiyyata alındıqda şikayətə təhqir və ya böhtan xarakterli məlumatları belə kütləvi informasiya vasitələrində yaymış şəxsin Azərbaycan Respublikasında axırıncı yaşayış yeri üzrə fəaliyyət göstərən məhkəmə tərəfindən baxılır. Xəzər Rayon Məhkəməsi barəsində xüsusi ittiham qaydasında şikayət verilmiş şəxsin Abşeron rayonu ərazisində yerləşən qeydiyyatsız yaşadığı mənzilin onun yaşayış yeri sayıldığını nəzərə alaraq materialın baxılması üçün Abşeron Rayon Məhkə-



məsinə göndərilməli olması qənaətinə gəlib. Lakin Abşeron Rayon Məhkəməsi barəsində şikayət verilmiş şəxsin şəxsiyyət vəsiqəsində göstərilən məlumatlara əsasən onun yaşayış yerinin qeydiyyata alındığı Xəzər rayonunda yerləşən ünvan olmasını nəzərə alıb, materiala Xəzər Rayon Məhkəməsində baxılmalı olması haqqında nəticəyə gəlib.

Məhkəmə aidiyyəti məsələsinin həll edilməsi üçün material Sumqayıt Apellyasiya Məhkəməsinə göndərilib, aidiyyət məsələsi üzrə mübahisə müxtəlif apellyasiya instansiyası məhkəmələrinin yurisdiksiyalarında fəaliyyət göstərən məhkəmələr arasında yarandığından Sumqayıt Apellyasiya Məhkəməsinin qərarı ilə material aidiyyəti üzrə göndərilməsi məsələsinin həll edilməsi məqsədilə Azərbaycan Respublikasının Ali Məhkəməsinə göndərilib.

Ali Məhkəmə hesab edir ki, qanunvericiliklə şəxsin yaşayış yerinin və yaxud olduğu yerin aydın və birmənalı müəyyən edilməsinə xüsusi əhəmiyyət verilməsi, məhz bu zərurətdən çıxış edərək sözügedən məsələ (Azərbaycan Respublikası vətəndaşının yaşayış yeri məsələsi) üzrə birmənalılığı (hüquqi müəyyənliyi) təmin edən vasitə rolunda müstəsna olaraq şəxsiyyət vəsiqəsində əks olunmuş yaşayış yeri üzrə qeydiyyat barədə məlumatlar hesab olunduğundan (Azərbaycan Respublikası vətəndaşının yaşayış yeri haqqında məlumatın rəsmi mənbəyi olaraq yalnız şəxsiyyət vəsiqəsini göstərir), Ali Məhkəmənin mövqeyinə əsasən, "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə müvafiq olaraq, hazırki material üzrə barəsində xüsusi ittiham qaydasında şikayət verilmiş şəxsin yaşayış yeri kimi onun yaşayış yeri üzrə qeydiyyata alındığı Xəzər rayonu ərazisində yerləşən ünvanı qəbul edilməli, Abşeron rayonu ərazisində qeydiyyatsız yaşadığı mənzil isə onun olduğu yer kimi nəzərdən keçirilməlidir. Odur ki, Ali Məhkəmənin qərarına əsasən, xüsusi ittiham qaydasında şikayət üzrə materialın baxılması üçün Xəzər Rayon Məhkəməsinə göndərilməsi qərara alınıb.

# Jurnalistlərin gəlirləri vergidən azad edilir

**Jurnalistlərin əldə etdikləri gəlirlərin 75 faizi hər hansı şərt tətbiq edilmədən gəlir vergisindən azad ediləcək.**

Adalet.az xəbər verir ki, bu barədə məsələ Milli Məclisin iclasında müzakirə edilən Vergi Məcəlləsinə təklif edilən dəyişiklikdə əksini tapıb.

Layihəyə əsasən, jurnalist fəaliyyəti ilə məşğul olan və həmin fəaliyyət növündən təqvim ili üzrə əldə etdiyi gəlirlərin (xərclər nəzərə alınmadan) həcmi 45000 manatadək olan fiziki şəxslərin həmin fəaliyyətdən əldə etdikləri gəlirlərinin 75 faizi gəlir vergisindən azad ediləcək.

Qeyd edilib ki, 01.01.2024-cü il tarixdən Vergi Məcəlləsinin 102.1.30-cu maddəsinin qüvvədə olan redaksiyasına əsasən müvafiq il üzrə orta aylıq muzdlu işçi 3 nəfərdən az olmayan və məcburi dövlət sosial sığorta haqları üzrə borcu olmayan mikrosahibkarlıq subyekti olan fərdi sahibkarların sahibkarlıq fəaliyyətindən əldə etdikləri gəlirlərin 75 %-i gəlir vergisindən azad edilib. Bir sıra fərdi peşə fəaliyyəti ilə məşğul olan fiziki şəxslər vardır ki, onlar əhaliyə deyil, digər vergi ödəyicilərinə xidmət göstərdiklərindən sadələşdirilmiş verginin ödəyicisi ola bilmirlər. Həmin şəxslər fərdi qaydada fəaliyyət göstərdikləri üçün Vergi Məcəlləsinin 102.1.30-cu maddəsində nəzərdə tutulan güzəştdən də istifadə edə bilmirlər. Bu səbəbdən bəzi xidmət sahələri üzrə fəaliyyət göstərən sahibkarların illik dövriyyəsinin həcmi 45 min manatadək olan mikro sahibkar fiziki şəxslərə münasibətdə ədalətli vergitutmanın tətbiq edilməsinin təmini məqsədilə həmin şəxslərin əldə etdikləri gəlirlərin 75 faizinin hər hansı şərt tətbiq edilmədən (3 işçi və məcburi dövlət sosial sığorta haqqı üzrə borcun olmaması tələbi) gəlir vergisindən azad edilməsi ilə bağlı Vergi Məcəlləsinə dəyişikliklər edilməsi təklif edilir.

Bu Qanun qəbul ediləcəyi halda 2025-ci il yanvarın 1-dən qüvvəyə minəcək.

Müzakirələrdən sonra məsələ səsverməyə qoyularaq birinci oxunuşda qəbul edilib.

**Nicat**

# Vəzifəli şəxslərin 23 milyon manatlıq dələduzluğu

**Xəbər verildiyi kimi, xarici ölkələrə müxtəlif növ məhsulları ixrac edən bəzi sahibkarlıq subyektlərinin müvafiq valyutada olan pul vəsaitlərini Azərbaycan Respublikasına qaytarmamaları ilə bağlı Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində cinayət işlərinin ibtidai istintaqı aparılır.**

Adalet.az xəbər verir ki, bu barədə Baş Prokurorluğun Mətbuat xidməti məlumat yayıb.

İstintaq tədbirləri ilə Azərbaycan Respublikasında qeydə alınan hüquqi şəxslərlə xarici ölkələrdəki şirkətlər arasında kənd təsərrüfatı məhsullarının alqı-satqısına dair müxtəlif vaxtlarda müqavilələrin bağlanması və həmin fəaliyyət nəticəsində əldə olunan külli miqdarda gəlirlərin ölkəmizdə müvəkkil edilmiş bank hesablarına qaytarılmamasına əsaslı şübhələr müəyyən edildiyindən bir sıra vəzifəli şəxs cinayət məsuliyyətinə cəlb edilib.

Belə ki, Sumqayıt şəhər prokurorluğunda Cinayət Məcəlləsinin 208.2.1, 208.2.2 (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən külli miqdarda xarici valyuta vəsaitini xaricdən qaytarmama), 308.2-ci (ağır nəticələrə səbəb olan vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə başlanmış cinayət işi üzrə "SOİL BOONS" MMC tərəfindən ümumilikdə 6.9 milyon ABŞ dollarından artıq (müvafiq dövrün məzənnəsi ilə 11.7 milyon manatdan artıq) pul vəsaitinin Azərbaycan Respublikasında müvəkkil edilmiş bankın hesabına qaytarılmaması müəyyən edildiyindən Əliyev Cahangir Alim oğlu, Hacıyev Elyar Taryel oğlu, Mirzəmədov Mehman Əjdər oğlu, Qəbilov Saleh Rza oğlu və Əliyev Alı Cahangir oğlu iş üzrə təqsirləndirilən şəxs qismində cəlb olunaraq qeyd olunan maddələrlə onlara ittiham elan edilib və barələrində istintaq orqanının qərarı ilə polisin nəzarəti altına vermə növündə qətimkan tədbiri seçilib.

Sumqayıt şəhər prokurorluğunda Cinayət Məcəlləsinin 208.2.1, 208.2.2, 308.2-ci maddələri ilə başlanmış cinayət işi üzrə fiziki şəxs Qurbanov Elxan Sabir oğlu tərəfindən ümumilikdə 3.8 milyon ABŞ dollarından artıq (müvafiq dövrün məzənnəsi ilə 6.5 milyon manatdan artıq) pul vəsaitinin Azərbaycan Respublikasında müvəkkil edilmiş bankın hesabına qaytarılmaması müəyyən edildiyindən Qurbanov Elxan Sabir oğlu



və Xalıqov Fuad Elşad oğlu iş üzrə təqsirləndirilən şəxslər qismində cəlb olunaraq qeyd olunan maddələrlə onlara ittiham elan edilib və barələrində istintaq orqanının qərarı ilə polisin nəzarəti altına vermə növündə qətimkan tədbiri seçilib.

Sumqayıt şəhər prokurorluğunda Cinayət Məcəlləsinin 208.2.1-ci maddəsi ilə başlanmış cinayət işi üzrə "Roksa" və "Betta Advertising Media" MMC-lərin direktorları Nəcəfov Samir Afət oğlu və Qasımov Rəfayıl Qasım oğlu tərəfindən ümumilikdə 69 min ABŞ dolları (müvafiq dövrün məzənnəsi ilə 118 min manatdan artıq) pul vəsaitinin Azərbaycan Respublikasında müvəkkil edilmiş bankın hesabına qaytarılmaması müəyyən edildiyindən S.Nəcəfov və və R.Qasımov iş üzrə təqsirləndirilən şəxs qismində cəlb olunaraq barələrində axtarış elan edilib.

Quba rayon prokurorluğunda Cinayət Məcəlləsinin 208.2.1-ci maddəsi ilə başlanmış cinayət işi üzrə xaricə müxtəlif kənd təsərrüfatı məhsulları ixrac edən fiziki şəxs Məmmədzadə Bayram Nüsrət oğlu tərəfindən ümumilikdə 2.2 milyon ABŞ dollarından artıq (həmin dövrün məzənnəsinə uyğun olaraq 3.8 milyon manatdan artıq) pul vəsaitinin Azərbaycan Respublikasında müvəkkil edilmiş bankın hesabına qaytarılmaması müəyyən edildiyindən B.Məmmədzadə iş üzrə təqsirləndirilən şəxs qismində cəlb olunaraq qeyd olunan maddə ilə ona ittiham elan edilib və barəsində istintaq orqanının qərarı ilə polisin nəzarəti altına vermə növündə qətimkan tədbiri seçilib.

Quba rayon prokurorluğunda Cinayət Məcəlləsinin 208.2.1-ci maddəsi ilə başlanmış cinayət işi üzrə Rusiya Federasiyasına meyvə və tərəvəz ixrac edən (fiziki şəxs) Məmmədzadə Qurban Nüsrət oğlu tərəfindən ümumilikdə 516 min ABŞ dollarından artıq (həmin dövrün məzənnəsinə uyğun olaraq 878 min manatdan artıq) pul vəsaitinin Azərbaycan Respublikasında müvəkkil edilmiş bankın hesabına qaytarılmaması müəyyən edildiyindən Q.Məmmədzadə iş üzrə təqsirləndirilən şəxs qismində cəlb olunaraq qeyd olunan maddə ilə ona ittiham elan edilib və barəsində istintaq orqanının qərarı ilə polisin nəzarəti altına vermə növündə qətimkan tədbiri seçilib.

**Hazırda Dövlət Gömrük Komitəsindən daxil olmuş digər bu kateqoriya materiallar üzrə, yəni mal və məhsul ixrac etməklə əldə edilən pul vəsaitini Azərbaycan Respublikasının müvəkkil bank hesablarına qaytarmamış şəxslər barəsində prokurorluq orqanlarında cinayət işləri başlanaraq ibtidai istintaq aparılır və zəruri tədbirlər icra olunur.**

# "Bakı, Sumqayıt və Gəncədə bu binalar söküləcək"

**"Bakıda söküntü işlərinin aparılması əsasən sifarişçilərdən, o cümlədən iş adamlarından asılıdır".**

Adalet.az xəbər verir ki, bunu "Report"a açıqlamasında Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev deyib.

"Bizim hazırladığımız Baş plan paytaxtın inkişaf istiqamətlərini və lazımi məhdudiyyətləri müəyyən edir. Amma şəhərin hansısa ərazisində nə vaxt hansı işin aparılacağı ayrı-ayrı sifarişçilərdən, o cümlədən iş adamlarından, eləcə də icra hakimiyyətlərindən asılıdır. Təbii ki, söküntü Bakının daha pis vəziyyətdə olan məhəllələrdən başlanılacaq və illərlə bu işlər aparılacaq. Hazırda tikinti şirkətləri köhnə binaları söküb yerində yeni binalar tikməkdə maraqlıdırlar və bu layihələr həm Bakıda, həm də regionlarda həyata keçirilir", - deyə o qeyd edib. Onun sözlərinə görə, ilkin mərhələdə yaşayış şəraiti daha pis olan bir-iki mərtəbəli, plansız-nizamsız tikilmiş evlər sökülə bilər: "Bundan başqa, dövlətin müəyyən etdiyi kifayət qədər qəzalı binalar var. Belə binalar əsasən Bakıda, eləcə də kiçik həcmdə Gəncə və Sumqayıtdadır. Bu binalarla bağlı xüsusi dövlət komissiyası yaradılıb. Bizim komitəyə tapşırıq verilib. Komitənin rəhbərliyi ilə işçi qrupu yaradılıb və aidiyyəti dövlət qurumları ilə birgə inventarizasiya aparılır. Addım-addım bu məhəllələrin sökülməsi, amma ilk növbədə insanların təhlükəsizliyinin təmin edilməsi nəzərdə tutulur. Elə bina var ki, sökülüb yerində yeni bina tikilə bilər və ora iş adamları cəlb ediləcəklər, amma elə yer də var ki, tikinti aparıla bilməz, həmin yer sadəcə abadlaşdırılacaq. Bunu da yalnız özəl vəsait hesabına etmək çətin olacaq. Dövlət müvafiq dəstək göstərməlidir".

# BMT "ASAN xidmət" modelini dörd qitədə təşviq edəcək

**Azərbaycanın "ASAN xidmət" modeli dörd qitədə təşviq ediləcək.**

Bu barədə Adalet.az-a Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyindən ("ASAN xidmət") məlumat verilib. Bildirilib ki, bununla bağlı Azərbaycan hökuməti ilə Birləşmiş Millətlər Təşkilatı (BMT) arasında Töhfə Sazişi imzalanıb. Sənədi Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev və BMT Baş katibinin iqtisadi və sosial məsələlər üzrə müavini Li Junhua imzalayıblar. Saziş çərçivəsində BMT-yə üzv ölkələrdə "ASAN xidmət" modeli əsasında dövlət xidmətlərinin göstərilməsi üçün innovasiyaların tətbiqi və müvafiq sahə üzrə potensialın inkişafı nəzərdə tutulur. Bununla da BMT Azərbaycanın beynəlxalq müstəvidə brendinə çevrilmiş "ASAN xidmət" konsepsiyasını ən yaxşı model kimi dəyərləndirir və təşkilata üzv dövlətlərə təşviq edir. Sazişə əsasən, Azərbaycanın "ASAN xidmət" təcrübəsi əsasında müvafiq ölkələrdə dövlət qulluqçuları üçün qabaqcıl idarəetmə və dövlət xidmətlərinin göstərilməsi üzrə təlimlər təşkil ediləcək. Həmçinin tədris vəsaitləri hazırlanacaq və qitələrarası beynəlxalq tədbirlər təşkil olunacaq.



Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# Yaşamağa və ölməyə VƏTƏN yaxşı

İndi heç kimi təəccübləndirmək mümkün deyil..Ona görə ki, hər gün yollardayıq...Bütöv Vətənin yollarında.... Ağdama, Füzuliyə, Cəbrayıla, Xocavəndə, Zəngilana, Qubadlıya, Laçına Ağdərəyə, Kəlbəcərə, Xocalıya, Şuşaya, Xankəndinə getdiyimiz yoldu bu yol! Və biz bu yolu artıq qalib kimi gedirik... torpağın sahibi kimi gedirik.

Və hələ neçə illər bundan öncə xalq şairi böyük Bəxtiyar Vahabzadə ilə söhbətlərimin birində mənə dediyi kimi, "Bu, böyük Qayıdışın yoludu". Bəxtiyar müəllim mənə ürək-dirək verirmiş kimi onu da dedi ki, "Darıxma, Türkün özünə dönüşü var. Bizim də böyük dönüşümüz olacaq. Bu, böyük Qayıdış kimi düşəcək tariximizə".

Xalq şairimizin bu fəhmi indi çin olur, indi gerçəkləşir. Və mən bu gerçəkləşən qayıdışın bir sıra nəfəri kimi özümü xoşbəxtlərin sırasında görürəm. Çünki "ölməyə vətən yaxşı" deyənlər elə-belə adamlar olmayıb. Onların istəyinin mahiyyəti indi bəlli olur mənə.

Yadıma dünyasını dəyişmək ərəfəsində atamın dediyi söz də düşür. "Allah möhlət verə, gedib kəndimdə öləm!".

Mən bu arzunun fərqinə indi daha çox varıram. İndi anlayıram ki, atam Allahdan elə-belə ömür istəmirmiş, kəndini görmək üçün möhlət istəyirmiş. Təəssüf ki, bu günü görmək, qələbə xəbərlərini eşitmək dünyasını dəyişən insanlarımıza nəsib olmadı. Amma ruh ki, yaşayır.

İnanıram ki, indi o ruhlar Qarabağdadı, səngərləri keçib gediblər. Orda qarşılayırlar əsgərlərimizi... orda qarşılayırlar igidlərimizi.

Bəli, bu gün daha "DQMV" yoxdu! Gedib cəhənnəmin dibinə!!! Oradan isə dönüş mümkünsüzdü! Bu gün AZAD QARABAĞ VAR!!! Bu gün XANKƏNDİNDƏ dalğalanan AZƏRBAYCAN BAYRAĞI VAR!!! o bayrağı qaldıran DƏMİR YUMRUQ VAR!!!

...Hə, şükür ki, yolum Tuğadı... Şükür ki, içimdə sıralanan ümidlər əsgərlərimizə qoşulub məndən öndə idilər.. Və bir də mən artıq dəfələrlə yazıb təkrarladığım bir nisgili indi içimdən qovmaq gücündəyəm. Çünki "Ehtiyacım elçi daşı" kitabımda yazmışdım ki:

*Ana qucağından*
*isti yer*
*körpə qığıltısından*
*həzin musiqi*
*varmı dünyada ?!.*

*Ana - ana torpaq*
*övlad əsgər.*
*Başını söykədiyin*
*sinəyə*
*sevgini göstər...*

*Ağrısını*
*süd kimi əm*
*Və Allahın eşidə biləcəyi*
*səslə içində pıçılda -*

*Qəmin kəm, Ana,*
*Qəmin kəm*
*torpaq,*
*qəmin kəm...*

İndi torpağımız da, analarımız da, övladlarımız da, özümüz də qəmdən qurtulmuşuq. Bu gün bir-birimizə gözaydınlığı veririk.

Və bu gün biz həm də darıxdığımız torpağı çiynimizə qaldırmışıq. Çünki onun 30 il yad tapdağında qalmasına dözmüşük... Və qisasımızı qanımızla alıb onu çiynimizə qaldırmışıq ki, bir daha yad ayaq dəyməsin, yad nəfəs toxunmasın. İnşallah, belə də olacaq!

Və biz bir-birimizə bundan sonra bir andla müraciət edəcəyik. Yəni sözümüzü, fikrimizi isbat üçün "TORPAQ HAQQI!" - deyib and içəcəyik.. Çünki bundan gözəl and yoxdu dünyada. Mən də o andla sizə deyirəm:

- Torpaq haqqı, sizi Tuğda gözləyəcəm!

# Sənsiz... Və həmişə BİRLİKDƏ!..

Söz adamları yəqin ki, yaddaşlarında axtarış versələr mütləq "Sənsiz" adı ilə nələrsə çıxacaq qarşılarına. Bu nələrsə xatirələr də ola bilər, şeir də, məktub da, məqalə də, film də, əsər də Şəxsən mən "Sənsiz" barədə düşünəndə yadıma mövzunu əhatə edən bir neçə əsər düşür. Onlardan ən birincisi Şeyx Nizaminin " Sənsiz"-idi. İkincisi Müşviqin ömür-gün yoldaşı Dilbər xanımın yazdığı xatirələrdi. Üçüncüsü Anarın ata və anası barədə, yəni, Rəsul Rza və Nigar Rəfibəyli barədə çox monomentual əsəridir Oxuyanda həmin illərə, həmin günlərə qayıtmamaq mümkün deyil. Və elə indi barəsində fikirlərimi bölüşəcəyim bir "Sənsiz" də var. Onun müəllifi şair-publisist, əsl Azərbaycan xanımı, gözəl pedaqoq və həm də ailəsinə, sevgisinə bütün varlığı ilə bağlı olan Sona Çərkəzdi.

Mən bu cümləni bilgisayara diktə edəndə özüm də bilmədən xəyalən tələbəlik illərinə qayıtdım. Həmin illərdən tanıyıram Sona xanımı. Universitet auditoriyasında görmüşəm və bilmişəm ki, universitet müəllimləri arasında şəxsiyyəti və insanlığı ilə həmişə diqqət mərkəzində olan Çərkəz müəllimin ömür-gün yoldaşıdı... hamımızın sevgisini qazanan Sona xanım. İnanın ki, mübaliğəsiz deyirəm və yazıram.

Bir həsəd vardı onların qoşa yerişinə onların bir-biri ilə üzüzə dayanıb nəyisə müzakirə etməsinə...

Elə bil ki, əsl azərbaycanlı ailəsi dolaşırdı universitetdə, auditoriyalarda. Hətta hərdən mən düşünürdüm ki, Allah onları bir-biriləri üçün yaradıb. Və bir-biriləri üçün yaradılan bu insanlardan birinin adının Sona olması ürəyimin hansısa bir guşəsində nigarançılıq toxumunu cücərdirdi. Bu da səbəbsiz deyildi. Çünki həmin illərdə ikinci ya da üçüncü dəfə idi ki, Cəfər Cabbarlının ömürgün yoldaşı Sona xanımın xatirələrini oxumuşdum. Cəfərin Sonası məndə sədaqətin, sevginin rəmzi kimi bir qəribə assosiasiya yaratmışdı.

Ona görə də Çərkəz müəllimlə Sona müəllimənin gözümün önündə hər gün görünən, daha doğrusu, gördüyüm simaları həmin o içimdəki narahatlığa sanki yağ damızdırırdı və hər dəfə də bir Allah şahiddir ki, içimdə dua edirdim:

- Allah sevənləri qorusun! Allah bu cütlüyü bədnəzərdən uzaq tutsun!

Bəli, bax, indi əlimdə tutduğum bu kitab "Sənsiz ötən otuz il və ya Sən dözməzdin mənim dözdüklərimə " adlanır. Kitabın müəllifi də Sona Çərkəzdir. Kitabda təqdim olunan fotolar xəyalən gəzib dolaşdığım univesitet illərimin sanki təsdiqidi. Bu fotoda Sona xanımla Çərkəz müəllim yanaşı dayanıblar. Hər ikisinin də çöhrəsindən nur və sevgi tökülür. Adam heç gözlərini çəkmək istəmir bu fotodan. Çünki duruşda da, görkəmin özündə də bir doğ-



malıq, bir səmimiyyət,bir sevgi, bir azərbaycançılıq var...

Mən bu kitabdakı bütün yazıların və şeirlərin demək olar ki, hamısını oxumuşam. Əvvəllər də, elə bu kitabın özündə də. Çünki Sona xanım Çərkəz müəllimdən




sonrakı 30 ildə özünü sözə həsr etdi. O sözə ki, onun işığı iki ürəkdən mənbə götürdü. Onun hərarəti iki ürəkdən qidalandı - Cənnətə köç etmiş Çərkəz müəllimlə Sona xanımın ruhundan və varlıqlarından. Kitabı vərəqlədikcə bədii bir filmə baxırmış kimi özümü o senarinin içərisində görürəm. Hadisələr ətrafımda cərəyan edir. İzləyirəm, baxıram, düşünürəm və inana bilmirəm ki, bu boyda sevginin yarısı, yəni tam yarı hissəsi indi həyatda yoxdu.

Ağlıma sığışdıra bilmirəm ki, bu boyda sevgini təkbaşına yaşamaq və yaşatmaq necə mümkün olubdu?

Bax, onda elə bil ki, hardansa mənə bir vəh gəlir. O vəh mənə pıçıldayır ki, Sona xanım tək deyil. Sona Çərkəzlə birlikdədir. Adlar qoşalaşdığı kimi ruhlar da qoşalaşır. Bu qoşalaşan imza sadəcə Sona xanımın qələmi ilə sözləri kağıza köçürür... fikirlər vərəqlərə naxışlayır.

Bu da o deməkdir ki, cismani ayrılıq bu sevginin qarşısında acizdir. Və bu həm də onu göstərir ki, Sona xanım hər bir yazısında təkcə imzası ilə yox, həm də fikirləri ilə, ruhu ilə Çərkəz müəllimin onunla birlikdə olduğunu oxucuya çatdırır. Görmək istəyənlərə təqdim edir. Bu kitab çapa hazırlanarkən Sona xanım bildirdi ki, ona dəyər verənlərin israrı ilə otuz illik həsrətin kitabını oxuculara təqdim etmək istəyi var.

Təbii ki, mən də sevindim bu istəyə. Və günlərin birində kitabı onun yazdığı "Əziz qardaşıma! Müəllifdən Sona" avtoqrafı ilə qəbul edəndə daxilən bir məmnunluq yaşadım. Bilmirəm, Sona xanım onu hiss etdi yoxsa yox, amma mən içimdə bu kitabın otuz illik həsrətə abidə olduğunu düşündüm. Və bir də Allaha şükür etdim ki, Sona Çərkəz imzası sözün, mətbuatın, ümumiyyətlə, bədii yaradıcılığın sevilən müştəvisindədi. Yəni, onu oxumaq, onu mütaliə etmək yormur adamı... küsdürmür adamı...incitmir adamı. Sadəcə bir gerçəklik kimi , bir həyat reallığının özü kimi tutur oxucu əlindən. Özü getdiyi hər yerə oxucunu da aparır. Yəqin ki, bu kitabı oxuyan hər kəs mənim-




lə müəyyən mənada razılaşacaq. Çünki bu kitabda müxtəlif illərdə qələmə alınan özəl xatirələr, eləcə də Sona xanımın nəvəsi Sonanın yazdıqları və bir də Çərkəz müəllimlə, Sona xanımla bağlı kövrək dost xatirələri, onlara həsr edilmiş şeirlər yer alıbdır. Müxtəlif müəlliflərin ürək sözləri bu kitabda Sona Çərkəz qoşalığını təkcə tərənnüm və təqdim etməyib , həm də bu ali nümunəni Azərbaycan cəmiyyətinə təbliğ edir, ünvanlayır, göstərir. Və bu da o deməkdir ki, bizim xüsusilə gəncliyin nümunə götürəcəyi gerçəkliklər hələ var. O var olanlardan biri də indi barəsində ilk isti qeydlərimi qələmə aldığım bu kitabdır. Yəni bu kitabdakı sevgidir. Mənim üçün şərəfdir ki, kitabda "Sözlə sirdaş olan Sona Çərkəz" adlı yazım da yer alıbdır. Buna görə kitabın məsləhətçisinə və redaktorlarına təbii ki, həm də Sona xanıma təşəkkürümü bildirirəm. Və indiki məqamda son olaraq vurğulamaq istəyirəm ki, Sona xanım, siz yəqin ki, "Sənsiz" deyəndə, yazanda sənsiz, yəni Çərkəz müəllimsiz olmadığınız qənaətini yaddan çıxarmırsınız, çünki siz onsuz deyilsiz!

Əbülfət Mədətoğlu

# Bir məktub yazıram, çatar yəqin ki...

**Öncə salam. Artıq iki ilə yaxındır ki, üz-üzə görüşə bilmirik. Amma mən hər gün səni sosial şəbəkədə görürəm. Paylaşdığın, bir-birindən maraqlı informasiyaları, poeziya nümunələrini, həmçinin müdriklərin fikirlərini böyük həvəslə oxuyuram və inan ki, bu təmasdan çox məmnun oluram. Çünki gördüyün, yəni təqdim etdiyin hər bir informasiya və yaxud şeir özünə bənzəyir : - Təmiz, sadə, halal və düşündürücü!!!**

Ona görə "özünə bənzəyir" yazdım ki, mən bu günə qədər həyatda sənin bənzərini görməmişəm. Qarşıma çıxmayıb. Hətta həmyerlin olan dostlarıma da zarafatla demişəm ki, Şükür Şənol Böyük Bəhmənliyə sanki göydən gəlib düşüb. Ona görə də fərqlidi. Ətrafa, insanlara, hətta sözün özünə münasibəti də özəldi. Bunu ona görə vurğulayıram ki, Şükür Şənolun söz dünyası adamın çiyinlərindən basır, yerində otuzdurur və düşünməyə məcbur edir. Misralarındakı ağırlıq, tutum o qədər ələnib ələkdən keçib ki, onu bir daha başqa formada təsəvvür etmək, yazıya gətirmək mənim üçün mümkünsüz bir şeydi.

Elə bu mənada Şükür Şənolun özəl keyfiyyətləri ilə yazı özəlliyi bir-birini tamamlayır. Mən bir oxucu kimi onu necə görüb necə tanıyıramsa qələmindən kağıza köçüb oxucu diqqətini çəkən yazılarını da o cür görürəm. Hətta o yazıların altında imza olmayanda belə mən onun Şükür Şənola aid olduğuna tərəddüdsüz qərar verə bilərəm. Yenə də deyirəm, bunun əsas səbəbi özünəməxsusluqdur. Bax, elə bu məktubu da onun özünə yazıram və şübhə etmirəm ki, bu məktubdakı fikirləri Şükür Şənolun oxucuları açıq ürəklə, sayqı və həm də zamanında yazılmış kimi qəbul edəcəklər...

İki gün öncə sosial şəbəkədə Şükür Şənolun qarşılaşdığım son paylaşmalarından biri insan duyğuları ilə bağlı idi. Həmin o insani cizgilərin dalğası məni Şükürün kitabını əlimə götürməyə həvəsləndirdi, daha doğrusu vadar etdi və mən "...aramızdakı bir mələk" kitabını qeyri-ixtiyarı açdım və indi oxuyacağınız, daha doğrusu artıq oxumağa başladığınız şeiri ilə qarşılaşdım:

*...elə gələr ki bu həsrət*
*dübədüz sinəmdən keçər*
*namərd düşmən kimi*
*hədəf ürəyimi seçər*
*bu həsrətin qurğuşun qurmaya oxşar*
*ağırlığı var*
*bu həsrətin ağırlığı əzə bilər ürəyimi*
*bilirsənmi...*

Məncə bu şeirdəki obyekt də, ünvan da, duyğu da, yaşam da, etirafın özü də birmənalıdır və yalnız həsrəti



yaşayanların dəyərləndirə biləcəyi səviyyədədir. Çünki sevənə ən böyük zərbəni, ən öldürücü gülləni həsrət atır, həsrət vurur. Özü də birbaşa ürəkdən. Deməli, dəqiq, sərrast və düpbədüz ürəyə vurulan güllənin namərd atıcısı barmağı həmişə tətikdə olan həsrətdir. Onun bütün həmlələrinə həm psixoloji, həm fiziki, həm mənəvi təzyiqinə dözən isə ürəkdi. Bax, bu gerçəyi dörd-beş misrada deyir oxucuya, yəni mənə Şükür Şənol.

Bizim yaşadıqlarımız, eləcə də yaşatdıqlarımız içərisində olduğumuz zamanda qarşılandığı forma və məzmunda , dünənə köçəndə, xatirəyə dönəndə xeyli fərqlənir. Yəni, onun zərbəsi, onun vurduğu yaralar və yaxud onun təbəssümü, onun gülüşü dəyişmiş olur. Bu da ondan irəli gəlir ki, hər anın öz hökmü olduğu kimi, öz dərketmə, düşündürmə arenası da var, ovqatı da var.

Deməli, ilk oxunuşda və yaxud ilk eşidiləndə sözün etdiyi təsir yaddaşa köçüb iki gün sonra xatırlananda insanda başqa bir ovqat yaranır, başqa bir çözüm çıxır ortaya. Bu, mübahisəli və müqayisəli fikirlərin içərisində Şükür Şənol özünəməxsus bir məntiqlə pıçıldayır bizə. Yəni yazır ki:

*Nəğmə oxuyardı, dünənə kimi*
*sözündə, fikrində kövrək düşüncə, -*
*meşədə, ormanda dünənə kimi*
*gəzib dolaşardı əldən düşüncə...*

*Yazın yağışında dünənə kimi*
*aydınlıq olardı hər qədəm başı.*
*Onun baxışında dünənə kimi*
*Təmizlik duyardı dostu, sirdaşı...*

*O bir bəxtəvərdi, dünənə kimi*
*şan və şöhrəi idi obaya, elə, -*
*səni də sevərdi, dünənə kimi*
*sevəcək elə də bu gündən belə...*

Oxudunuzmu bu şeiri?!. Əgər oxudunuzsa gəlin razılaşaq. Şükür Şənolun bizə təqdim etdiyi bu üç bəndlik şeirdə hər şey dünənə aiddi. Və bütün baş verənlər də dünənə kimi baş veribdi. Xatirəyə çevrilib, yaddaşa köçüb.

Amma Şükür o dünəndə qalanları unutmur, əksinə onun bugünə yolunu axtarıb tapır. Axtarışlar nəticəsində də dünənkinin dünəndə qalmadığını, sevginin gücü ilə, ruhun, ürəyin tələbi ilə bugünə, sabaha transfer etdiyini də görürük. Məhz dünəndən bugünə və sabaha keçib gələn BÖYÜK SEVGİDİ.

O sevginin bugünlə tamamlanmadığını, sabah da davamlı olacağını özünəməxsus ədəbi üslubla Şükür Şənol söylədi mənə. Eləcə də sizə. Mən oxudum, eşitdim, inandım. Sizlərin də inanacağına hər hansı bir şübhəm yoxdu. Ən azından ona görə ki, bu şeirin müəllifi zamanı bir-birinə qopmayan, qırılmayan tellərlə bağlayır. Zamanı zamanın içərisində böyüdür, yaşadır...

**Bəli, əzizim Şükür!**

**Sənə yazdığım qısa, amma içimin istəyi olan bu məktubu hələlik burda bitirirəm. Ona görə "hələlik" yazıram ki, sənin özündən və sözündən heç vaxt ayrı olmamışam və bu fikri də ağlımın ucundan da keçirməmişəm. Bilirsən niyə? Ona görə ki, sən özəlsən, fərqlisən, dəyərlisən, sadəsən, səmimisən, diqqətlisən və ən vacibi sən Şükür Şənolsan. Allaha əmanət ol.**

**Əbülfət Mədətoğlu**

# Bir Adil Mirseyid vardı...

**Yəqin ki, xatırlayırsınız. Xüsusilə dostlar, doğmalar və bir də onun ruhunu sirdaşı bilənlər. Bu Adil Mirseyid həm rəssam idi, həm şair idi, həm tərcümələr edirdi, həm publisist yazılar yazırdı və ən vacibi bu Adil Mirseyid bu dünyanın adamı deyildi. Özünəməxsusluğu, işində, həyat tərzində, yaradıcılığında qeyri-adiliyi onu həm cəmiyyətdən uzaqda tuturdu, həm də cəmiyyətin fövqündə. Yəni, bizimlə olduğu qədər həm də bizdən uzaqda idi. Ona görə də onu hər gün görəndə elə bilirdin ki, sıradan bir adamdı. Onu bircə gün görməyəndə elə bilirdin ki, ətrafın, dünyan boşalıb. Bax, bu formulanın içərisində yaşayırdı mənim üçün Adil Mirseyid. Varkən yoxluğunu yaşatmaq, yoxkən varlığına səni inandırmaq istedadını, qabiliyyətini və bir də sirli bir özəllik bağışlamışdı Allah ona...**

İndi keçən günlərə səyahət edib xatirələrə baş vuranda elə bilirəm ki, "Ədalət" qəzetində bir yerdə işləyirik. Barmağının arasında siqareti tüstülənə-tüstülənə özünəməxsus oturuşla, özünəməxsus səslə danışır mənimlə. İnan ki, səsi qulağımda o qədər diridir ki, onun yanında olduğuna bütünlüklə inanıram. Söhbətimiz, mövzumuz ədəbiyyat, rəsm, sənətdir. Və elə bu məqamın içərisində bir hadisəni də xatırlayıram. Deməli, 1992-ci il idi. Adillə kitab barəsində, kitab qrafikası haqqında danışırdıq. Necə oldusa söz sözü çəkdi və mənim "Dərdini danışan adam"kitabım barəsində soruşdu məndən. Bilirdi ki, mətbəədədi. Elə birbaşa da soruşdu:

- Kitabın üz qabığında olacaq rəsmi çəkmişəm sənin üçün. Göstərsəm baxa bilərsən?

Gözləmirdim, ona görə də bir anlıq duruxdum və çox böyük sevgi ilə:

- Əlbəttə, dedim. Bu, əsl surprizdi mənim üçün.

Masasının siyirməsindən çıxartdı həmin rəsmi və qoydu gözümün önünə. Baxdım və sonra başımı qaldırıb soruşmaq istədim...

Adil qabaqladı məni:

- Kitabın son variantını səninlə birlikdə gözdən keçirəndə müəyyən detallar tutdu məni. Ona görə emalatxanamda olanda həmin o detalları rəsmə çevirdim. Buyur, xoşun gəlirsə, olsun kitabının üz qabağı...

Möhkəmcə sıxdım Adil Mirseyidin əlini. Başqa heç nə demədim. Çünki burada deməyə söz qalmamışdı. Bax, beləcə Adil Mirseyid mənim özümə demədən, özümdən soruşmadan kitabımın rəssamı oldu.

Bu onun içindəki qeyri-adiliyin, səmimiliyin xırdaca bir nümunəsidi və həyatımda çox görmüşəm Adil Mirseyidin belə təvazökarlığını, dosta, ruh adamlarına belə diqqətini. İndi onun vəfatından sonra işıq üzü görmüş "Son şeir, Son vəsiyyət" kitabını vərəqləyirəm. Vərəqləri çevirdikcə sanki həmsöhbət oluruq. Sanki yenə yandırdığımız siqaretlərin tüstüsü bir-birinə qarışır, fikirlərimiz bir-biri ilə gah yoldaşlıq edir, gah da dartışır, çəkişir. Bu kitabda isə bir-birindən maraqlı şeirlər məni az qala nəfəs çəkmədən onları oxumağa yönəldir. Adil Mirseyid yazır ki:

*yazdığım şeir əlinə keçsə bir gün*
*bilərsən ki tale mənnən nə oyunlar oynayıb*
*qaranlığın dibindəyəm yay günü üşüyürəm*
*burda intihar eləmək olar*
*burda ağlayıb sızlamaq ayıb.*

*hələ də çəkilməyib bu bəlalı başımdan*
*qara sevda sərxoşluğu*
*sən yoxsan artıq mənim ömrümdə*
*indi kim dolduracaq söylə kim dolduracaq*
*dünya ilə mənim aramdakı boşluğu.*

*sən iz buraxmadan getdin*
*mən bir boşluğa düşdüm*
*içimdə aya baxıb ulayan bir yalqızlıq*
*umudsuz bir çarəsizlik*
*yatağımda ölümün soyuqluğu.*

*bir zamanlar ürəyimdə durna fəryadı*
*sənin gözlərinlə dünyaya baxdım*
*qaranlığın dibindəyəm yay günü üşüyürəm*
*daha gözləmə məni geri dönməyəcəyəm*
*mən arxamca gəmiləri yandırıb yaxdım.*

Şeiri oxuduqca bir ömür yolunun kadrları, cizgiləri yavaş-yavaş heç yana tələsmədən bir video-çarx kimi gəlib keçir və bu video-



çarxın müəllif fikirlərini, müəllif sözlərini elə Adil Mirseyid özü öz üslubunda pıçıldayır. Dinləyici, yəni oxucu o video-çarxın bir-birini necə tamamladığını, bir-birini necə təqdim etdiyini təkcə görmür, eşitmir, həm də yaşayır.

Hiss edir ki, bu, dünəndən qalan və lentə alınıb indi təkrarlanan bir yazıdı... ömür yazısı... yaşam yazısı. Və bu həm də bir vidadır.

Amma Adil Mirseyid əlini necə tərpədir, o vidalaşmanı necə gerçəkləşdirir, onu gözlə görmək mümkün deyil. O pərdə arxasındadır. O yalnız duyulur. Təbii ki, duyanlar duyur. Həmin ovqatla da ömrün payız notlarını dinləməyə başlayırsan.

Yaşadığın şəhərdəki payızı görürsən, onun nəfəsini duyursan, rəngini çeşidləyirsən və hətta bir az da heyrətlə, təəccüblə bu şəhərin payızını süzüb digər payızlarla müqayisə edib bir özəllik ortaya çıxarırsan. Çünki bu şəhərdəki payız gerçəkdə isə Adil Mirseyidin payızındakı şəhər xatirələrin, səslərin, sözlərin və sevgilərin şəhəridi, həm də onların payızıdı.

*yarpaq qoxuyurdu şəhər havası*
*təzə yandırılmış yarpaq qoxusu*
*sənin gözlərindən sürüşdü birdən*
*iki damla dəniz iki damla su.*

*ayrılsaq da hələ sevirəm səni*
*hər şeyi yenidən başlamaq olar*
*pəncərəni açma yanıq qoxusu*
*səssizcə süzülüb otağa dolar.*

*mən İzmir bağında gözlədim səni*
*şəhərin üstünə axşam çökürdü*
*ağlamağa hazır idi buludlar*
*palıd ağacları yarpaq tökürdü.*

*bir axşam nədənsə yad gəlir mənə*
*doğma və hüzünlü payız şəhəri*
*cibimdə bir qutu kent siqareti*
*ağzımın içində tütün zəhəri.*

Mən şeiri sizə gec təqdim etsəm də, amma bunu ona görə xüsusi vurğulayıram ki, Adil Mirseyidin o payızın şəhərində xəzan var, tökülən yarpaqlar kimi, tökülən yaxınlar, uzaqlar, sevgilər var. O da ağrıdır adamı. Axı, xəzan həm də qopub getməkdir, ayrılıqdır. Bunu da Adil Mirseyid ciyərlərinə çəkdiyi, ağzında zəhər dadan tütün acısı ilə gizləməyə, arxa plana atmağa çalışır. Amma o həm də bunu məhz elə "gizlətmək istədiyi" üsuldan yararlanıb, istifadə edib bizə göstərir.

Şeirdəki nostalji ruh, hava məhz payız şəhərini, buna da paralel olaraq şəhərin payızını kövrək bir xatirə mövzusu edir. O mövzudan da şeir doğulur.

Çünki doğmanı itirmək, sənə əziz olan yanında görməmək məhz bu sonluqla başa çatmalıdı. Necə ki, Adil Mirseyid onu başa çatdırıb.

**Bəli, həqiqətən bir Adil Mirseyid vardı. Allahın verdiyi ömürdən ədəbiyyat üçün, sənət üçün bacardığı qədər iş gördü. Bu gün də bir Adil Mirseyid var. Yaşayır içimizdə, yaddaşımızda. Və bacardığı işin arenasını o qədər böyüdüb ki, bunun içərisində "bacarmadığını" da bizə təqdim edir. Çünki onun bacarmadıqları bacardığının alt qatıdır. Biz onu görməyi bacarmalıyıq.**

**Əbülfət Mədətoğlu**

# İki şeirin işığında

## Söhbət Fəxrəddin Teyyubun şeirlərindən gedir

**Hər dəfə onunla zəngləşəndə və yaxud qarşılaşanda birmənalı olaraq bizi üzbəüz tanış edən, bir-birimizə doğmalaşdıran və bu gün Cənnətdə qərar tutan gözəl şairəmiz Fərqanə xanım Mehdiyevaya rəhmət oxuyuruq. Həqiqətən Fərqanə xanım hər kəsə qarşı bir ana, bir bacı doğmalığı yaşadırdı içində və bu ana, bacı sevgisini əsirgəmirdi heç kimdən. Ona görə də dünən olduğu kimi, bu gün də yeri görünür onun. Adı gələndə də hər kəs böyük sayqı və üzüntü ilə ruhuna dua oxuyur.**

Bəli, bizi təbii ki, bir-birinin sözünü tanıyan adamları Fərqanə xanım tanış etdi, doğmalaşdırdı. Onun təqdimatı ilə imzasını tanıdığım Fəxrəddin Teyyubla dostluğumuzun, qardaşlığımızın bünövrəsi qoyuldu. Və biz bir-birimizin imzasını, sözünü daha çox arayıb axtarmağa, daha çox fikir bölüşməyə daxilən ehtiyac duyduq. Həmin o mənəvi tələbat da son nəticədə hansısa bir şeirin, bir yazının dünyaya gəlməsinə rəvac verdi. Elə buradaca xatırladım ki, Fəxrəddin müəllim sözü incələməyi, onun damarını tutmağı bacaran yazarlarımızdandı, şairlərimizdəndi. Yəni, istənilən şeiri oxuyanda və yaxud özü yazanda istəyir ki, oxucu şeirin bütün qatlarını görsün. Necə deyərlər, altından, üstündən xəbərdar olsun. Məhz bu səbəbdən də bər-bəzəyə, süni və pafoslu ifadələrə meyl etmir. Hətta biz fikir bölüşəndə dəfələrlə etiraf etmişik ki, söz dünyaya gələndə insanın ürəyində, ruhunda necə formalaşıbsa, o cür gəlsə, daha gözəl olar. Yaranana yamaq vurmaq, bəzək vurmaq bu o vaxt qəbul olur ki, o əl işi olsun. Amma şeir və yaxud nəsr, rəsm əsərləri, musiqi əl işi deyil, onu ruhunla, ürəyinlə yaradırsan. Kənardan və yaxud sonradan ona müdaxilə edəndə o ilkinliyini mütləq mənada az da olsa itirir.

Bax, bu mənada mən Fəxrəddin Teyyubun yaradıcılığını izlədiyim bütün zamanlarda onun öz prinsiplərinə əməl etdiyinin canlı şahidi olmuşam və şahidiyəm. İstər birbaşa, yəni ünvanlı, istər hansısa bir məqamın, mənzərənin, hadisənin təsirindən yaranan, istərsə də ruhun, ilham pərisinin bədahətən ürəyində yaranışına təkan verdiyi şeirlərinin hamısında Fəxrəddin Teyyub öz baxış bucağına sadiq qalır. Bu isə onun oxucusunun ( mənə görə - Ə.M.) qazancıdı. Çünki oxuduğunu, mütaliə etdiyini bütöv görür. Həm də bu bütövlük o yarananın ilkin formasıdı. Bax, elə indi oxuduğum şeirində olduğu kimi:



*Axı saf qəlbimi niyə görmədin?*
*İşim əzəl gündən çıxıbdır daşdan.*
*Nə yaxşı zəngimə cavab vermədin,*
*Qoy bilim işimi, elə bu başdan.*

*Yol alıb gedirəm ömrün qışına,*
*Necə ürəyimin həvəsi olsun?*
*Nahaq çıxdım bacı axtarışına,*
*Çətin Fərqanənin əvəzi olsun.*

*Könlümə yatanı gözüm bilirəm,*
*Duyğusuz, qəlbimə yaman deyəcək.*
*Mən nəyi qazandım, özüm bilirəm,*
*Sən nəyi itirdin, zaman deyəcək.*

Təqdim etdiyim bu şeirdəki poetik coğrafiya, yəni fikrin istər qəlbdə, istər ruhda, istərsə ömrün müxtəlif çalarlarında, həqiqət təsvir edilir. Özü də təsvirlə yanaşı, həm də etiraf olunur. Çünki uca Yaradan bütün varlıqları bir nüsxədə, yəni tək yaradır. Deməli, biz də nəyi itiririksə və yaxud həyat əlimizdən alırsa, o itirdiyimiz, o əlimizdən alınan da təkdir onun bənzəri var, əvəz edəni var. Amma o itirdiyimizin özü yoxdur.!

Yəqin siz də razılaşarsınız ki, Fəxrəddin Teyyub haqlıdır. Biz nəyi itirdiksə və yaxud itiririksə, onun bütünlüyünü bizə zaman təkrar kino lenti kimi göstərib, faktı təqdim edib - buyur, bax! deyir. Məhz həmin o baxdığımız anda itkinin miqyasını, çəkisini, ölçüsünü, bir sözlə varlıq olaraq kimliyini anlayırıq.

Elə bu fikirlərin axarında mən dostumun ikinci bir şeirini də sizə təqdim edirəm. Burda həm mövzu, həm ruh, həm də an məsələsi bir-birinə çox yaxındır. Elə bil ki, bu şeirin ikisi də (təbii ki, mənə görə, mənim dərk etdiyimə görə - Ə.M.) eyni anda dünyaya gəlib, eyni anda yazılıb. Baxmayaraq ki, şeirlərin yazılma tarixləri arasında kifayət qədər zaman fərqi var. Amma zaman fərqinə baxmayaraq mən oxucu olaraq Fəxrəddin Teyyubun hisslərinin, duyğularının eyni simdə, eyni notda necə kökləndiyinin şahidinə çevrilirəm, onu dərk edirəm.

Həm də qəbul edirəm, razılaşıram. Çünki müəllifinin mövzuya baxışı, yanaşması və ifadə etməsi yaşananın, necə deyərlər cana, qana hopanın əks-sədasıdır.

Bir az da fikrimi aydınlaşdırsam, müəllif yaşadığını masasının üzərində yanaşı sərib hər ikisinə baxa-baxa onlardan eyni auranı, eyni təsiri özünə köçürüb. Bu eyniliyin arasındakı bağlılıqdan isə şair ustalığı ilə bir addım uzaqlaşıb. Və sonda indi oxuyacağınız şeir dünyaya gəlib:

*Səni düşünürəm, anıram yenə,*
*Sinəmdə döyünən ürək daş deyil.*
*Yol alıb gəlirəm qəbrin üstünə,*
*Yollar yorur məni, yaş o yaş deyil.*

*Yol boyu elə hey sızlayır ürək,*
*Duyğusuz nə kədər, nə də ah bilir.*
*Gedəndə Bakıdan Lənkəranadək*
*Mən nələr çəkirəm, bir Allah bilir.*

*Neynim, dolan deyil həsrət xurcunu,*
*Nə vaxtdır talandır, talan ürəyim.*
*Qaytara bilməyir ana borcunu*
*Mənimlə yollarda qalan ürəyim.*

Yəqin ki, mənimlə razılaşarsınız. Şair ürəyinin yaşantısı.... Şair ruhunun pıçıltısı olan bu şeirdə də əvvəl söylədiyim bütün çalarlar özünü büruzə verir. Orda da yəni, birinci şeirdə də Allahın bütün varlıqları bir nüsxə yaratdığı kimi həmin varlıqların ən möhtəşəmi olan ananın da müqəddəsliyi, təkliyi ona oğul, övlad sevgisinin bütünlüyü şair qələmi ilə şeirləşib, misralanıb. Ürək itirdiyi doğması üçün, tanıdığı adam üçün, unuda bilmədiyi anlar üçün, məkanlar üçün, dünən üçün necə sızlayırsa, ana üçün də, annalı günlər üçün də bu cür ağrını özünün təkcə ürək yarası yox, həm də ürək parası hesab edir. Cənnət anaların ayaqları altından olan ana üçün oğul, övlad indiki məqamda həm də şair göynərtisi bu şeirə çevrilib, şeirləşib.

Mən Fəxrəddin Teyyubun bu iki şeirinin timsalında bir məqamı qabartmaq niyyəti, məramı ilə yazdım bu fikirlərimi. Həmin məqsəd də, niyyət də biganəlikdən, laqeydlikdən, aldığım, çəkdiyim ağrılardan bir az uzaqlaşmaq olub. İstəmişəm ki, məhz dostumun bu iki şeirinin işığında bir az çəkilim, aralanım, necə deyərlər uzaqda dayanım, məni duymayanlardan, duymaq istəməyənlərdən. Hər halda bu istəyimin yəqin ki, kiməsə zərəri olmayacaq. Və elə bu inancla da hər kəsə dəyərli olmaq və dəyər verməyi bacarmaq istəyimi çatdırıram.

**Əbülfət Mədətoğlu**

# İsti bir söhbətdən fraqment

**Söz məkanı o qədər rəngarəng, o qədər diqqət çəkəndir ki, az-çox hissi, duyğusu olan istənilən Allah bəndəsi bu məkanda mütləq nəyəsə ilişib qalır, nəyinsə təsiri altına düşür və yaxud da nəyisə yenidən digərlərinə təqdim edir. Özü də yeni formada, yeni məzmunda, yeni görünüşdə. Bu mənada söz adamlarının bəxti daha çox gətirir. Çünki onlar söz meydanında söz adamı olaraq sözü daha yaxşı görür, sözün qatlarına daha çox baş vururlar. Bu qarşılıqlı anlaşma, qarşılıqlı təmas sözdən yeni söz yaradır. Söz şaxələnir, təravətlənir, cilalanır, mənzərə də dəyişir, mahiyyət də dəyişir. Hətta bəzən mənə o qədər yeni və tər olur ki, qarşısında susursan...**

Dəyərli qələm dostum, söznən öz içində, öz aləmində dost olan, yoldaşlıq edən, sirdaşlıq edən, hətta bir-birinin qoluna girib ağır-ağır, yeni-yeni mənzillərə doğru yol gedən Nurhafiz Azərbaycan oxucusunun yaxşı tanıdığı, amma seyrək görüşdüyü şairlərimizdən biridir.

Ona görə "seyrək" sözündən istifadə edirəm ki, Nurhafiz istər sosial şəbəkədə, istər mətbuatda hər gün görünmək, hər gün təmas qurmaq istəyinə qarşı bir az soyuqqanlıdır. Necə deyərlər, söz onu "dəli" etməyənə qədər susur, gözləyir və içində yazdıqlarını vaxtın tamamında onun təbirincə desək, şeir dünyaya gəlməyə hazır olanda onu yayımlayır, sərgiləyir.

Mən şəxsiyyətini də, varlığını da, sözünü də çox doğma saydığım Nurafizlə az-az görüşsəm də, amma məndə olan kitabları ilə, mətbuatda yayımlanan şeirləri ilə tez-tez pıçıldaşıram və hər görüşüm də məndə həm onun özünə, həm də sözünə doğmalığı bir az da açıq desəm, dost vurğunluğunu artırır. Şeirlərini oxuyanda ruhən rahatlanıram. Hərdən hətta ipucunu tapa bilmədiyim hansısa fikrin qıfıl bəndini tapmış kimi sevinirəm. Ona görə ki, Nurafizin mütaliə etdiyim şeiri mənə ipucu verir, əlimdən tutur və mənim də yeni bir şeirim, yeni bir yazım ortaya çıxır.

Bax, elə bilgisayara yaxınlaşar-yaxınlaşmaz hardasa bir qeybdən gələn səs kimi eşitdim onun səsini. Elə bildim ki, çağırır və mən o çağırışa qulaq verənə kimi artıq kitabını vərəqləməyə başlamışdım. Nurafiz yazmışdı ki:

*Gəlsən geri dönməyə*
*Güman yerin qaldımı?*
*Göy ilə əlləşirdin,*
*Göyqurşağı yoldumu?*

*Geri boş, ön ayrılıq,*
*Gərək tapsın özünü.*
*Göz yaşıyla örtməyə*
*Gümanı yox, üzünü.*

*Gözlərinin içiylə*
*Gedən yoldu bu ahlar.*
*Getdin, məni qəm uddu,*
*Gəl, uduzsun günahlar.*

Yəqin siz də oxudunuz şeiri. Və yəqin ki, bizim həm sevincə, həm qəmə bükən, bələyən hisslərin siz də özü ilə birlikdə nələr gətirib nələr apardığını bilirsiz. Amma içi mən qarışıq bəlkə də çoxlarınız bu gəlişdə-gedişdə kimin udub kimin uduzduğunun fərqinə varmamışıq. Amma Nurhafiz bilib ruh dünyasında, söz məkanında baş verən bu gəliş-gedişin təlatümünü. Ona görə də onu udan qəmdən xilasın, özünə dönüşün yolunu da tapıb. Və üzünü sənə tutub deyib ki, gəl, uduzsun günahlar!!!

Zənnimcə, bundan yaxşı sonluq, bundan önəmli və hər iki tərəf üçün çıxış yolu olacaq



dəqiq qərar vermək mümkün deyil. Bu qərarı bütün varlığı ilə səni sevən, sənə bağlı olan bilər. Bax, bu məqamda həmin şəxs, həmin sevgi günahı və qurbanı, həm də xilaskarı Nurhafizdir!

Bəli, mən yazımın əvvəlində vurğuladım ki, Nurafiz oxucularla seyrək görüşür. Və onu da vurğuladım ki, görüşə gələndə də, necə deyərlər, samballı, tutarlı yüklə gəlir. Yəni fikir, məntiq, ruh, təsvir və təqdim yükü ilə. Bunların içərisində özəl yeri olan isə səmimiyyət və yığcamlıqdır, konkretlikdir. Elə bu günlərdə sosial şəbəkədə mən Nurafizin Xəqani Qayıblıya ünvanladığı şeirini oxudum. Dostunun doğum gününə hədiyyə etdiyi bu şeirin təravəti, bir də içdən gəlməsi təbii ki, həmişəki kimi, tutdu məni. Bax, elə o "tutdu" da məni Nurafizlə bir də bilgisayar arxasında oturub həmsöhbət olmağa vadar etdi. Çəkinmədim bu söhbətdən, oturdum və ürəyimdə olanların bir qismini köçürtdüm bilgisayara. Amma fikirlərimə təsdiq, həm də nöqtə kimi Nurafizin son şeirini də çəkib qoydum ortaya. İstədim ki, söhbətimizin sonluğunda siz də oxuyasınız bu şeiri:

*Eh...Sığınıb içinə*
*Gedəsən uzaqlara.*
*Xatirəni geyinib*
*Düşəsən sazaqlara.*

*Özündən çıxıb göyə*
*Tapasan mələkləri.*
*Üşüyən fikirlərə*
*Qoşasan külələkləri.*

*Yaddaşından qayıdıb*
*Yollanasan geriyə.*
*Göz yaşını siləsən,*
*Barmaqların kiriyə.*

*Üzü qara qürbətin*
*Ağ sığalı saçında.*
*Təntiyəndə, nədəndir?*
*Ovunursan acında?*

*Darıxanda,- demişdin,-*
*Qürbət sevir adamı.*
*Gecə dönür çarmıxa,*
*Başlanır söz edamı.*

*Fikrimə düşən dəni*
*Dənlədikcə qu gecə,*
*Hardan gəldi ağlıma*
*Bu xam hava, bu gecə?*

*Sağ ol. Sabahlarının*
*Üzü xeyirə qalsın!*
*Bu da bir məktub idi...*
*Gecən şeirə qalsın!!!*

***P.S.** Bəli, özüm də bilmədən, yəni əvvəlcədən hazırlaşmadan dost səsinin işığında yazdığım bu balaca, isti yazı payızın son ayında yəqin ki, dostumun qəlbini isidəcəkdir*

**Ə. Mədətoğlu**

## *Türkiyənin gizli cənnəti: Gürün Gökpınar Gölü*



**Türkiyənin zəngin tarixi, bənzərsiz mədəni irsi və möhtəşəm təbiət mənzərələri hər il milyonlarla turisti özünə cəlb edir. Bu gözəlliklərin içərisində, Sivasın Gürün rayonunda yerləşən Gökpınar Gölü, təbiətsevərlər üçün sanki gizli bir cənnətdir.**

Gürün, təbiət baxımından nadir yerlərdən biridir. Burada yerləşən Gökpınar Gölü, şəffaf və təmiz suyu ilə, hər kəsi özünə heyran qoyur. Gölün ən diqqətçəkici xüsusiyyətlərindən biri isə suyun rənginin günəşin bucağına görə dəyişməsidir. Gölün maviliyi, ona bu adın verilməsinə səbəb olub. Göl iki əsas hissədən ibarətdir: Kiçik Göl, alabalıq istehsalı üçün nəzərdə tutulubr, Böyük Göl isə turistik ziyarətlər üçün nəzərdə tutulub

### *Gökpınar Gölü və əfsanəsi*

Hər təbii gözəlliyin bir əfsanəsi olur. Gökpınar Gölünün də özünə məxsus bir əfsanəsi var. Deyilənə görə, bir gün çoban Gökpınar Gölünün yaxınlığında qoyunlarını otararkən qəribə bir səs eşidir. Bu səslər onu qorxudub və dərhal qoyunlarını götürərək ərazidən uzaqlaşmağa başlayır. Lakin çoban geriyə baxanda, Gökpınar Gölünün su ilə dolduğunu və gözəl bir gölə çevrildiyinin şahidi olur.

### *Gökpınar Gölünə necə getmək olar?*

Gökpınar Gölü, Sivasın Gürün rayonunda yerləşir və Gürün mərkəzindən cəmi 10 km uzaqlıqdadır. Lakin Sivasın mərkəzindən bu möhtəşəm təbiət gözəlliyinə çatmaq üçün 146 km yol qət etmək lazımdır. Hər il yüzlərlə insan bu təbii ərazini ziyarət etmək üçün müxtəlif nəqliyyat vasitələrindən istifadə edir.

Sivasın Gürün mahal mərkəzindən, Kayseri-Malatya yolu üzərindəki Çayboyu məhəlləsindən Gökpınar Gölünə doğru getmək mümkündür. Gökpınar Gölü, həmçinin şəxsi avtomobil, mikroavtobus və ya taksi ilə də asanlıqla ziyarət edilə bilər. Əlavə olaraq, Sütatı ərazisindən piyada gedərək bu gözəl gölə çatmaq mümkündür, lakin bu, həm uzaq məsafə, həm də yolu yaxşı tanımağı tələb edir.

**Gökpınar Gölü, hər kəsin təbiətlə baş-başa qalmaq və sadəcə gözəlliyinə qapılmaq üçün mükəmməl bir məkandır. Bu gözəl gölü ziyarət edən hər kəs, sanki təbiətin sükunətində itir, ruhunu dincəldir.**

## *Azərbaycanda məktəblilər arasında suçiçəyi yayılıb*

**Azərbaycanda orta məktəb şagirdləri arasında suçiçəyi xəstəliyi yayılıb. Adalet.az xəbər verir ki, bu barədə Lent.az-a valideynlər məlumat veriblər.**

İddia olunur ki, bəzi məktəblərdə uşaqlar arasında suçiçəyinə yoluxma hallarına rast gəlinir. Səhiyyə Nazirliyinin Respublika Gigiyena və Epidemiologiya Mərkəzindən verilən məlumata görə, payız-qış mövsümünün başlanması ilə əlaqədar ölkədə əsasən uşaqlar arasında suçiçəyi xəstəliyinə yoluxma hallarına rast gəlinir: "2024-cü ilin ötən dövrü ərzində qeydə alınan suçiçəyi hadisələrinin səviyyəsində keçən ilin müvafiq dövrü ilə müqayisədə azalma müşahidə olunur. Qeyd etmək lazımdır ki, suçiçəyi xəstəliyinə qarşı ölkədə peyvəndləmə aparılmır.

Qeydə alınan xəstəlik ocaqlarında profilaktik və əksepidemik tədbirlərin aparılması təmin edilir. Epidemioloji vəziyyət nəzarət altındadır və səhiyyə orqanları tərəfindən diqqətlə izlənilir". Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyindən isə bildirilib ki, hər hansı bir xəstəliyə yoluxma hallarının müşahidə olunması ilə bağlı məlumat daxil olduğu halda ümumi təhsil müəssisələrində müvafiq ixtisaslaşdırılmış qurumlar tərəfindən dezinfeksiya işləri həyata keçirilir: "Valideynlərə hər zaman məsləhət görülür ki, övladları mövsümi xəstəliklərə və virus infeksiyalarına yoluxduğu halda, tam sağalanadək onların digər uşaqlarla yaxın təmasda olması məqsədəuyğun deyil.

Qeyd edirik ki, məktəblilər arasında müvafiq xəstəliyə yoluxma ilə bağlı statistik məlumatı aidiyyəti səhiyyə qurumu müəyyən edir".

# ŞƏRQŞÜNASLIĞIN İNCİSİ

**Elm aləmində nadir istedada malik elə şəxsiyyətlər var ki, onların elmə gətirdiyi yenilik və çəkdikləri zəhmət, elmə verdikləri töhfə daima diqqət mərkəzindədir. Şərqşünaslıq elminin inkişaf etdirilməsində akademik Əbdülkərim Əlizadə, akademik Əlisöhbət Sumbatzadə, akademik Həmid Araslı, akademik Ziya Bünyadov, professor Rüstəm Əliyev, professor Aida İmanquliyeva kimi dahi şəxsiyyətlərin müstəsna rolu olmuşdur. Şərqşünaslıq məktəbini layiqincə davam etdirmək kimi ağır yük AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru akademik Gövhər Baxşəli qızı Baxşəliyevanın çiyinlərinə düşmüşdür.**

XX-XXI əsrdə Şərqşünaslıq elminin ölkəmizdə surətli inkişafı və çiçəklənməsində akademik Gövhər Baxşəli qızı Baxşəliyevanın əhəmiyyətli rolu vardır.Xüsusilə, ilk qadın ərəbşünas alim Aida Nəsir qızı İmanquliyevanın (1939-1992) şərqşünaslıq məktəbinin layiqli davamçısıdır.

Gövhər Baxşəli qızı Baxşəliyeva Azərbaycanın tanınmış ərəbşünas alimlərindən biri kimi ölkədə ərəb dili, mədəniyyəti və ədəbiyyatının öyrənilməsində müstəsna xidmətləri mövcuddur. Onun fəaliyyəti bir sıra sahələri əhatə edir və Azərbaycan ərəbşünaslığında əhəmiyyətli mərhələ təşkil edir.

Baxşəliyeva Gövhər Baxşəli qızı 26 noyabr 1954-cü ildə Bərdə şəhərində anadan olmuşdur. 1977-ci ildə Azərbaycan Dövlət Universitetini fərqlənmə diplomu ilə bitirərək Azərbaycan Elmlər Akademiyası Şərqşünaslıq İnstitutunda işə qəbul olunmuşdur.

Baş laborant, kiçik elmi işçi, elmi işçi, baş elmi işçi, "Şərq filologiyası" şöbəsinin müdiri vəzifələrində çalışmışdır. 1993-cü ildən Gövhər Baxşəliyeva Şərqşünaslıq İnstitutunun elmi işlər üzrə direktor müavini, 2002-ci ildən isə direktoru vəzifəsində çalışır. 1984-cü ildə namizədlik, 1996-cı ildə doktorluq dissertasiyalarını müdafiə etmişdir.

Klassik və müasir ərəb ədəbiyyatı, ərəbdilli Azərbaycan ədəbiyyatı, müqayisəli ədəbiyyatşünaslıq, ədəbi əlaqələr və mənbəşünaslıq üzrə mütəxəssisdir.

Onun əsərləri keçmiş sovet respublikalarında və ərəb ölkələrində elmi ictimaiyyət tərəfindən böyük rəğbətlə qarşılanmışdır.

Gövhər Baxşəli qızı Baxşəliyeva dördfundamental monoqrafiyanın - "Abd as-SalamUdjeyli. Oçerki jizni i tvorçestva" (1989), "Kniqa pesen" Abu-l-Faradja al-İsfaxani i klassiçeskaə azerbaydjanskaə literatura" (1998), "Sovremennıy siriyskiy rasskaz" (2007), "Literaturnıe vzqlədı Taufika al-Xakima" (2015)müəllifidir. Eləcə də on iki kitabın, o cümlədən orta əsr mənbələrinin şərhli filoloji tərcümələrinin ("Abu-l-Faradj al-İsfaxani. Kniqa nesen" (1994), "İlahi eşq dastanları" (2001), "Abu-l-Faradj al-İsfaxani.

Rasskazı o Kayse ibn Mulavvaxe poprozvihu Medjnun i araboəzıçnıxazerbaydjanskix pogtax" (2006), "Ölməzliyə aparan yol" (2009), "Cübran Xəlil Cübran. Qırılmış qanadlar" (2010) və s müəllifidir. Müxtəlif illərdə G.B.Baxşəliyevanın "Hamıdan ucadır alimin yeri" (2003) və "Məqalələr, məruzələr, müsahibələr..." (2011) adlı 2-cildliyi çap edilmişdir. Daha sonra G.B.Baxşəliyevanın (Ə.S.Abbasovun tərtibatı ilə) "İslam. Ensiklopedik lüğət"i (2013), "Əsassız erməni iddiaları və tarixi faktlar", ingiliscədən tərcümə (2016) və s. Kitabları nəşr edilmişdir. Saysız elmi məqalə və məruzələri nüfuzlu yerli və xarici nəşrlərdə dərc olunmuşdur.

Akademik Gövhər Baxşəli qızı Baxşəliyevanın rəhbərliyi və tərtibçiliyi ilə bir sıra elmi kitablar işıq üzü görmüşdür. Şərq filologiyası və mənbəşünaslıq sahəsində bir çox əsərlərin elmi redaktorudur. Bir sıra elmi jurnalların redaktoru və ya redaksiya heyətinin üzvüdür. Xüsusilə, "Azərbaycan şərqşünaslığı" və "Şərq araşdırmaları" jurnallarının baş re-



daktoru, "Dövlət və Din" ictimai fikir toplusunun redaksiya heyətinin üzvüdür. Yüksək ixtisaslı şərqşünas kadrların hazırlanmasında bilavasitə iştirak edən Gövhər Baxşəliyevanın elmi rəhbərliyi ilə otuza yaxın namizədlik dissertasiyası müdafiə olunmuşdur. 10.01.02 - "Türk xalqları ədəbiyyatı" və 10.01.03 "Dünya ədəbiyyatı" ixtisasları üzrə Müdafiə Şurasının sədridir.

Uzun illər Şərqşünaslıq sahəsində Respublikada aparılan elmi işlərin koordinasiyası üzrə Problem Şurasının sədri olmuşdur.

Bundan əlavə Akademik Gövhər Baxşəliyeva pedaqoji fəaliyyətlə də məşğul olmuş, Bakı Dövlət Universitetinin (ADU) Şərqşünaslıq fakültəsində ərəb ədəbiyyatı fənnini tədris etmişdir. Ərəb dili və mədəniyyəti sahəsində elmi-pedaqoji fəaliyyət göstərərək bu sahədə yeni nəsil alimlərin yetişməsinə, Azərbaycanda şərqşünas elmi kadrların hazırlanmasına vəsilə olmuşdur.

Filologiya elmləri doktoru Gövhər BaxşəliyevaAzərbaycanda ərəbşünaslıq məktəbinin inkişafı naminə ərəbşünaslıq sahəsində gənc tədqiqatçıların yetişməsiüçün bu sahəyə ərəb və Azərbaycan mədəniyyətləri arasındakı əlaqələrin öyrənilməsi kimi yeni yanaşma metodları gətirmiş və ərəb dili və ədəbiyyatı, tarixi, iqtisadiyyatı ilə bağlı tədqiqatların daha geniş miqyasda aparılmasına yol açmışdır. Bu sahədə onun gördüyü işlər gələcək tədqiqatçılar üçün dəyərli örnəkdir.

Elmə atdığım ilk addımdan sözün əsil mənasındamənə dayaq olmuş çox əziz və doğma insan akademik Gövhər Baxşəli qızı Baxşəliyevanın 26 noyabrda 70 illik yubileyidir. Elmi yolunu örnək bildiyim Gövhər xanıma hər zaman həyat mayakım kimi baxmışam. O mənim üçün əsl zəhmətin və həmin zəhmətlə yüksək nailiyyət qazanmağın, şəxsiyyət kimi formalaşmağıngöstəricisi olub.

Tanıdığım ilk gündən Gövhər xanımdan təkcə elmi rəhbərim kimi elmi deyil, əsl Azərbaycan xanımına xarakterik xanımlıq xüsusiyyətlərini də öyrəndim.Gövhər xanımda hər gün bir yeni müsbət cəhət kəşf etdim. İnsan bu qədərmi ürəyi yumşaq, xeyirxah, mehriban, sadə və səmimi olar? Demək ki, olar...

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında da fəal iştirak edən Gövhər Baxşəliyeva 5 noyabr 2000-ci ildə 57 saylı Bərdə-Ağcabədi seçki dairəsindən Azərbaycan Respublikasının II çağırış Milli Məclisinə deputat seçilmiş, 2001ci ilin iyun ayından 2005-ci ilin dekabr ayınadək AzərbaycanRespublikası Milli Məclisinin sədr müavini olmuş, 2005-ci, 2010-cu və 2015-ci illərdə III, IV və V çağırış Azərbaycan Respublikası Milli Məclisinə üzv seçilmişdi. Milli Məclisin Elm və Təhsil məsələləri və Mədəniyyət üzrə daimi komitələrinin üzvü olmuşdu. 2000-2019-cu illər Azərbaycan Respublikası Milli Məclisinin İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqında nümayəndə heyətinin rəhbəri olmuşdu.

Elmi fəaliyyətində dosent, professor, akademik elmi adlarına layiq görülmüşdü. Yüksək məqamlara çatdığına baxmayaraq bu uzun zaman ərzində Gövhər xanımınözünün dilindən eşitdiyim "Ağac bar verdikcə başını aşağı əyər" atalar sözünə qüvvət onu bir gün belə təkkəbürlü görmədim. Mövqeyi artdıqca sadəliyi daha da artdı...

Yüksəkixtisaslı kadrların hazırlanması üçün İnstitumuza qəbul olunmuş doktorantların dəfələrlə maddi vəziyyətini nəzərə alaraq illik təhsil haqqı ödənişlərinə köməklik göstərməsi, işə yeni kadrar cəlb ediliyində institumuzun doktorantlarını ön plana çəkməsi, bir çox ali məktəblərin, eləcə də Bakı Dövlət Universitetinin "Şərqşünaslıq", "Tarix" fakultələrinin isavadlı tələbələrinin Azərbaycan Milli Elmlər Akademiyasının akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunda işlə təmin edilməsinə şərait yaratması, işçilərinə sevgi və qayğı ilə ya-



naşması akademik Gövhər Baxşəli qızı Baxşəliyevanın ali üstün cəhətləridir.

Azərbaycan Milli Elmlər Akademiyasınınakademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutun baş direktoru, AMEA-nın həqiqi üzvü, vitse prezidenti, "Qızıl qələm" mükafatı laureatı olan Gövhər xanımın müsbət insani keyfiyyətləri saymaqla bitməz. Bu günlərdə Prezident İlham Əliyev AMEA-nınvitse-prezidenti Gövhər Baxşəliyeva ilə bağlı Sərəncam imzalayıb. Sərəncama əsasən, Azərbaycan Respublikasının ictimai-siyasi həyatında səmərəli fəaliyyətinə və elmin inkişafında xidmətlərinə görə Gövhər Baxşəli qızı Baxşəliyeva "Şöhrət" ordeni ilə təltif edilib. Bu əlamətdar hadisə akademik Gövhər Baxşəli qızı Baxşəliyevanın 70 illik yubiley ərəfəsinə təsadüf etmişdir.

**Mən də öz növbəmdə akademik Gövhər Baxşəli qızı Baxşəliyevanın 70 illik yubileyini səmimi qəlbdən təbrik edir, ona daima Şərqşünaslıq elminin incisi olaraq qalmasını arzu edirəm.**

**Lalə Bayramova**
**AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun "Təhsil" şöbəsinin müdiri filologiya üzrə fəlsəfə doktoru, dosent**

# AZƏRBAYCAN QADINININ ZƏRİFLİK SİMVOLU – KƏLAĞAYI



**AYNUR QAFARLI**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin elmi işçisi, pedaqogika üzrə fəlsəfə doktoru*

**Kəlağayı - Azərbaycanda qadınlara məxsus müxtəlif rəngli, haşiyəli, nazik ipək sapdan toxunmuş dördkünc formalı milli baş örtüyüdür. Qərb zonası bu nəfis örtüyü "çarqat" adlandırır. Gözəllik, sədaqət, ehtiram, ismət, ləyaqət rəmzi olan kəlağayı özündə Odlar Yurdu Azərbaycanın qədim tarixini, adət-ənənələrini, mədəniyyətini yaşatmaqla, onun milli kimliyini də əks etdirir. Kəlağayı milli geyimlərimizi tamamlayan baş örtüyü kimi əsrlərdən-əsrlərə, nəsillərdən-nəsillərə keçərək günümüzə qədər gəlib çatmış, hal-hazırda isə elimizin ismətli və nəvazişli qız-gəlinləri onu ya baş örtüyü, ya da aksessuar olaraq üzərində sevgi ilə daşıyır. Təbriz, Gəncə, Şamaxı, Şəki, Naxçıvan şəhərlərində yaşını və rənginin sehrini, cazibəsini özündə gizlədən bu nəfis baş örtüyü olan kəlağayılar yüksək keyfiyyətlə istehsal olunurdu. Bir çox bölgələrdə istehsal olunmasına baxmayaraq, kəlağayı şimal qərbdə yerləşən İsmayıllı rayonun Basqal qəsəbəsində və Şəki şəhərində daha geniş yayılmışdır.**

Kəlağayının hazırlandığı bu unikal parçanın yaranması da özü böyük prosesdir, tarixi isə çox qədimdir.

Azərbaycanda ipəkçilik ta qədim zamandan təşəkkül taparaq böyük inkişaf yolu keçmişdir. Hətta tədqiqatlar da göstərir ki, Şəkidə ipəkçiliyin tarixi hələ miladdan əvvəlki dövrlərə təsadüf edir. Qədim Şəki uzun illər Azərbaycanda, eləcə də Qafqazda ipəkçiliyin mərkəzi olmuşdur. XIX əsrdə dünyada ən böyük ipəksarma fabriki məhz Şəkidə fəaliyyət göstərmişdi. Şəki ipəyi nəinki Azərbaycanda, həmçinin Şərq ölkələrində, eləcə də Avropada, Rusiyada da tanınır və yüksək qiymətləndirilirdi.

Kəlağayının üzərindəki nəfis naxışlar ağac və ya metal qəlib vasitəsilə vurulur. Kəlağayının yeləni (haşiyəsi), bəzən isə xonçası (ortası) basmanaxış üsulu ilə həndəsi və nəbati naxışlarla bəzədilir. Kəlağayıda əks olunan naxışlar özündə böyük məna ehtiva edir. Bu naxışlar qüdrəti və dərin mənası hesabına yüz illərdir ki, dəyişilməz olaraq qalır. Hər bölgənin kəlağayısı digərindən əsasən, haşiyəsindəki ornamentlərə görə fərqlənir. Müxtəlif rəng çalarlarından istifadə olunan həndəsi naxışların gözəlliyi bitki motivləri ilə həmahənglik təşkil edir. Müxtəlif bitki növlərindən - zəfəran, qarağat, narınc, cır alma, sumaq, zirinc, alça, palıd, böyürtkən və başqa bitkilərdən boyaqlar hazırlanır. Kəlağayının haşiyəsi, bəzən isə xonçası (ortası) basmanaxış üsulu ilə həndəsi və nəbati naxışlarla bəzədilirdi. Bu və ya digər şərbaflıq mərkəzinin kəlağayıları ornamentlərinə görə bir-birindən seçilirdi. Naxışlar içərisində daha çox butalar üstünlük təşkil edir ki, bu da Azərbaycan ornament sənətində ən çox yayılmış bəzək elementlərindən biridir.

Bununla yanaşı, "buta" kəlağayının bəzədilməsində hər zaman əsas element olmuşdur. Şəki və Basqal kəlağayıları içərisində "Saya buta", "Şah buta", "Küsülü buta", "Qoşa buta", "Qotazlı buta" və "Xırda buta" çeşnilərindən daha çox istifadə olunur. "Albuxarı", "Abi", "Heyratı", "Soğanı", "İstiotu", "Yeləni" adlı əlvan kəlağayılar da vaxtı ilə Yaxın Şərq və Qafqaz xalqları arasında böyük şöhrət qazanmışdı.

Bildiyimiz kimi, hansı geyim forması olursa olsun, o, bir və ya ən çoxu iki-üç adda ola bilər. Gördüyümüz kimi kəlağayı həm forma, həm də ad baxımından çoxsaylıdır. Bu geyim növünə verilən adlar insanda maraq doğurur. Çoxunda da "buta" sözünün işlənməsi Azərbaycan-Türk qadının öz butasına sədaqətinin rəmzi olaraq başa düşülür. Əlbəttə, biz buta sözünə ən çox Azərbaycan xalq dastanlarında rast gəlirik. Burada Aşiq öz Məşuquna Tanrı tərəfindən verilən buta ilə (vergi ilə) qovuşur. Bu aşiqlik Tanrı tərəfindən verildiyi üçün Aşiq bu yolda çox-çox əzablı yollardan keçsə də, axırda öz sevgisinə çatır. "Butalı olmaq", "buta verildi" kimi ifadələr bədii ədəbiyyatda da şeir, rəvayət və əsatirlərdə geniş istifadə olunur:

***...Qəlbim, ruhum tam sənədir,***
***Eşqimdə bu tam sənədir,***
***Göylərdən butam sənədir,***
***Sənə butalı gözələm... (A.Q.)***

və ya:

***...Bir butadır, nədir bu?***
***Bilir qiymət, qədir bu.***
***Haçan xətrimə dəysə,***
***Gəlib səcdə edir bu,***
***Qarşımda da baş əyir,***
***"Bir dəli şeytan deyir,***
***Dur, qadasın al bunun"... (A.Q.)***

digər formada isə:

***Dəli-dəli baş götürüb qaçmışam,***
***Əllərinin sığalına acmışam,***
***Arzu-arzu, çiçək-çiçək açmışam,***
***Yuxuların butasına gedirəm...***
***(A.Q.)***

Deməli, burada kəlağayı adlarında buta sözünün işlənməsi bizə əsl sevgidən, eləcə də milli-mənəvi dəyərlərə malik olan sevginin qadın-ana dəyərindən xəbər verir. Burada "buta" sözünün önündə işlənən ayrı-ayrı sözlərdə çox mətləblərdən bizləri xəbərdar edir. Onların bir neçəsinin adında olan simvolik mənaları açmaqla biz öz fikrimizə işıq sala bilərik. Məsələn, "Saya buta" adlanan kəlağayıdakı saya sözünün hərfi mənasını açaraq deyə bilərik ki, saya sözünün hərfi mənası iki cür olur: Birinci mənası kölgə, o biri mənası isə adi, yəni sadə...

Buradan belə nəticəyə gəlmək olar ki, bu kəlağayı növü adi vəziyyətlərdə, belə demək mümkünsə, evdar xanımların istifadə etdiyi baş örtüyüdür. Çünki saya sözünün hərfi mənasında olan kölgə və adi, yəni sadə mənaları bizə belə deməyi əsas verir. Başqa bir kəlağayı adının mə-nasına fikir verək: "Şah buta". Şah sözü, şübhəsiz, hər birimiz üçün anlaşılan sözdür. Görünür, bu kəlağayı bütün kəlağayı növlərinin başında duran növ kimi yaranmış, ondan yuxarı təbəqəyə malik olan kübar xanımlar istifadə etmişlər. "Küsülü buta" kəlağayı adı da maraq doğurandır. Burada küsülü sözünü bir neçə mənada izah etmək olar: qadının öz taleyindən və yaxud da dünyadan incikliyi mənasında. Bu inciklik də, əlbəttə, bir neçə səbəbdən ola bilər. Qadının hər hansı bir yaxınını vaxtsız itirməyindən, ya da müəyyən yas mərasimində iştirak etməsindən və s. Bu növ kəlağayıda butalar bir-birinin əksinə, sanki küsülü anlamında verilir. Buta sözü ilə bağlı olan digər kəlağayı adlarının da mənalarını açsaq, biz onların hər birinin adında bu cür simvolik mənaların olduğunu görəcəyik. Bundan başqa özündə "buta" sözünü təcəssüm etdirməyən kəlağayı adları da maraqlıdır. "Albuxara", "Heyratı", "Soğanı", "İstiotu" və s.

Bildiyimiz kimi aşıqlar, müğənnilər də başlarına buxara papaq qoyurlar. "Heyratı" isə bir muğamın adı ilə bağlıdır. Bunlar isə namusun və sevginin rəmzidir. Kəlağayıya verilən "Soğanı" və ya "İstiotu" adlarının hərfi mənası onların acılıq rəmzi olması ilə bağlı ola bilər. Başqa bir izahda isə bu kəlağayı adları onların daşıdığı adların rəngi ilə əlaqələndirilə bilər. Bu da bizə belə bir nəticəyə gəlməyə bizə əsas verir ki, kəlağayı adlarının hərfi mənasını tam çılpaqlığı ilə açmağın özü bir elmi məqalənin mövzusudur.

Hal-hazırda ölkəmizdə kəlağayı toxuculuğu işini davam etdirən sənətkarlar çoxdur. Həmçinin Azərbaycanda milli dəyərlərimizi yaşadaraq zərif kəlağayı örtən qadınlarımız bu örtükdə daha cazibəli və füsunkar görünür, gözəlliklərinə gözəllik qatırlar. Bir sözlə, zərif kəlağayı qadınlara gözəllik gətirən və ismət simvolu sayılan bir baş örtüyüdür.

Bu kəlağayılarda aşıqların və şairlərin iftixarla tərənnüm etdikləri utancaq və ürkək baxışlar, işvəkar təbəssümlər, qadın simasının gözəllik cizgiləri, isməti, həyası gizlənmişdir. M.P.Vaqifin qoşmasında da kəlağayılı qız-gəlinlər belə vəsf olunmuşdur:

***Kəlağayı gülgəz, libası əlvan,***
***Bir güli-rənadır mənim sevdiyim.***

və ya şairin ümumtəhsil məktəblərinin 8-ci sinfi üçün "Ədəbiyyat" fənni üzrə dərsliyinə salınan "Hayıf ki yoxdur" qoşmasında deyildiyi kimi:

***...Kəlağayı əlvan qəssaba qıyqac,***
***Altından cunası hayıf ki yoxdur.***

misrasında da kəlağayının Azərbaycan qadınlarının gözəlliyini tamamladığını, kişilərin də bu örpəyə sevgi və ehtiramla yanaşdığı açıq-aydın görünür.

Gözümü açandan evimizdə kəlağayı görmüşəm, ağappaq, bənövşəyi yelənli, ipək kimi yupyumşaq... Nənəm Nazxanım xanım toy-düyünlərə gedəndə bu kəlağayısını taxıb süslənərdi. El-obanın matəm günündə isə qara kəlağayısını taxıb elin dərdinə şərik olardı.

Kəlağayı naz-qəmzəli, şux yerişli Azərbaycan qadınlarının bənzərsiz gözəlliyinə xüsusi bir sirr, müəmma qatmışdır. Yaşlı və qoca qadınlar kəlağayını dingə, yaxud çalma bağlayır, cavan qız-gəlinlər isə örpək kimi istifadə edirdilər. Bu zərif ipək kəlağayılar zərif qız-gəlinləri həm gün istisindən, həm də soyuqdan qoruyur.

Bu ənənə bu gün də davam edir. Kəlağayı qədim adətlərimizin ayrılmaz tərkib hissəsi kimi öz rəngləri ilə səadət, bədbəxtlik, xeyir və şər kimi funksiya daşımışlar. Gəlin köçən qızın başına ağ kəlağayı örtmək, gəlin arabasının və ya maşınının qabağına ağ, soğanı, narıncı, zoğalı kəlağayılar bağlamaq, hüzn və matəm günlərində isə evlərin qarşısından qara kəlağayılar asmaq, niyyət baş tutduqda ziyarətgahlara kəlağayı bağışlamaq, şikəstlərə, kasıblara kəlağayı pay vermək kimi adətlərimiz buna nümunədir. Hələ uşaqlıqdan kəlağayı örtən xanımlara həsədlə baxmış, özümü nə vaxtsa onların yerində olmağı arzulamışam. Kəlağayıya olan sevgim tükənməz və əbədidir. Bu sevginin nəticəsi olaraq, kəlağayıya bir neçə şeir həsr etmişəm:

### KƏLAĞAYIM

***Səni örtüb cavan, qarı,***
***Ay elimin milli varı.***
***Şəkimizin yadigarı,***
***Nənələrdən qalan payım,***
***Kəlağayım.***

***Daim sənlə öyünmüşəm,***
***Mən bəxti çox yeyinmişəm.***
***Nə vaxt səni geyinmişəm,***
***Gözəllikdə yoxdur tayım,***
***Kəlağayım.***

***Qürurusan ataların,***
***Yellənirsən narın-narın.***
***Üstündəki butaların,***
***Tarix kimi qədim, qayım,***
***Kəlağayım.***

***Eşqə mayak, gur işıqsan,***
***Sən bir sülhsən, barışıqsan.***
***Qadınlara yaraşıqsan,***
***Qoy vəsfini elə yayım,***
***Kəlağayım.***

***Nur səndədir, ziya səndə,***
***Abır səndə, həya səndə,***
***Bəzək səndə, saya səndə,***
***De, hansını deyim, sayım,***
***Kəlağayım.***

***Milli xüsusiyyətlərimizin əsas daşıyıcılarından biri olan kəlağayımızı bir qadın olaraq üzərimizdə daşımaqla onun təbliği ilə məşğul olmalıyıq. Çünki bu sirli örpəyimizdə nənələrimizin nəfəsi, doğmalıq hərarəti hələ də duyulur və kəlağayımız var olduqca bu nəfəs də duyulacaq, ruhumuz bu doğma hərarətdən qidalanacaqdır...***

***Başqa bir şeirimdə isə kəlağayıya olan sevgimi kəlağayılı gözələ xitabən belə bildirmişəm:***

### KÜSÜŞMÜŞÜK, BARIŞDIR

***Kəlağayılı gəlin,***
***Dopuda piti gətir.***
***Zəfəranın bol eylə,***
***Yayılsın evə ətir.***

***Gözəldir bu gün hava,***
***Qoy sevinsin yurd-yuva.***
***Düz süfrəyə paxlava,***
***Noğul, bamiyə, fətir.***

***Gəlsin mürşidim, pirim,***
***Açsın, qoynuna girim,***
***Yazım bir məktub verim,***
***Təcili yara yetir.***

***Utanıram yaşımdan,***
***Unutqan yaddaşımdan.***
***Çıxıb gedir başımdan,***
***Deyəsən, ağlım itir.***

***Samovarı alışdır,***
***Küsüşmüşük, barışdır.***
***Sevdaları qarışdır,***
***Məclisi şirin bitir.***

Basma naxış üsulu ilə naxışlanan Şərq motivli haşiyəli kəlağayılar ölkəmizin sərhədlərin-dən kənarda da şöhrət qazanmışdır. Bu ipək məhsulları yerli sakinlərin, qonaqların və turistlərin zövqünü oxşamış, bu sənət nümunələri sərgilərdə, yarmarkalarda nümayiş etdirilmişdir. Kəlağayı sənətinin Azərbaycan xalqının milli-mənəvi dəyərlər sistemində və adət-ənənələrimizdə ən mühüm mədəniyyət nümunəsi olduğu beynəlxalq səviyyədə öz təsdiqini tapmışdır. Belə ki, UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Hökumətlərarası Komitəsinin 2014-cü il noyabrın 26-da keçirilən iclasında Azərbaycan kəlağayı sənəti "Kəlağayı simvolizmi və ənənəvi sənəti" adı ilə UNESCO-nun Qeyri-Maddi Mədəni İrsin Reprezentativ Siyahısına daxil edilmişdir.

"Keçmişi gələcək yaşadar" devizi olaraq sevdiklərinizə kəlağayı hədiyyə edin.

## "Qərbi Azərbaycan tarixi Azərbaycan torpağıdır" elektron məlumat bazası hazırlanıb

**Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasının əməkdaşları tərəfindən hazırlanan "Qərbi Azərbaycan tarixi Azərbaycan torpağıdır" elektron məlumat bazası istifadəçilərə təqdim edilib.**

Kitabxanadan bildirilib ki, bazada "Rəsmi sənədlər", "İrəvan xanlığının tarixi", "Qərbi Azərbaycanın tarixi coğrafiyası və etnik tərkibi", "Xəritələr" kimi bölmələrlə yanaşı, AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun




Qərbi Azərbaycan tarixi şöbəsinin rəhbəri Cəbi Bəhrəmovun "Qərbi Azərbaycan torpaqlarının ermənilərə güzəşt edilməsi", Qərbi Azərbaycan İcmasının rəhbəri, Milli Məclisin deputatı Əziz Ələkbərlinin "Qərbi Azərbaycan həqiqətlərini bədii əsərlərə daşımalıyıq", BDU-nun kafedra müdiri professor İradə Hüseynovanın "Qərbi Azərbaycana qayıdış tarixi zərurətdir", tarix üzrə fəlsəfə doktoru Nazim Mustafanın "Qərbi Azərbaycandan azərbaycanlıların etnik təmizlənməsinin mərhələləri və monoetnik erməni dövlətinin yaranması" başlıqlı məqalələrinin tam mətni də yer alır.

Elektron məlumat bazasında Qərbi Azərbaycan İcması, icmanın inzibati binasının açılışı zamanı söylənilən nitqlərin tam mətni, Qərbi Azərbaycana, azərbaycanlıların Ermənistan ərazisindəki tarixi-etnik torpaqlarından deportasiyasına, Qərbi Azərbaycanın ədəbiyyatına və mədəniyyətinə dair nəşr edilən kitab, məcmuə və məqalələrin siyahıları təqdim edilir.

Bazada "İrəvan Dövlət Azərbaycan Dram Teatrı", "Qərbi Azərbaycan toponimləri", "Qərbi Azərbaycan abidələri" "İzonəşrlər, xəritə və atlaslar", "Dissertasiya və avtoreferatlar", "Elektron resurslar", "Foto və video qalereya" kimi bölmələr də mövcuddur.

"Qərbi Azərbaycan tarixi Azərbaycan torpağıdır" adlı elektron məlumat bazası kitabxananın rəsmi saytında https://ryl.az/melumat.html yerləşdirilib.



Əli Şirin Şükürlü

# 1 esse, 1 şeir

## Filosofun qeydlərindən

### 1. İncəsənət və gerçəklik

(fəlsəfi esse)

**İnsan bədii əsər oxuyarkən və ya incəsənət əsərlərini (film, tamaşa, təsviri sənət və s.) seyr edərkən nədən özünü gerçək obyektin iştirakçısı hesab edir - məsələn, insan hər hansı bir bədii filmi izləyərkən onun sujet xəttini təşkil edən hadisələrin yaradıcı təfəkkürün məhsulu (gerçək mövcud olmayan hadisələr) olduğunu dərk etdiyi halda, o, insanda həm də gerçək hadisə assosiasiyası yaradır? Yəni insan nə üçün həmin anda müəyyən emosiyalara qapılır, hadisələrin onların arzuladığı şəkildə baş verməsini arzulayır?**

Elmi tədqiqat işimin istiqamətinə (elm fəlsəfəsi) uyğun olaraq subyekt-obyekt, yəni dərkedilən və dərkedən qarşılıqlı əlaqələri kontekstində qeyri-səlis çoxluqlar nəzəriyyəsinin (həmçinin qeyri-səlis məntiq nəzəriyyəsinin) fəlsəfəsini araşdırarkən məni çoxdan düşündürən bu məqam üzərində dayanmaq qərarına gəldim. Subyekt-obyekt münasibətlərini fəlsəfi fikir tarixinə istinadən təsnifatlaşdırarkən yuxarıda qeyd etdiyim suala cavabım aşağıdakı şəkildə oldu:

Hegel dialektikasında Mütləq ideyanın inkişafı üç mərhələdən keçərək triada yaradır: Tezis antitezisə keçir və sonda sintezlə yekunlaşır. Mütləq ideya öz ilkin reallığının mövcud olduğu birinci mərhələdən (bu mərhələni filosof loqika adlandırır) ikinci mərhələyə keçib maddi dünyanı yaradaraq tezis mərhələsindən antitezis mərhələsinə keçir. Üçüncü mərhələdə isə Mütləq ideya antitezisdən (maddi aləmdən) yenidən ideal oblasta - insan şüuruna qayıdır və sintezlə yekunlaşma baş verir. Bu mərhələdə isə o, xüsusi forma alır - ya elmi biliyə, ya da incəsənətə çevrilir.

Bu kontekstdə K.Popperin epistemoloji baxışı da maraqlıdır: Reallıq üç dünyadan ibarətdir. Birinci dünya obyektiv mövcud olanların, ikinci dünya subyektin (empirik, rasional və s. dərkedilən və ya dərkedilməyən), üçüncü dünya elmi-yaradıcı fəaliyyətin (miflər, elmi nəzəriyyələr, incəsənət əsərləri və s.) yaratdığı dünyadır. Onun fikrincə (və hesab edirik tamamilə haqlıdır), hər üç dünya daimi vəhdət halındadır - üçüncü dünya yaratdığı obyektlər vasitəsilə birinci dünyanı dəyişdirib ikinci dünyaya uyğunlaşdırır.

İndi isə birbaşa sualın cavabına keçid alaq:

**Sual.** İnsan bədii əsər oxuyarkən və ya incəsənət əsərlərini (film, tamaşa, təsviri sənət və s.) seyr edərkən nədən özünü gerçək obyektin iştirakçısı hesab edir - məsələn, insan hər hansı bir bədii filmi izləyərkən onun sujet xəttini təşkil edən hadisələrin yaradıcı təfəkkürün məhsulu (gerçək mövcud olmayan hadisələr) olduğunu dərk etdiyi halda, o, insanda həm də gerçək hadisə assosiasiyası yaradır? (Yəni insan nə üçün həmin anda müəyyən emosiyalara qapılır, hadisələrin onların arzuladığı şəkildə baş verməsini arzulayır?)

**Cavab.** Məsələ ondadır ki, insan şüuru elə struktura malikdir ki, ehtimal olunan hər bir hadisənin gerçəkləşə biləcəyinə onda bir inam mövcuddur, yəni o düşünür ki, ehtimal olunan hər bir hadisə baş verə bilər. Və yaxud o, inanır ki, baş verməsi mümkün olan hər bir hadisə ehtimal olunandır. Bu aspektdə onun düşüncəsi seyr etdiyi filmdə təsvir olunan hadisələrin hansısa gerçək bir hadisənin (ya baş verən, ya da baş verəcək hadisənin) mövcudluğu barədə təsəvvürləri oyadır. Yəni onun şüurunun hansısa bir hissəsində filmdə izləniyi hadisənin ya baş vermiş, ya da baş verəcək hansısa hadisənin təsviri olduğu barədə təsəvvürlər mövcuddur. Məhz filmdəki hadisənin gerçək mövcudluğu barədə yaranan bu təsəvvürlər onda film barədə "reallıq" assosiasiyasının yaranmasına səbəb olur.

Deməli, elmi biliklər və incəsənət əsərləri, doğurdan da, təsəvvürlərlə (subyekt) gerçək dünya (obyekt) arasında əlaqələr quran ən mükəmməl vasitələrdir. Sanki bu mərhələdə antitezisdən tezisə (Hegel) qayıdış baş verir və Popperin təbirincə isə "üçüncü dünya birinci dünyanı dəyişdirib ikinci dünyaya uyğunlaşdırır".

### 2. Ədəbi suprematizm:

### Monizm

*Kənd evimizdə yenə də payız:*
*Ağaclarda payız, quşlarda payız.*

*Ağaclarda, həm də quşlarda zaman - nəsə dəyişib:*
*axı ağaclar daha çox tanıdar dəyişmələri.*
*(Bir də çiçəklər - onların öz zamanı*
*hamıdan fərqli; gündüz  açıb, axşam solanlar).*

*Nəsə dəyişib deyəsən: yox olub(r) yaşıllıq,*
*dayanıb bir mövcudolma, yerində başqası.*
*Yaşıl sarıya çevrilib(r) - eyni ağaclar deyilmi,*
*indi rəngini dəyişən,*
*bəs yaşıl hanı? - sarıda gizlənib sadəcə.*

*Eyni cür dəyişmələr bildirir;*
*bütün ağaclar eyni ağacdır əslində,*
*Ümumidən qopub*
*tək-tək düşüblər torpağa*
*bir qədər fərqli formalarda.*

*İnsanlar da ağac kimidi elə,*
*heç kim inanmasa da,*
*mən dəqiq bilirəm; Bir olub*
*və ayrı düşüblər nə vaxtsa -*
*indi o Bir olan gizlənib*
*Hamının içində.*

## "Yar gəldi yar" mahnısının erməni musiqisi kimi təqdim olunmasının qarşısı alındı

**Azərbaycanın Xalq artisti Şövkət Ələkbərovanın ifa etdiyi "Yar gəldi yar" mahnısının "Youtube" səhifəsində erməni musiqi nümunəsi kimi yerləşdirilməsinin qarşısı alınıb.**

Bu barədə Adalet.az-a Əqli Mülkiyyət Agentliyindən məlumat verilib. Bildirilib ki, Ş.Ələkbərovanın ifa etdiyi "Yar gəldi yar" mahnısı "Armenian Music, (Torkish languge) Music 15. (rare) Music 17. Şövkət Ələkbərova (rare)" "rekviziti" altında 2016-cı il sentyabrın 4-də "Youtube" "BehrooZ Abshar" adlandırılan səhifəsində yerləşdirilib. Qeyd edilib ki, "Yar gəldi yar" mahnısı 1957-ci il 16 aprel tarixində Azərbaycanın Xalq artisti Səid Rüstəmovun dirijorluğu və Xalq çalğı ansamblı orkestrinin müşayiəti ilə Ş.Ələkbərovanın ifasında lentə alınmışdır. Səslənmə müddəti (xronometraj) 4.33 saniyədir. 13313 kod nömrəsi ilə AzTV-nin "Qızıl Fond"unda saxlanılır. "Məlumat üçün bildiririk ki, Ş.Ələkbərovanın "Youtube"də əmlak hüquqlarının idarəçiliyini bu sahədə Bakı şəhərində fəaliyyət göstərən "Mikpro" MMC həyata keçirir. Buna görə də "Mikpro" MMC cəlb edilməklə Əqli Mülkiyyət Agentliyi tərəfindən həyata keçirilən tədbirlər nəticəsində Ş.Ələkbərovanın ifaçı kimi hüquqlarının pozulmasına səbəb olan qeyd edilən video Youtube-nin "BehrooZ Abshar" səhifəsindən silinib. Bununla da Ş.Ələkbərovanın ifaçı kimi hüquqlarının pozulması Youtube rəhbərliyi tərəfindən öz təsdiqini tapmış və onun pozulmuş hüquqları bərpa edilib", - məlumatda vurğulanıb.

Qeyd edək ki, "Yar gəldi yar" mahnısının musiqisi Adil Gəraya, sözləri Əli Kərimə məxsusdur.



VAQİF YUSİFLİ

# BİR ŞAİRİN DUYĞULARI

**Qorxmaz Kadusini ikimininci illərin əvvəllərindən tanıyıram və bu tanışlıq get-gedə səmimiyyətə, iki insanın bir-birini anlayacaq bir səviyyəyə çatdı. Hiss elədik ki, onu və məni bir-birimizə yaxınlaşdıran doğmalıq ədəbiyyatdan, şeirdən gəlir. Qorxmaz şairdir, artıq ədəbi aləmdə də tanınır. Şeirləri mərkəzi qəzet və jurnallarda da dərc olunur.Mən onun  iki kitabına ("Bir gün dönəcəyəm" və "Məni zirvələrə qaldıran əllər") müqəddimə-ön söz yazmışam. Bu yaxınlarda "Azərbaycan" jurnalının keçən ilki saylarını nəzərdən keçirərkən (№9) Qorxmazın dörd şeiri ilə qarşılaşdım. "Bayrağıma bükün məni" şeiri bu günün vətənpərvərlik ruhunu ifadə edir:**

***Tükənəndə bir gün yolum,***
***Ağ biçməyin, mənə oğlum.***
***Bir köynək də yaxın olum,***
***Torpağıma bükün məni.***

***Apardığım hər sirrimin,***
***Bükülməyən dərd-sərimin,***
***Yarımçıq qalan şeirmin***
***Varağına bükün məni.***

***Qoy bu şeir dursun şahid,***
***Bitməyib davamız, eşit.***
***Vətənimçün olsam şəhid,***
***Bayrağıma bükün məni.***

Bu coşqu Qorxmazın o jurnalda dərc edilən "Olmalıdır" şeirində də öz əksini tapır.

Qorxmaz Kadusinin yeni şeirlər kitabı - "Sən elə sev ki.." onun bir şair kimi formalaşdığını, poetik üslubunun yetkin hala gəldiyini sübut edən şeirlərlə diqqətimi cəlb etdi. Bu kitabda şairi düşündürən bütün mövzularda şeirlər görə bilərik. Təbii ki, mövzu -nədən yazmaq əsas şərt deyil. Əsas odur ki, sən  bu mövzuya hansı bədii rənglər qatmısan, nə yazmaq yox, necə yazmısan. Və bu mənada Qorxmazın bir çox şeirləri həm məna-məzmun baxımından, həm də şeiriyyətcə-fikrin bədii ifadəsi nöqteyi-nəzərindən diqqəti çəkir.

Qorxmaz Kadusi də bu dünyanın - bu məmləkətin - bu gerçəkliyin sakinidir. Deyəndə ki: "Mənsə şeir yazıram" - deməli, bir şair kimi onun çevrəsində baş verən hadisələrə, yaşadığı məmləkətdə cərəyan edən ictimai-smiyasi olaylara və dünyaya seyrçi olmamalıdır. İlk növbədə, bu günün Azərbaycan şairi Azərbaycanın taleyini düşünməlidir.Qorxmazın bir çox şeiri də bu düşüncənin inikasıdır. "Şuşa alındı" şeiri göstərir ki, bu böyük zəfəri bütün varlığınla sən də yaşamalısan. Ya da başqa bir şeirdə bu zəfərin bir şair dilində gur səsini eşidirik:

***Nə yaxşı səkkizi noyabr varmış,***
***Qayıtdı varlığım, dirildi canım,***
***Zəfərin mübarək, Azərbaycanım!***
***Anam! Dərddən axan yaşına qurban,***
***Vədəsiz ağaran başına qurban,***
***Şəhid övladının daşına qurban,***
***Mən sənin oğlunam, sənsən həyanım,***
***Zəfərin mübarək, Azərbaycanm!***

Onun  "Azərbaycan əsgəri" şeiri isə bir marş xarakteri daşıyır.

Qorxmaz Kadusi həyat, dünya, ölüm, varlıq-yoxluq, təbiət və onun gözəllikləri, sevgi, gözəllik, real gerçəkldiyin onda doğurduğu hisslər, həyəcanlar, mənfiliklər -bir sözlə,yaşadığı həyatın bütöv mənzərəsi haqqında öz fikirlərini şeirlərində ifadə etməyə çalışır və əksər hallarda bu istəyinə nail olur. O, heca şeirinin şairidir, desəm, yanılmaram. Qoşma, gəraylı və hecanın müxtəlif bölgüləri  onun şeirlərinin forma xüsusiyyətini təşkil edir. Şeirlərində də bədii təsvir vasitələri diqqəti cəlb edir, çünki bunlar hər hansı şeirin naxışlarıdır.

Mən istəyirəm öncə onun təbiətlə bağlı şeirlərindən söz açım. Çünki bu şeirlərdə Qorxmazın poetik axtarışları daha  çox diqqəti cəlb edir. Mən onun "Su ağlayır" şeirini misal gətirmək istəyirəm. Su necə ağlaya bilər? Əgər şair bunu metaforaya çevirə bilirsə, bu onun adi bir təbiət hadisəsinə yeni baxış bucağını nişan verir.

***Bu damcılar yağış deyil,***
***Son nəğmədə qu ağlayır.***
***Göz yaşının gir altına,***
***Günahları yu ağlayır.***

***Əl də çatmır yaxasına,***
***Az qalır ki, göy də sına.***
***Düşüb ölüm odasına,***
***O ağlayır, bu ağlayır.***

***Yuyur pası, hirsi, kini,***
***Yerdəkini, göydəkini.***
***Yarıb çıxırYer təkini,***
***Yuya-yuya su ağlayır.***

Qorxmazın "Lalə", "Qobustan", "Sən o bənövşəni niyə dərmədin", "Budaqlarda çiçəklər yaz" və s. şeirlərində də təbiətə, onun məna dolu gözəlliklərinə heyranlığın şahidi oldum. Hiss olunur ki, Qorxmaz təbiət aşiqidir və bu təbiət aşiqi hirsli küləklərin  budaqları, yarpaqları öz gözəlliyindən edirməsinə dözə bilmir:

***Bu ağac, o çəmən yaşıl olmayıb?***
***Saçıma hopubdur qışın ağlığı.***
***Yaz-cavan canımdan  heç nə qalmayıb,***
***Yarpaq tökümünə baxa bimlirəm!***

Qorxmazın "Düşüncələr" silsiləsindən qələmə aldığı iki şeiri üzərində dayanmaq istəyirəm. Sərbəstdə yazılıfb  bu şeirlər və o, həyat, zaman və ölüm haqqında öz ftikirlərini doğrudan da, sərbəst şəkildə ifadə edə bilir. Ölüm labüddür və heç kəs bu labüdlükdən qaça bilməz, amma insan ümidlə yaşamalıdır.

Qorxmazın portret-şeir yaratmaqda  da maraqlı cəhdləri var.

İstər öz daxili-subyektiv fikirlərini ifadə etsin, özü haqqında danışsın, istərsə də digər nəsnələrdən-əşyalardan, insanlardan, onlara məxsus xüsusiyyətlərdən, mənəvi məsələlərdən söz açanda xarakterik cizgilər yaratmağa can atır.

"Şəhidim" şeirində "Güllələr köksündə bitən şəhidim" deyir. "Kölgə" şeirində kölgə məfhumunu şeir dililə şərh edir, bu mücərrəd anlayışın portretini yaradır.

Şeirimizdə ayrılıqdan çox söz açıblar (ən çox sevgi şeirlərində). Qorxmaz isə ayrılıqların ümumi mənzərəsini yaradıfr: "Aparanda insanı, Ayırır ruhdan canı. İlkin-sonun ünvanı, Göydədir ayrılıq-lar".

Bu dövrün şairi gerçəklikdə bavş verən pisliklərə, neqativ hadisələrə də biganə qavlmamalıdır.Qorxmaz da bir şair kimi bunları görür, yeri gələndə acılayırp, haqq sözünü deyir.

***Qanına susayıb insan insanın,***
***Nifaq, qisas, böhtan var aramızda!***

"Puldur" şeiri mənə böyük Mirzə Ələkbər Sabirin "Pul" satirasını xatırlatdı.  Qorxmaz öz şeirində pulun insan həyatında oynadığı rolu, həmçinin onun mənəviyyata mənfi təsirini ciddi yumorla əks etdirir:

***Pula görə  ev yıxılır***
***Pulla "cinlər çıxarılır",***
***Ziyarətdə daş atılır,***
***Danladan Şeytanı puldur.***

***Yaşa, birdən ölmə qağa,***
***Qənaət et, qoy qırağa.***
***Pulzuz qoymazlar torpağa,***
***Kəfən, məzar, dini puldur.***

Qorxmaz Kadusinin sevgi şeirləri də onun içindən keçən duyğuların ifadəsidir.İlk eşqin  yaşantıları  var bu şeirlərdə. Ürəkdə kök salan və illər keçdikcə unudulmayan və həmişə bakirəliyini qoruyub saxlayan o hisslər-o ilk məhəbbət necə unudula bilər?  Sevgi ölmür, onu yaşadan üyrək də ölmür.

***Payızımı, qışımı***
***Ünvanımı, yaşımı***
***Sevincdən göz yaşımı,***
***Sildəcəm, görüşərik!***

***Canı həsrətdən qurtar,***
***Ruhu özümə qaytar.***
***Görüşməyə bir yol var,***
***Öləcəm, görüşərik!***

**Qorxmaz Kadusinin şeirləri məndə belə bir inam yaratdı ki, o, bundan sonra da axtarışlarını davam etdirəcək və yeni şeirlər karvanı ilə YOL gedəcək... POEZİYA  YOLU.**



BAYAT

№ 29 (889)



# Sinəm gördü min sitəmi, min ahı, Qəm yükünü daşımağı neynirəm?



Bəhram FƏRMANZADƏ

## VƏTƏN

Arada ayrılıq iki yüz ildi,
Qardaşın qardaşdan əli üzüldü.
Hicran göz yaşına dönüb süzüldü,
İradə, mətanət, dbzümsən, Vətən!

Sərhəd məftilindən tikandı yaxan
Sinəmdə qıvrılıb Arazsan axan.
Bu taydan o taya həsrətlə baxan,
Vüsalın gözləyən gözümsən, Vətən!

Ömürtək əriyən yolumda şamsan,
Muraza can atan arzusan, kamsan.
Nağıllı gecəsən, qərib axşamsan,
Mən sənin, sən mənim özümsən, Vətən!

## ARAZ

Arazım bir anadır,
O sahildə balası
Arazım bir anadır,
Bu sahildə balası.

Arazım bir anadır,
Dərdimizə qalası.
Arazım bir anadır,
Bölünübdür laylası.

Arazım bir anadır,
Dərdə dözür, lal dayanır.
Arazım bir anadır,
Baxışında sual yanır.

## ARAZIN ÜSTƏ

Sahilinə çıxan kim,
Həsrəti ilə baxan kim.
Göy suyunda axan kim,
Gülüm, Arazın üstə.

Üzünə ələk salıb,
Durnalar lələk salıb
Düyünü fələk salıb,
Elim, Arazın üstə.

Suyu alov dilimi,
Yandıracaq əlimi,
Axan alın tərimi,
Silim Arazın üstə.

Ocaq mənimdir deyə
Külək alıb yedəyə.
Sovrulsun qoy göyə
Külüm Arazın üstə.

Mənəm həsrət xəstəsi,
Əlimdə gül dəstəsi
Eşidim qardaş səsi,
Gəlim Arazın üstə.

Vüsal həsrətim ahı,
Sinəmdir nişangahı.
Aydın açıb sabahı,
Ölüm Arazın üstə.

## ARAZ ADİ ÇAY DEYİL

Araz adi çay deyil,
Onun bizə qəsdi nə?
Niyə günahlar yıxır,
Çoxu onun üstünə.

Hər bir çaya tay deyil,
Araz sovqat, pay deyil.
Araz adi çay deyil,
Axır millət qanından.

Sakit dayanıb keçmək,
Olmaz onun yanından,
Sıyrılıb qılınc kimi,
Araz çıxar qınından.

Sədd, sərhəd arasından
Sakitləşir, gurlaşır,
Şahə qalxan dalğalar,
Gör necə məğrurlaşır.

Sovuşmağa can atır,
Axır Kürlə birləşir.
Onun sinəsi üstə
Azərbaycan yerləşir!

## OĞULLAR YATARSA

Oğullar yatarsa, yurdda qurd ular,
O, gecə yatammaz qərib gecəni.
Bu taydan o taya keçər ordular,
Arazın üstünə sərib gecəni.

## DÜNYA GÖZLƏRİN AYDIN

Atlı, atdan düş yeri
Aran yurd örüş yeri.
Dünya, gözlərin aydın,
Təbrizdi görüş yeri.

## VARIYMIŞ

(Müəllimim və dostum
Fərman Kərimzadənin ruhuna)

Cəbrayıla onunla birlikdə gedib hər sübh çağı, qürub vaxtı Xudafərin körpüsünə baxardım. Belə qərara gəldik ki, onun məşhur "Qızıl ağacdan asılmış beşik" əsərinin adını dəyişib "Xudafərin körpüsü" qoyaq. Çünki Xudafərin körpüsündən böyük el, tarixi şəxsiyyətlər keçmişdir)

Qara bulud yağış olub selləndi,
Çopur daşlar dağ döşündən hellendi.
Çeşmələrin zümrüd gözü lilləndi,
Xan Arazın bulanmağı varıymış.

Çinar töküb həsrətdən yarpağın,
Canıdır su, qanıdır su torpağın.
İki yerə bölünən bu torpağın,
Göz yaşıyla sulanmağı varıymış.

Bu qalanın mamır basıb hörpüsün,
Keçə bilmədim Xudafərin körpüsün,
İtirmişik beldə kəmər hörpüsün,
Baba yurdun talanmağı varıymış.

Həsrətimin Araz olan qolunun,
Ləkələyən Bakı, Təbriz yolunun
Ortalıqda bitən tikan kolunun,
Boynumuza dolanmağı varıymış.

## ÖPƏRSƏN

"Şuşa, Qarabağ üçün burnumun ucu göynəyir"- deyən dostum Ənvər Əhmədin əziz xatirəsinə

Həyat mənə işgəncədir, zülümdü,
Bir kimsəm yox, gözləyənim ölümdü.
Sənə qalan bircə ovuc külümdü.
Azad olan torpağıma səpərsən.

Xətainin qılıncını al görüm,
Gir döyüşə, sağa, sola çal, görüm.
Düşmənimi pərən-pərən sal, görüm,
Qolda qüvvət, ürəyimdə təpərsən.

Pərvazlanıb qartal göydə süzəndə,
Güzgülənib sona göldə üzəndə,
Şamxoruzu fərəsini gəzəndə,
Göndər mənə, qaranquşdan xəbər sən.

Bu dünyanın üzü sevinc, kədərdi,
Demə, qardaş, nə əkmişdim, nə dərdim.
Bu dünyada nə var gəldi-gedərdi,
Başım üstə qılınc, qalxan, sipərsən.

Bir palıdam, şimşək vurdu laxladım,
Öz kökümü, budağımı saxladım.
Ənvər Əhməd, yaxşı, pisi yoxladım,
Qarabağın torpağını öpərsən.

## NEYNİRƏM

*Tək bir oğlum Fərmanın ruhuna*

Yarılmadı həsrətimin cinahı,
Yıxın, qardaş, üstümə hər günahı.
Sinəm gördü min sitəmi, min ahı,
Qəm yükünü daşımağı neynirəm?

Turac uçur, qırqovullar kirimir,
Bu məftillər, bu dirəklər çürümür.
Sinəm yanır, hicran dağı ərimir,
Belə sitəm, belə dağı neynirəm.

Şam düzəldin gözlərimin yağından,
Heydər baba, gül dərmədim bağından.
Üzmədim mən şamamanı tağından,
Mən saralıb-solmuş tağı neynirəm.

Şərbətini Savalanda içməsəm,
Toy paltarın əllərimlə biçməsəm,
Oğlüm üçün Təbrizli qız seçmişəm,
Mən bu toyu, bu növrağı neynirəm.

## VƏTƏN BİRLƏŞİR

Bu taydan o taya
Həsrətlə baxan
Mənim gözlərimdə
Vətən yerləşir.

O taydan, bu taya
Çör-çöp daşıyan
Bir quş dimdiyində
Vətən birləşir.

## EŞQ MƏBƏDİ

"Pəncərədən daş gəlir
Ay bəri bax, bəri bax".
Pəncərəniz bağlıdı,
Amma tülü görünür.
Ağ tülünün üstündə
Qızıl gülü görünür.

Pəncərəniz bağlıdı,
Qapınızı döyən yox.
Pəncərədən daş gəlir,
"Ay bəri bax"-deyən yox.

Pəncərəniz açıqdı,
Səhər durub o başdan
Eşq məbədi tikmisən,
Mənə atdığın daşdan.

## NÖQTƏ QOYA BİLMƏDİM

Yaşamaq gözəl şeydi,
Yaşadım, duya bilmədim.
Bu dünya bir qədəh meydi,
İçdim, doya bilmədim.

Baxdım göy üzünə,
Gecəsinə, gündüzünə,
Baxdım əyri, düzünə,
Abır, həya bilmədim.

Ölçüm, biçimi yazdım,
Köçən köçümü yazdım.
Yazdım, içimi yazdım,
Nöqtə qoya bilmədim.

## KEÇİR KƏNDİMİZDƏN TƏBRİZ QATARI

*Elə bilirdim kəndimizdən keçən bütün qatarlar Təbrizə gedir*

Kimin dərdi var bizim tək görən,
Bizim kədərimiz, qəhrimiz var.
Bağı-bağatıyla yuxuma girən,
Təbriz tək bir qərib şəhərimiz var.

Elə bil ömrümün dünəni yoxdur,
Gün keçir, il keçir eh, ömür yarı.
Vaqonlar boş gedir, minəni yoxdur.
Keçir kəndimizdən Təbriz qatarı.

Təbrizə qatarda gedən var, susun,
Vaqonu bələdçi yoxlaya bilmir.
Vaqon bələdçisi vətən arzusun
Daşıyan qatarı saxlaya bilmir.

Getdiyi yollardan duman, çən keçir,
O taydan boylanır neçə dağ-dərə.
Keçir, kəndimizin içindən keçir,
Nəfəs dərə-dərə, fit verə-verə.

Dünyanı dolanır dəmir yolları,
Uzatsaq Təbrizə çatar qolumuz.
Görəsən bağlıdır, bağlıdır, niyə,
Bakıdan Təbrizə gedən yolumuz.

Gedənlər boylanır pəncərələrdən,
Gedənlər gecəni, gündüzü yatmır.
İlahi, bilmir, bəs niyə, nədən,
Bu qatar sonuncu mənzilə çatmır.

**Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

№ 45 (2419) 29 noyabr 2024-cü il

# EL GÜCÜ, SEL GÜCÜ




**Dünyada çox müharibələr olub və bu müharibələrin ədalətlisi də olub, ədalətsizi də. Müharibələrdə ən çox qazanan gözəgörünməyən quvvələr və onlarla bir yerdə iştirak edən insanlardır. Gözə görünən isə ev-eşiyi dağılan, oğlu-uşağı, doğması ölən kimsəsiz və yazıq adamlardı. Təbii ki, müharibələr həmişə bəşəriyyətə fəlakət gətirib. Üstəlik də bir yandan xəstəlik, aclıq və sonu görünməyən ölüm. Bunlar tarixin bütün anlarında yaşanıb.**

Amma Azərbaycanın 2020-ci il sentyabrın 27-də başladığı İkinci Qarabağ savaşı tamamilə başqa bir müharibədir.

Çünki Azərbaycanın 20 faiz ərazisi erməni işğalçıları tərəfindən ələ keçirilmiş və 30 ildən çox o torpaqları əsarət altında saxlayırdılar. Bununla yanaşı, Birləşmiş Millətlər Təşkilatının Azərbaycanın torpaqlarının ermənilər tərəfindən işğal olunması barəsində dörd qətnaməsi mövcud idi.



Və bu qətnaməyə əsasən ermənilər qeydsiz-şərtsiz həmin əraziləri tərk etməli, boşaltmalı və Azərbaycana təhvil verməli idilər. Çox təəssüf ki, 30 il keçməyinə baxmayaraq, ermənilər bu addımı atmırdılar. Bu bir yana qalsın, üstəlik həm də onlar işğal edilmiş ərazimizdən və Ermənistanın öz ərazisindən yaşayış məntəqələrimizi, şəhərlərimizi, qəsəbələrimizi ağır artilleriyadan və iriçaplı silahlardan fasiləsiz atəşə tuturdular. Təbii ki, bu atəşkəsin pozulması demək idi, üstəlik də ərazilərimizin və yaşayış məntəqələrimizin zərər görməsinə dəlalət edirdi. Ona görə də Ali Baş Komandan, prezident İlham Əliyev 2020-ci il sentyabrın 27-də ordumuza əks hücuma keçmək barədə əmr verdi. Aydındır ki, ordumuz da bu əmri çoxdan gözləyirdi. Amma ermənilər onu gözləmirdilər ki, Azərbaycan Ordusu qısa zaman kəsiyində çox möhtəşəm hücuma keçəcək və bir neçə günün içində işğal altında olan ərazilərimizin xeyli hissəsini azad edəcəkdir. Çünki onların çox güclü "Ohanyan səddi" deyilən müdafiə xətti vardı. Və bu müdafiə xəttini keçmək çox çətin idi. Həmin müdafiə xətti minalanmış, böyük kanallar qazılıb su doldurulmuş və tikanlı məftillərlə mühafizə edilmişdir. Bununla yanaşı, bütün yüksəkliklər erməni silahlı qüvvələrinin əlində idi.

Yəni onlar bizim ordunun bütün hərəkətlərini izləyə bilirdilər.

Fuzulidə Lələtəpə yüksəkliyi və Cəbrayıldakı bir neçə yüksəklik onlara çox böyük imkan verirdi ki, hücumumuzun qarşısını ən azından ala bilməsələr də, ləngitsinlər. Amma sentyabrın 27-də Azərbaycan Ordusunun ildırım sürətli hücumu demək olar ki, erməniləri çaş-baş salmışdı. Kim deyir ki, erməni ordusu zəif və qorxaq idi, bu bir o qədər inandırıcı deyildi. Ən azından ona görə ki, biz o qədər də zəif düşmənlə deyil, təpədən-dırnağa silahlanmış erməni ordusu ilə döyüşürdük. Sadəcə olaraq, Azərbaycan Ordusu onlardan qat-qat güclü idi. Qat-qat güclü olduğuna görə də sentyabrın 27-dən 30-na qədər Füzulinin və Cəbrayılın 10-a yaxın kəndi erməni işğalından tam təmizləndi. Bu döyüşlər zamanı minalanmış yolları və yerləri təmizləyən istehkamçılarımızın çox böyük xidmətləri var idi. Çünki onlar zamanında minalanmış əraziləri və yolları təmizləməsəydi həm ağır texnikalarımız, həm də əsgərlərimiz həmin minalara düşə bilərdi. Heç şübhəsiz ermənilər öz mövqelərini gücləndirmək üçün bütün mövcud imkanlardan istifadə etmişdi. Üstəlik də onların havadarları olan Qərb ölkələri, xüsusən də Fransa erməniləri arxayın edirdilər ki, narahat olmayın, bir neçə gündən sonra müharibəni dayandıracağıq. Onların ağlı 2016-cı ilin aprel döyüşlərinə getmişdi. Onda müxtəlif təzyiqlərlə və vədlərlə o döyüşləri saxlatdırmağa nail oldular. Amma İkinci Qarabağ savaşının başladığı sentyabr ayında heç bir qüvvə Azərbaycan Ordusunun hücumunun qarşısınıləngidə bilmədi. Hətta ölkə prezidenti İlham Əliyevə nə qədər təzyiqlər, təsirlər olsa belə heç birinə əhəmiyyət vermədən dedi ki, bizim hücumumuzun qarşısını heç bir qüvvə ala bilməz.

Belə də oldu. Artıq Cəbrayıl rayonu erməni işğalından azad edilmişdi. Bu o demək idi ki, Cəbrayıl şəhərinin işğaldan azad olunması Azərbaycan Ordusunun ən böyük, möhtəşəm qələbəsi idi. Qələbənin ardı isə günbəgün gəlirdi. Yəni Cəbrayıldan sonra Hadrut şəhəri erməni işğalından azad edildi. Hadrut hərbi və strateji cəhətdən çox əhəmiyyətli idi. Çünki bu şəhərin götürülməsi Füzuli şəhəri istiqamətində döyüşün sürətlənməsinə və onun tezliklə azad olunmasına şərait yaradırdı. Füzuli şəhərində ən böyük yüksəkliklərdən biri olan Məngələnata yüksəkliyində ermənilər mövqe tutmuşdular. Əgər Dədəli, İşıqlı istiqamətindən Füzuli şəhərinə hücum olsaydı itkilərimiz daha çox ola bilərdi. Amma Azərbaycan Ordusunun generalları çox yüksək peşəkarlıqla, taktiki gediş elədilər və Hadrut istiqamətindən Füzuli şəhərinin azad olunmasına başladılar.

Aydındır ki, Füzulinin azad olunması da siyasi və hərbi cəhətdən Azərbaycan Ordusunda çox yüksək bir ruh yaratdı. Çünki Azərbaycan Ordusunun əsgərləri hər şəhər, hər kənd, hər qəsəbə uğrunda əsl qəhrəman kimi döyüşürdülər. Onlar ölümdən qorxmurdular. Ona görə qorxmurdular ki, ayaqlarının altındakı torpaq, udduqları hava, içdikləri su Vətən idi. Elə bu torpaq, bu hava, bu su da onlara güc verirdi. Düşmənin nə ağır silahından, nə artilleriya mərmisindən, nə də digər odlu silahlarından əsgərlərimiz çəkinmirdi. Ancaq düşməni məhv etmək və torpaqlarımızı azad etmək haqqında düşünürdülər.

Və 44 gündən sonra bu böyük arzuya da Azərbaycan xalqı, Azərbaycan əsgəri çata bildi. Qubadlı azad olundu, Zəngilan azad olundu, Şuşa azad olundu. Və noyabrın 10-da ermənilərin təslim olması barədə üçtərəfli Bəyannamə imzalandı. Bəyannaməyə əsasən göstərilən vaxt ərzində erməni qoşunu Ağdamdan, Kəlbəcərdən və Laçından çıxmalı idi. Və həmin vaxt da tamam olanda ermənilər o əraziləri tərk etdilər. Ancaq yenə ermənilikləri göstərdilər, yəni o rayonları tərk edərkən yaşayış evlərini, sosial obyektləri, hətta meşələri belə yandırmaqdan çəkinmədilər.

**Azərbaycanda isə çox möştəşəm bir qələbənin sevinci yaşanırdı. Ərazi bütövlüyümüz əsasən təmin olunmuş, xalqımız öz dədə-baba torpaqlarına qovuşmuşdu. Bax, el gücü, sel gücü budur!**

**EMİL FAİQOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

# Qacarlar ailəsindən alim qadın: Validə Tutayuq, nəsli, ailəsi

**Azərbaycanın şərəfli ad daşıyan Qacarqlar soyundan general oğulları ilə bərabər bu soyadı bir daha şərəfləndirən qadınları: Süreyya Qacar, Güvarə xanım Nuriyeva, Kövkəb Səfərəliyeva kimi hakim şah ailəsinə mənsub Bəhmən Mirzə Qacarın nəvələrindən biri də məşhur bioloq alimimiz, Azərbaycanın maarifpərvər qadınlarından olan Validə Tutayuq olub.**

Qızılbaş tayfa ittifaqının nüfuzlu qolu kimi tarixdə yer tutan Qacarlar ailəsinin kişi nümayəndələri ilə yanaşı bu sülalənin qadın nümayəndələri də elmin-maarifin inkişafında imza qoyacaq qədər mühüm işlər görmüşdülər. Tiflisin adlı-sanlı Azərbaycanlı qadınları Mələksima Qacar, Gövhər Qacar Qafqaz canişini, general, qraf Voronsov-Daşkovun sərəncamı ilə yaradılan Xeyriyyə Cəmiyyətində (1906-1917) Sofiya (Səkinə) xanım Şahtaxtinskaya, Naxçıvan xanları nəslindən olan xanım Əlixanova-Avarskaya, Nigar xanım Şıxlinskaya, Məsumə xanım Talışinskaya, Mina xanım Talışinskaya, Həmidə xanım Cavanşir, Səltənət xanım Əhmədova ilə bir sırada coşqun fəaliyyət göstərmişdilər.

Buna baxmayaraq yaxın zamanlaradək ziyalı qadınlarımızdan, xüsusən elmimizin inkişafında xüsusi yer tutan elm xadimlərindən, onların işıqlı, humanist məramlı fəaliyyətlərindən bəhs olunmamaqda idi.

Ara-sıra bu mövzudan bəhs edildikdə belə göz önündə olan bəzi tanınmış şəxsiyyətlərin həyat yoldaşları ilə kifayətlənməli olurduq.

Lakin bunların içərisində elələri də vardır ki, hər biri haqqında ayrıca söz açılmasına xüsusən günümüzdə ehtiyac duyulmaqdadır.

O hakimiyyətdə olan Qacarlara ana tərəfindən mənsub idisə, atası Xasbulat (Kaspulat) bəy əslən Şimali Qafqazdan idi. Onun Azərbaycana yolu Peterburq Meşəçilik Akademiyasındakı təhsil illərindən başlamışdı. Xasbulat bəy Tutayuq (Tutayuk- soyu Kuban bulqarlarına aid soylardandır; mənaca ”dəvə balası, köşək” anlamına gələn uğurlu addır.

Hazırda Kuban boyunda, eləcə də çərkəzlər arasında rastlanır) ali məktəbi əla qiymətlərlə bitirdikdən sonra bir daha yetimçilik, xüsusən anasızlıq qəhrini çəkdiyi doğma ata yurduna dönmək istəməmiş, təhsil illərində yaxın olduğu əslində ata tərəfdən qohumu Üzeyir bəy Hacıbəyovun məsləhəti ilə Şuşaya gəlmişdi. Qohumluq bağları ilə gedib Xurşidbanu Cavanşirin(şair Natəvan) əri general Xasay xan Usmiyevlə bağlı olan Xasbulat bəy Tutayuq həvəslə işə başlamış, Qarabağ ormanlarına gözətçi - meşəbəyi təyin edilmişdi.

Xasbulat bəy gec ailə qurmuşdur: O 1903-cü ildə Şuşada Qızlar Gimnaziyasında müəllim işləyən, rus dilini mükəmməl bilən şəhərdəki savadlı qadınlardan biri sayılan Südabə adlı xanımla evlənmişdi. Südabə xanım Şuşanın Qacar soyuna mənsub kübar ailəsinə mənsub idi.

Onların uşaqları - qızları Zinyət, Fatma, Ənbər, Validə və oğlu Murad bu izdivacdan doğulmuşdu. Xasbulat bəyin qayınatası Çar ordusu Kazak qoşunu polkovniki Rüstəm bəy Mirzəyev idi. ADR zamanı Bakının Şəhər polis rəisi işləyən Rüstəm bəy Mirzəyev Azərbaycanın işğalından sonra Bolşevik hökumətinin ilk 1 saylı hökmü ilə edam olunmuş 15 adamdan biri idi.

Validə Tutayuqun ana babası şahzadə Şahrux Mirzə Qacar(1843-1915) Çar ordusunun Kazak qoşununda fəaliyyət göstərmiş, həmyerlisi Rüstəm bəylə demək olar ki, birgə xidmət aparmışdılar.

Buna görə də hərbi qulluqla əlaqədar Vətəndən uzaqlarda olan və cəbhədən cəbhəyə adlayan Rüstəm bəy Qarabağa döndükdə yaxşı tanıdığı Qacar şahzadə ailəsi ilə qohum olur.

Tutayuq ailəsinin bərk-bərk gizlədikləri, yaxına belə qoymadıqları bu



mənşə ”sırr”i Validə xanımın, istərsə də bu şanlı-şöhrətli ailənin tərcümeyihalında bir qırıqlıq, boşluq yaratmışdı. Yadımdadı bizim tələbəlik illərində məşhur ”Qara Bəhram” adı ilə tanıdığımız savadlı, prinsipial bir adam olan fizika-riyaziyyat üzrə alimin həmin şöhrətli ailəyə mənsub olmasını da bilməzdik (O Validə Tutayuqun dayısı, Bakının AXC dövründə polis rəisi Rüstəm bəyin oğlu idi). Bəhram müəllimin deyimləri, cəsarətli zərbi-məsəlləri universitetimizdə məşhur idi.

Özünün çox ahıl yaşında günahkar kimi Ali İnqilab Tribunalı hökmü ilə güllələnənən sabiq Bakı polismeyestri Rüstəm bəy Mirzəyev Validə Tutayuqun babası-anası Südabə xanımın atası idi.

Həyatdan səhifələr: gülə-çiçəyə könül verən, ”Xarı bülbül” çiçəyini kəşf edən bilgə qadın bu adda opera yazmaq istəyirdi.

Tutayuq ailəsinin sonbeşiyi olan Validə Xaspolad qızı Tutayuq 1914-cü il sentyabrın 23-də Qarabağın ürəyi sayılan Şuşada I Dünya müharibəsi başladığından az sonra anadan olmuşdur.

Atasının peşəsinə böyük sayqı ilə yanaşan Validə xanım onun yolunu seçir. Tutayuqun namizədlik dissertasiyası ”Şəbbügülündə çoxləçəkliliyin təbiəti” adlanırdı. Bir bioloq idi çəmənin, çölün dilini bildikcə ana təbiətə Vətən deyib yaxınlaşırdı.

Görüb tanımadığı həsrətli nağıllardan xəyalların gücü ilə uçub bağlandığı ata- baba yurdu Noqay çöllərinin səfasını, cazibəsini yaşayırdı əməllicə. O, 1930-cu ildə Şuşa şəhər 9 illik orta məktəbini bitirərək Gəncədə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun ”Bağçılıq və bostançılıq” fakültəsinə daxil olur. 1932-ci ildə həmin institutun Bağçılıq kafedrasına preparator vəzifəsinə qəbul edilən V.Tutayuq bu vaxtdan etibarən institutda axşam təhsili ilə yanaşı əmək fəaliyyətinə başlayır. 35 yaşında biologiya elmləri doktoru adını alan ilk azərbaycanlı qadın olmuşdur Validə Tutayuq. 1939-cu ildən Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda Botanika kafedrasına başçılıq etməyə başlayır.

Eyni zamanda, o, SSRİ-nin müxtəlif zonalarında örtülü toxumlu bitkilərin nümayəndələrində çoxləçəkli çiçəklərin tədqiqatını davam etdirir. Bu işi həyat idealına çevirən və daha geniş miqyasda irəlilədən bılgın, eynı zamanda mərd, mübariz bir qadın olmuşdur.

Azərbaycan elminin inkişafında müstəsna əhəmiyyəti olan bu alim qadını məhz Azərbaycan təbiətinə aid bitkilər məşğul edirdi: tarixi relik bitki olan dəmirağacı, şabalıt, nar... bunlar üzərində sitogenetik təhlillər aparır, nəinki Sovet İttifaqı ölkələri, habelə Qərb dövlətlərindəki elm aləminə yeni töhvələr bəxş edirdi. Şuşanın Cıdır düzündə yetişən ”Xarı bülbül” çiçəyinin bio-ekoloji xüsusiyyətlərini də ilk dəfə Validə Tutayuq öyrənmiş, elmi şərhini vermişdi.

Bununla bu nadir bitkinin məhz Şuşa təbiətinə aid olduğunu bütün dünya botaniklərinə çatdırmışdı. Çox keçmir ki o, çiçəklərin elmi şəkildə tədqiqi üzrə fəaliyyətini doktorluq dissertasiyası ilə nəticələndirir.

Beləliklə, Validə Tutayuq 35 yaşında biologiya elmləri doktoru adını alan ilk azərbaycanlı qadın olmuşdur. Bu onun uğuru idi. Bu yorulmaq bilməyən zəhmətkeş alimin elmi uğurları onun şöhrətini vətəndən uzaqlara yaymış, onu dünyanın məşhur alimlərin sırasına çıxarmışdır.

Sevdiyi təbiəti, poeziyanı, musiqini birləşdirmək istəyirdi və bəstəkar Fikrət Əmirovla birgə ”Xarı bulbul” operasına başlamağa niyyətli idilər. Xarı bulbul sevdasını Gəncədə həm qonşusu, həm dostu olan bəstəkrın da başına Xarı bülbül əfsanəsini danışa-danışa o yerləşdirmişdi. Dönə-dönə olduğu Cıdır düzündə gülü-çiçəyi az müşahidə etməmişdi.

Həm də müşahidəsində o da maraqlı idi ki, gül- çiçəyə aşiq idisə də bu aşiqliyin kökündə onun bioloq ixtisası dayanırdı. İxtisasının ustadı olan Validə xanımdan ətrafındakıları heyrətə salan ”göydəndüşmə” xəbərlər eşitmək olardı.

Deyirdi ki, həmişə çal-çağırlı, tar kamanlı Çıdır düzündə çiçəklər qalan yerlərdəkilərdən tez açırdı. Onları həvəsə gətirib düymələnmiş qönçələrindən ləçək-ləçək açdıran muğam avazı olub. Bu sözü ölkənn ilk qadın bir akademikinin, şair ürəkli bioloqun ağzından sözün əsil mənasında qəbul etməli olursan.

**...”Xarı bülbül” elə nağıl olaraq qaldı. Vaxtsız-vədəsiz gələn ölüm bu işi onların əlindən aldı: Validə xanım 1980-ci il dekabrın 12-də əbədiyyətə qovuşdu. Ondan üç il sonra isə Fikrət Əmirov. ”Xarı bulbul” əfsanəsi operası yazılmadan həmişəlik əfsanə olaraq qaldı.**

**Minaxanim Nuriyeva Təkəli**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**

## Azərbaycan millisi FİFA reytinqində irəlilədi



**FIFA milli komandaların növbəti reytinq cədvəlini açıqlayıb. QOL.az xəbər verir ki, bu barədə AFFA-nın saytı məlumat yayıb.**

Noyabr ayının reytinqinə əsasən, yığmamız bir pillə irəliləyib. Azərbaycan milli komandası hazırda 1158,7 xalla 117-ci yerdə qərarlaşıb. Siyahıya 1883,5 xalla Argentina liderlik edir. Fransa 1859,85 xalla 2-ci, İspaniya isə 1844,33 xalla 3-cüdür.

## “Real”dan Çempionlar Liqasında antirekord



**”Real” Çempionlar Liqasında antirekorda imza atıb. QOL.az xəbər verir ki, Madrid təmsilçisi turnirin hazırkı qalibi kimi titulu qazandıqdan sonra qrup mərhələsində üç oyunu uduzan ilk komanda olub.**

Çempionlar Liqasının Liqa mərhələsinin 5-ci turunda ”Kral klubu” ”Liverpul”a 0:2 hesabı ilə məğlub olub. Daha əvvəl isə komanda ”Milan”a (1:3) və ”Lill”ə (0:1) uduzmuşdu.

## Türkan Vəlizadə: “Ev hədiyyə etmək şansım olsaydı...”



**Müğənni türkan Vəlizadə sənət dostları arasından seçim etməli olub:**

Adalet.az bildirir ki, ona şou-proqramların birində ev hədiyyə etmək şansı olsaydı, sənət dostlarından kimə ev verilərdi deyə sual olunub. T. Vəlizadə adı çəkilən üç həmkarı haqqında belə deyib:

”Üç evim olsaydı Nəfəsə də, Şəbnəm Tovuzluya da, Zeynəb Həsəniyə də hədiyyə edərdim. Heç birini seçməzdim. Ancaq 1 ev vermək şansım olsaydı, heç düşünmədən, gözüyumulu həmin evi Zeynəb Həsəniyə hədiyyə edərdim”.

## Natavan Həbibi: “Ögey bacım bizdən uzaqlaşdı”



**Uzun zamandır efirlərdə görünməyən müğənni Natavan Həbibi sükutu pozub.**

Adalet.az xəbər verir ki, o, şəxsi həyatı ilə bağlı danışıb: ”Atasızlıq çox çətindir. Ümumiyyətlə, övlad üçün valideynsiz yaşamaq çox şətin olur. Atasızlıq adama çox şeyi öyrədir. Ən əsas da qadın cildində kişi olmağı öyrədir. Bəlkə də ən ağrılısı budur. Düşünürəm ki, bu da mənim qismətimdir. Mənim bacım da var ki, o, Argentinada yaşayır. Çox istəyərdim ki, bizimlə əlaqəsi olsun. Çox çalışdım ki, onunla əlaqə saxlayım. Amma o bizdən uzaqlaşdı”.

**Əntiqə**

İman Cəmilli dostu **Fazil Sənana** həyat yoldaşı
**Kifayət xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Əbülfət Mədətoğlu ailə üzvləri ilə birlikdə dostu **Fazil Sənana** həyat yoldaşı
**Kifayət xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Təsisçi və baş məsləhətçi:
**Aqil ABBAS**
Baş redaktor:
**İradə TUNCAY**

Qəzet “Ədalət” qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və “Son dakika” MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.**
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2xhesab N: 38070019411100451111 VÖEN: 1300456161
**İndeks:0107 Qeydiyyat nömrəsi 100**

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, “AZƏRBAYCAN” nəşriyyatı, 6-cı mərtəbə.
**Telefon: 538-05-50, 538-51-31. 534-55-98 Faks: 539-80-26**
**adaletqezeti@rambler.ru**
**adaletqezeti@mail.ru, adaletqezeti@box.az**

**Tiraj: 1500**
**Sifariş: 207**
Çapa imzalanmışdır: 28.11.2024